# “Binokl diplomatiyası”na Danimarka da qoşuldu



**Avropa İttifaqının (Aİ) Ermənistandakı özü mülki adlansa da, hərbi xarakterli fəaliyyət göstərməsi ilə gündəmə gələn monitorinq missiyasından yeni xəbər var.**

Bir müddət öncə Kanadanın da cəlb olunması ilə NATO missiyasına çevrilən dəstə fəaliyyətini daha da genişləndirir. Bu günlərdə, adətən, Avropanın siyasi ambisiyaları olmayan dövlətlərindən biri kimi xarakterizə edilən Danimarka da missiyada təmsil olunmaq qərarına gəlib.

Bununla bağlı yayılan məlumatda qeyd olunur ki, Danimarkanın Milli Polis Departamentinin əməkdaşlarından ibarət qrup Ermənistan–Azərbaycan sərhədində Aİ-nin monitorinq missiyasına qoşulub. Bu barədə Aİ-nin Ermənistandakı monitorinq missiyası məlumat yayıb.

**(ardı 4-cü səhifədə)**





# Xalq qəzeti

Xalqın qəzeti!

№ 229 (30633) 18 oktyabr 2024-cü il, cümə

Gündəlik ictimai-siyasi qəzet

1919-cu ildən çıxır

Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti


## Qərbin tikanlı “qızıl gül”ü...



**Gürcüstan xalqı ciddi imtahan ərəfəsindədir. Qonşu və dost ölkənin vətəndaşları oktyabrın 26-da seçkilərə gedərək, parlament seçkisinin qalibini müəyyənləşdirəcəklər.**

Ancaq hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının şansının yüksək olduğu şəraitdə seçkilərə kənar müdaxilələrin edilməsi də diqqətdən yayınmır.

**(ardı 5-ci səhifədə)**

## Prezidentin Füzulinin azad olunmasının növbəti ildönümü ilə bağlı paylaşımı



**Prezident İlham Əliyev Füzulinin işğaldan azad edilməsinin növbəti ildönümü ilə bağlı sosial şəbəkə hesablarında video paylaşıb.**

Paylaşımda deyilir:

“Zəfər tariximiz - Füzulinin Ermənistan işğalından azad edilməsindən dörd il ötür”.

# COP29 məkanlarında hazırlıq yüksək səviyyədə aparılır



Səhifə ⇨ 2

## Ermənistan bölgənin ekologiyasını zəhərləməkdə davam edir



**Yürütdüyü destruktiv siyasəti ilə Cənubi Qafqazda davamlı sülhün, əmin-amanlığın və təhlükəsizlik mühitinin yaranmasına imkan verməyən Ermənistan bölgədə ekoloji tarazlığın təmin olunmasına da, yumşaq desək, etinasız yanaşır.**

**(ardı 3-cü səhifədə)**

## Simonyanın ucuz populizmi



Səhifə ⇨ 4

## Azərbaycandan Avropaya “mavi” axın



Səhifə ⇨ 7

## “Yaşıl” büdcə “yaşıl” keçidin təkanverici amilidir



Səhifə ⇨ 8

## Gənclik şəhərində təhsil innovasiyaları



Səhifə ⇨ 10

# Qarabağ ermənilərinin problemi… Zaxarova reallığı açıqlayır

### *Rusiya XİN sözçüsü rəsmi İrəvanı nədə qınayır?*



**Məlum olduğu kimi, Ermənistan və havadarları müxtəlif beynəlxalq platformalarda Qarabağdakı “erməni milli mirası” kimi qələmə verilən abidələrin, yaşayış məntəqələrinin, guya, Azərbaycan tərəfindən dağıdılması iddiasını qaldırırlar. Onlar, həmçinin bölgənin erməni əhalisinin öz evlərindən köçünə görə ölkəmizi günahlandırmaq yolunu tutur, bunu xarici siyasət predmetinə çevirirlər. Belə yanaşma aşkar həyasızlıqdır. Ən böyük həyasızlıq isə məsələni Azərbaycanla sülh gündəliyinə daxil etmək cəhdləridir.**

Erməni düşüncə mərkəzləri hesab edirlər ki, qaldırdıqları cəfəngiyyat barış sazişində hansısa formada yer alsa, ondan gələcəkdə Qarabağ avantürasının yenidən alovlandırılması üçün tutacaq yeri kimi istifadə mümkün olacaq. Ona görə də mövcud istiqamətdə səylər göstərir, istəyirlər ki, məsələ daim gündəlikdə qalsın. Görünür, Rusiyanın Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Mariya Zaxarovaya ünvanlanmış suallar da bu məqsəddən qaynaqlanır.

Beləliklə, erməni media təmsilçisinin ənənəvi brifinqi zamanı Rusiya XİN rəsmisinə münasibət bildirmək üçün verdiyi ilk sual budur ki, Azərbaycan “işğal olunmuş” Xankəndidə yaşayış binalarını kütləvi şəkildə sökür, xüsusən XIX əsrə və XX əsrin əvvəllərinə aid tarixi məhəllələri dağıdır. Bununla əlaqədar Rusiyanın mövqeyi nədir? Zaxarovanın suala cavabında bildirdiyi ilk fikir belədir: “Mən başa düşdüyüm qədər biz Azərbaycanın ərazisi haqqında danışırıq. Ölkənin qanunları orada tətbiq olunur. Əgər söhbət mədəniyyət obyektlərindən gedirsə, bununla bağlı hər hansı sual varsa, məsələni müvafiq qurumlarda həll etmək lazımdır”.

Bəli, rusiyalı xanım sözçü elə ilk cümlədəcə erməni jurnalistin rəsmi İrəvanın təmsilçilərindən heç də geri qalmayan həyasızlığını ifşa edir. Təxminən belə: Azərbaycan öz ərazisində hansı işi görmək istəyirsə, görəcək və bunun heç kəsə dəxli yoxdur. Əlbəttə, otuz ilə yaxın müddətdə bir daşı belə daş üstə qoyulmamış ərazilərində abadlıq və quruculuq işləri aparmaq, işğalın izlərini silmək ölkəmizin müstəsna səlahiyyətində olan məsələdir.

Ümumiyyətlə, M.Zaxarovanın son zamanlar birbaşa fikirlər səsləndirməsinə və xəstə erməni ictimai rəyini pəjmürdə vəziyyətə salmasına çox rast gəlirik.

Hiss olunmaqdadır ki, xanım rəsmi bu tip sərsəm suallardan bezib. Amma reallıqları daim təkrarlamaqdan yorulmur. Məsələn, Zaxarova, kifayət qədər, konkret şəkildə diqqəti əsas məsələyə yönəldir və deyir ki, Rusiya Qarabağdakı yaşayış yerlərini tərk etmiş şəxslərin taleyindən narahatdır: “Bu, çox böyük faciədir, onun, yaxşı başa düşdüyünüz kimi, bir çox cəhətləri və nüansları var. Biz dəfələrlə Bakının evlərini tərk etmiş əhalinin ora qayıtması imkanının yaradılmasına yönəlmiş konstruktiv addımlarını şərh etmişik və vurğulamışıq. Sizə tam səmimi deyirəm ki, azərbaycanlı həmkarlarımızla ikitərəfli təmaslar zamanı bu məsələni qaldırırıq və müvafiq dəqiqləşdirmələr alırıq. Tarixən o yerlərlə bağlı olan insanların həmin yerləri itirmələrinin nə demək olduğunu çox gözəl başa düşürük”.

Bəli, Azərbaycan dövləti istər 44 günlük müharibədən, istərsə də lokal xarakterli antiterror tədbirlərindən sonra dəfələrlə bəyan edib ki, Qarabağda yaşamış erməni əhali orada qala və həyatını davam etdirə bilər. Ölkəmiz belələrinin fəaliyyəti və təhlükəsizliyi üçün hər cür təminat verməyə hazır olduğunu da açıqlayıb.

Lakin Ermənistan rəhbərliyi fərqli yol seçdi. Baş nazir Nikol Paşinyan administrasiyası Qarabağ ermənilərinin kütləvi şəkildə köçürülməsinə başladı. Ona görə ki, bölgədə erməni mövcudiyyəti üçün şərtlər avantürist planların gerçəkləşdirilməsinə imkan vermirdi. Əhali faktoru isə məhz həmin avantüra və ambisiya naminə lazım idi.

**(ardı 2-ci səhifədə)**

# COP29 məkanlarında hazırlıq yüksək səviyyədə aparılır

## Prezident İlham Əliyev Olimpiya Stadionunda görülən işlərlə tanış olub



**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev oktyabrın 17-də Bakı Olimpiya Stadionunun ərazisində COP29-a hazırlıqla bağlı görülən işlərlə tanış olub.**



Prezidentin köməkçisi Anar Ələkbərov dövlətimizin başçısına COP29 məkanının tədbirə hazırlıq vəziyyətinə gətirilməsi barədə məruzə etdi.

Qeyd edildi ki, ərazidə icra edilən tikinti-quraşdırma işləri yekun tamamlanma mərhələsindədir. Hazırlıq işlərinin sürətlə davam etdiyi nəzərə alınaraq tədbir məkanının BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasına (UNFCCC) tələb olunan tarixdə təhvil verilməsi planlaşdırılır.



Prezident İlham Əliyevə COP29 konfransının ilk günlərində baş tutacaq Dünya Liderlərinin İqlim Fəaliyyəti Sammitinin təşkili istiqamətində atılan addımlar və icra olunan işlərlə bağlı da geniş məlumat verildi.

Dövlətimizin başçısı ərazidə yaradılmış infrastruktur və qurğular, informasiya texnologiyaları və təhlükəsizliyi sahəsində icra olunan tədbirlər, COP29 məkanının enerji ehtiyaclarının yaşıl enerji mənbələrindən qarşılanması üçün tətbiq edilən həllər, iştirakçıların qeydiyyat prosesi və digər sahələrdə görülən işlərlə yaxından tanış oldu.

Azərbaycan Prezidentinə COP29 Yaşıl Zonada görülən işlər barədə də geniş məruzə edildi.

Dövlətimizin başçısı Media Mərkəzinə də baxdı. Burada konfrans çərçivəsində media nümayəndələrinin səmərəli işinin təşkili üçün hərtərəfli şərait yaradılır. Bildirildi ki, konfransın işıqlandırılması üçün bu günə qədər ən nüfuzlu qlobal media qurumları da daxil olmaqla çox sayda media nümayəndəsi akkreditasiyadan keçib.

Prezident İlham Əliyev görüləcək işlərlə bağlı tapşırıq və göstərişlərini verdi.

***AZƏRTAC***

# Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin ləğv edilməsi və bundan irəli gələn məsələlərin tənzimlənməsi haqqında

### *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

**1.** Dövlət Kontrakt Korporasiyası “Azərkontrakt” Açıq Səhmdar Cəmiyyətinin (bundan sonra – “Azərkontrakt” ASC) Azərbaycan Respublikasında daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması sahəsində səlahiyyətləri Azərbaycan Respublikasının Dövlət Neft Şirkəti (bundan sonra – SOCAR) tərəfindən həyata keçirilsin.

**2.** “Azərkontrakt” ASC 2024-cü il dekabrın 1-dən ləğv edilsin.

**3.** Azərbaycan Respublikasının Nazirlər Kabineti:

3.1. bu Sərəncamın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, “Azərkontrakt” ASC-nin digər səlahiyyətlərinin həyata keçirilməsi ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

3.2. “Azərkontrakt” ASC-nin Azərbaycan Respublikasında daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması müqavilələri üzrə hüquq və öhdəliklərinin, eləcə də bu sahədə fəaliyyətdən əldə edilmiş aktivlərinin, o cümlədən pul vəsaitlərinin SOCAR-a və onun strukturuna daxil olan qurumlara ötürülməsinin 2024-cü il dekabrın 1-dək təmin edilməsi üçün tədbirlər görsün;

3.3. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

**4.** Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi:

4.1. bu Sərəncamın 1-ci və 2-ci hissələri nəzərə alınmaqla, “Azərkontrakt” ASC-nin balansında olan digər dövlət əmlakından istifadə ilə bağlı təkliflərini bir ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin;

4.2. bu Sərəncamdan irəli gələn digər məsələlərin həlli üçün zəruri tədbirlər görsün.

**5.** SOCAR:

5.1. bu Sərəncamın 1-ci, 2-ci hissələrinə və 3.2-ci bəndinə uyğun olaraq, Azərbaycan Respublikasında daxili bazarda təbii qazın qaz istehsalçılarından satın alınması, onun nəqlinin, ölkədaxili paylayıcı və istehlakçılara satışının təşkil olunması ilə bağlı strukturuna daxil olan qurumlar arasında səlahiyyət bölgüsünü təmin etsin;

5.2. bu Sərəncamdan irəli gələn digər məsələləri həll etsin.

***İlham ƏLİYEV,***
***Azərbaycan Respublikasının Prezidenti***
**Bakı şəhəri, 17 oktyabr 2024-cü il**

# Gəncəyə raket hücumları məqsədyönlü terror idi

### *Ermənistan, BCM üzvü kimi, bu cinayətləri araşdırmalıdır*

**Ermənistan, Beynəlxalq Cinayət Məhkəməsinin üzvü kimi, 2020-ci ildə Gəncəyə edilmiş raket hücumlarını araşdırmalıdır.**



Bu barədə Azərbaycan Respublikası Prezidentinin köməkçisi, Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyev sosial şəbəkədə yazıb. O, açıqlamasının davamında qeyd edib:

“17 oktyabr 2020: Gəncəyə ikinci ən ölümcül ballistik raket hücumu olub. Ermənistanın ballistik raket hücumları ilə dinc sakinləri qətlə yetirməsi təsadüf və ya yan təsir deyil, məqsədyönlü terror və qətl siyasətidir. BCM üzvü kimi, Ermənistan bu hərbi cinayətləri araşdırmalıdır”.

Xatırladaq ki, İkinci Qarabağ müharibəsi dövründə Gəncə şəhərinin Ermənistan silahlı qüvvələri tərəfindən 5-ci dəfə raket hücumuna məruz qalmasından 4 il ötüb.

***XQ***

# İstanbulda “3+3” formatında 3-cü görüş

**Bu gün İstanbulda Cənubi Qafqaz üzrə Regional Əməkdaşlıq Platformasının (3+3) üçüncü iclası keçiriləcək.**




Türkiyənin xarici işlər naziri Hakan Fidanın ev sahibliyi ilə keçiriləcək iclasa Azərbaycan, Rusiya, Ermənistan və İranın XİN rəhbərləri Ceyhun Bayramov, Sergey Lavrov, Ararat Mirzoyan və Abbas Arakçi qatılacaqlar.

İclasda bölgədə müharibə və qarşıdurmaların yerinə sabitliyin təmin edilməsi və rifahın artırılması məqsədilə atıla biləcək addımlar və regional əlaqələrin gücləndirilməsi istiqamətində konkret əməkdaşlıq layihələri müzakirə olunacaq, aktual regional və beynəlxalq məsələlərlə bağlı fikir mübadiləsi aparılacaq. Toplantıda Hakan Fidanın Türkiyənin Cənubi Qafqazda sülhün və sabitliyin təmin edilməsi üçün göstərdiyi səylər, problemlərin həllində regional iştirakın ən səmərəli üsul olduğu, iqtisadi sahələrdə güvən yaradan tədbirlərin əhəmiyyəti, qarşılıqlı əlaqə və iqtisadi inteqrasiya, həmçinin Azərbaycan və Ermənistan arasında davam edən sülh danışıqları, prosesə Türkiyənin dəstəyi, buna bağlı olaraq Türkiyə ilə Ermənistan arasında normallaşma prosesi kimi mövzulara toxunulacağı gözlənilir.

Qeyd edək ki, İkinci Qarabağ müharibəsindən qısa müddət sonra, 2020-ci ilin dekabr ayında Türkiyə və Azərbaycan prezidentlərinin təşəbbüsü ilə yaradılan Cənubi Qafqaz üzrə Regional Əməkdaşlıq Platforması region ölkələrinin problemləri və əməkdaşlıq imkanlarını müzakirə edə biləcəkləri bir platforma rolunu oynayır. Platformanın ilk toplantısı 2021-ci ildə Moskvada xarici işlər nazirlərinin müavinləri, ikinci toplantısı isə 2023-cü ildə Tehranda XİN başçıları səviyyəsində baş tutub.

***XQ***

# Qarabağ ermənilərinin problemi… Zaxarova reallığı açıqlayır

**(əvvəli 1-ci səhifədə)**

Bir halda ki, mənfur niyyətlər reallaşdırmaq üçün imkan yoxdur, deməli, Qarabağda ermənilərin yaşamalarına da ehtiyac qalmayıb. Rəsmi İrəvanın düşüncəsi bu idi. Nəinki Ermənistan rəhbərliyi, eyni zamanda, onun havadarları da Qarabağ niskili görüntüsünü formalaşdırmaqla, Azərbaycana qarşı mübarizə aparmağa üstünlük verdilər. “Mübarizə” yenə aktuallığını qorumaqdadır. Zaxarovaya belə mənasız sualların ünvanlanmasının səbəbi də məhz budur.

Dediyimiz kimi, M.Zaxarova mətləbləri birbaşa açıqlayır və Qarabağın, guya, ermənisizləşdirilməsinə görə, faktiki olaraq, Ermənistan hakimiyyətini qınayır: “Amma, eyni zamanda, bir daha qeyd etmək istəyirəm ki, qayıtmaq imkanı yaradılıb. Mən indi erməni tərəfinin hərəkətlərini şərh etmək istəmirəm. Yəni, rəsmi İrəvanı nəzərdə tuturam. Düşünürəm ki, siz bir jurnalist və ictimai xadim olaraq, yəqin, buna öz qiymətinizi verəcək və mövcud vəziyyətdə məndən daha yaxşı işlər görəcəksiniz. Amma edilənlər edildi. Eyni zamanda, bir daha deyirəm ki, qayıdış imkanı olub və var. Əgər, siz dediyiniz kimi, insanlar öz evlərini, doğma yerlərini qoruyub saxlamaqda maraqlıdırlarsa, indi bəlkə bu fürsətdən istifadə etmək lazımdır”.



Bəli, Azərbaycan dövləti lokal xarakterli antiterror tədbirlərindən sonra da bəyan edib ki, Qarabağda yaşamış ermənilər öz evlərinə qayıda bilərlər. Ancaq bu, ölkəmizin yurisdiksiyası altında olmalıdır. Qayıdanlar Azərbaycan vətəndaşlığını qəbul etməli, digər vətəndaşlarımız kimi, hüquq və imtiyazlardan bəhrələnməlidirlər. Başqa bir tərəfdən, əgər Qarabağa qayıdış məsələsi varsa, deməli, vaxtilə hazırkı Ermənistan ərazisindəki dədə-baba yurdlarından didərgin salınmış, deportasiyaya məruz qalmış azərbaycanlıların da qayıdışı aktual əhəmiyyət daşımalıdır. Yəni, insan amili əsas götürülürsə, nəzərə alınmalıdır ki, azərbaycanlı və türk varlığının Ermənistandakı mövcudluq tarixi Qarabağdakı erməni mövcudluğunun tarixindən qat-qat əvvələ gedib çıxır. Bu amil mütləq qaydada nəzərə alınmalıdır.

Ancaq nə Ermənistanı, nə də xaricdəki ermənipərəstləri sadə ermənilərin taleyi düşündürmür. Əslində, Zaxarovanın da dediyi budur. Ona görə də, o, Qarabağ ermənilərinin geri qayıdışına təhlükəsizlik təminatına dair suala sualla cavab verir. “Üzr istəyirəm, mən bir sual verə bilərəmmi? Bəs rəsmi İrəvan tərəfindən əhalinin geri qayıtması üçün hansı tədbirlər görüldü? Mən Rusiya Federasiyasının Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsiyəm və ölkəmizin həyata keçirdiyi səylərdən danışıram. Başa düşürük ki, faciələr, münaqişələr və s. səbəbindən insanların evlərindən məhrum edilməsi nə deməkdir”, – deyən Zaxarovanın da Qarabağın kütləvi şəkildə boşaldılmasına görə Ermənistan hakimiyyətini günahlandırdığı aydındır.

***XQ-nin analitik qrupu***

# Kiyevdə Azərbaycanı tanıtma aksiyası

**Kiyevdə Azərbaycanın müstəqilliyinin bərpasının ildönümü münasibətilə ölkəmizin mədəniyyəti təbliğ olunub.**



Azərbaycanın Ukraynadakı səfirliyinin təşkilatçılığı ilə Ukrayna Milli Uşaq Kitabxanasında keçirilən toplantıda xarici ölkələrin səfirlikləri, Ukrayna Mədəniyyət və Strateji Kommunikasiyalar Nazirliyinin nümayəndələri, ictimai, mədəniyyət xadimləri, İrpendə akademik Zərifə Əliyeva adına Linqvistika liseyinin şagird və müəllim heyəti iştirak ediblər.

Ölkəmizin Ukraynadakı səfiri Seymur Mərdəliyev çıxış edərək bildirib ki, müstəqilliyin ilk illəri bir çox daxili və xarici amillərə, xüsusən də torpaqlarımızın Ermənistan tərəfindən işğalına görə Azərbaycan böyük çağırışlarla üzləşib, ciddi sınaqlardan keçib. “O keşməkeşli vaxtlarda Azərbaycanı tam tənəzzüldən ümummilli lider Heydər Əliyev xilas etdi, bundan sonra ölkəmizin inkişaf dövrü başladı. Bu gün isə biz fəxr edirik ki, Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz tərəqqi və inkişaf yolunda inamla irəliləməkdə davam edir”, – deyə səfir vurğulayıb.

Ukrayna Milli Uşaq Kitabxanasının direktoru Alla Qordienko çıxışında bu cür tədbirlərin Azərbaycanla Ukrayna arasında mədəni əlaqələrin inkişafındakı töhfəsindən danışıb.

Tədbirdə Azərbaycana aid mahnılar, şeirlər səsləndirilib, tamaşa nümayiş etdirilib. Eyni zamanda, akademik Zərifə Əliyeva adına Linqvistika liseyinin şagirdlərinin ifasında Azərbaycan dilində şeirlər səsləndirilib.

***XQ***

# Daxili İşlər Nazirliyinin kollegiya iclası





**Oktyabrın 17-də Daxili İşlər Nazirliyində narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizədə görülən işlərə, COP29 tədbiri ilə əlaqədar qarşıda duran vəzifələrə və cari ilin 9 ayının yekunlarına həsr olunan Kollegiya iclası keçirilib.**

İclası giriş sözü ilə açan nazir general-polkovnik Vilayət Eyvazov müzakirəyə çıxarılan məsələlərin insanların həyatının, sağlamlığının, hüquq və azadlıqlarının müdafiəsi kimi mühüm sahələri əhatə etdiyini, habelə COP29 tədbiri ilə əlaqədar qarşıya qoyulmuş vəzifələrin xüsusi plan əsasında ardıcıllıqla yerinə yetirildiyini, beynəlxalq əhəmiyyətli həmin tədbirə hazırlıq işlərinin davam etdiyini bildirib.

2024-cü ilin 9 ayının yekunları ilə bağlı diqqətə çatdırılıb ki, Daxili İşlər Nazirliyi və prokurorluq üzrə qeydə alınmış 24586 cinayətin 89,8 faizi açılıb. Ötən ilin müvafiq dövrü ilə müqayisədə ağır və xüsusilə ağır cinayətlər, qəsdən adam öldürmələr və ona cəhdlər, qəsdən sağlamlığa ağır zərər vurmalar, oğurluqlar, soyğunçuluqlar, informasiya texnologiyalarından istifadə edilməklə və qrup halında törədilənlər, yetkinlik yaşına çatmayanların və əvvəllər məhkum olunmuşların hüquqazidd əməlləri, ailə münaqişəsi zəminində baş verənlərin sayı bütövlükdə 2192 fakt azalıb.

Axtarışa elan edilmiş 6703 nəfərdən 84 faizi tutulub, habelə ağır və xüsusilə ağır cinayətlər törətməkdə şübhəli bilinən 390 nəfərdən ibarət 158 cinayətkar qrup zərərsizləşdirilib. Qanunsuz dövriyyədən 4 ton 81 kiloqram narkotik vasitə çıxarılıb və bu əməllərə görə 5735 nəfər saxlanılıb.

Yol hərəkətinin təhlükəsizliyi ilə bağlı görülən işlər və profilaktik tədbirlərin effektivliyi də öz müsbət nəticələrini göstərib və müvafiq hadisələrin sayı 173 fakt, qəzalarda həlak olanların sayı 107 nəfər, xəsarət alanların sayı 120 nəfər azalıb.

Gündəlikdəki məsələlər üzrə Nazirliyin aidiyyəti baş idarələrinin rəisləri məruzə edərək, narkotiklərlə mübarizə, gənclərin Polis Akademiyasında təhsilə təşviqi, kadrların hazırlığı, ixtisasının artırılması və peşəkarlıqlarının yüksəldilməsi, COP29 tədbiri ilə əlaqədar hazırlıq işlərinin gedişi və digər istiqamətlərdə görülmüş işlərdən, qarşıya qoyulmuş tapşırıqların icra vəziyyətindən, əldə edilən nəticələrdən danışıblar.

İclasa yekun vuran nazir V.Eyvazov cari ilin 9 ayında ictimai asayişin və təhlükəsizliyin təmini ilə bağlı qanunla müəyyən edilmiş vəzifələrin layiqincə yerinə yetirildiyini, cinayətkarlıqla mübarizədə, insan hüquq və azadlıqlarının qorunmasında əldə olunmuş müsbət nəticələrin hesabat dövründə qorunub-saxlanıldığını və bir sıra istiqamətlərdə inkişaf etdirildiyini vurğulayıb. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin ali qayğısı sayəsində daxili işlər orqanlarında peşəkar kadr özəyinin formalaşdığını, infrastrukturun inkişaf etdiyini, müasirləşdiyini, müvafiq fəaliyyətin Nazirliyin xüsusi təyinatlı təhsil müəssisələrində, o cümlədən Polis Akademiyasında da həyata keçirilərək yeni tədris korpuslarının, yataqxanaların, laboratoriyaların və digər zəruri obyektlərin inşa edildiyini, hüquqşünas, kriminalist, informasiya təhlükəsizliyi və digər mütəxəssis ixtisasları üzrə təhsilə namizədlərin seçimində nəzərəçarpan irəliləyişlərin əldə olunduğunu, Akademiyada təhsil almaq arzusunda olan orta məktəb şagirdlərinin sayının ilbəil artdığını, bu istiqamətdə aparılan təşviqatın davam etdirilməsinin vacibliyini, habelə Dövlət Başçısının şəxsi heyətin sosial müdafiəsinin gücləndirilməsinə həssas münasibətindən irəli gələn müsbət dəyişiklikləri diqqətə çatdırıb.

Hüquqazidd əməllərin qarşısının alınmasında vətəndaşların fəallığının artmasına da toxunaraq qeyd edib ki, cinayətkarlığa, onun transmilli növlərindən olan narkotiklərin qanunsuz dövriyyəsinə qarşı mübarizədə, yol hərəkəti təhlükəsizliyinin təminində müşahidə olunan müsbət təmayüllər məhz günbəgün möhkəmlənən polis-vətəndaş münasibətlərinin təzahürüdür və bu işbirliyi fundamental insan hüquqlarının müdafiəsində, hər bir şəxsin qanuni mənafeyinin cinayətkar qəsdlərdən qorunmasında mühüm rol oynayır. Nazir cinayətkarlığa qarşı mübarizədə daxili işlər orqanlarına yaxından köməklik edən və yüksək mövqe nümayiş etdirən hər bir şəxsə – jurnalistlərə, ictimai fəallara, qeyri-hökumət təşkilatlarının nümayəndələrinə minnətdarlıq ifadə edib.

Bununla yanaşı, mediada, sosial şəbəkələrdə, qəbullarda qaldırılan ədalətli və obyektiv məsələlərin təhlilinin aparıldığını və fəaliyyətdə nəzərə alındığını vurğulayan daxili işlər naziri bütün müraciətlərə operativ qaydada baxıldığını, qanunauyğun qərarların qəbul edildiyini, təşəbbüskarlara hüquqlarının izah olunduğunu diqqətə çatdırıb.

Eyni zamanda, avtomobilləşmənin sürətlə artdığı bir dövrdə paytaxtda nəqliyyat sıxlığının aradan qaldırılması ilə bağlı görülən işlər çərçivəsində yolların kənarında qeyri-qanuni saxlanılan və nəqliyyat axınına maneçilik törədən avtomobillərin kənarlaşdırılmasının, sürücü intizamının daha da yüksəldilməsinin, ümumən müvafiq sahədə tədbirlərin gücləndirilməsinin vacibliyini vurğulayıb.

Xidməti fəaliyyətdə olan nöqsan və çatışmazlıqlara da toxunaraq onların aradan qaldırılması üçün lazımi tədbirlərin həyata keçirilməsini, insanları qayğılandıran, onları narahat edən məsələlərlə bağlı bütün müraciətlərə həssaslıqla yanaşılmasını, vətəndaş məmnunluğunun təmin olunmasının daim diqqətdə saxlanılmasını tələb edib.

Yekunda general-polkovnik Vilayət Eyvazov şəxsi heyətin bundan sonra da məsul vəzifələrin və qarşıya qoyulan tapşırıqların öhdəsindən layiqincə gələcəyinə, ölkədə sabitliyi, əmin-amanlığı, dövlətin və vətəndaşların qanuni mənafelərinin hüquqazidd əməllərdən qorunmasında qüvvə və bacarığını əsirgəməyəcəyinə əmin olduğunu bildirib.

***XQ***

# Ermənistan bölgənin ekologiyasını zəhərləməkdə davam edir

**(əvvəli 1-ci səhifədə)**

Ermənistanın dağ-mədən sənayesi müəssisələrində işlərin qeyri-şəffaf həyata keçirildiyi hamıya məlumdur. Ölkəmiz bu qeyri-şəffaf işlərin dayandırılması və orada çalışan yerli və xarici şirkətlərin məsuliyyətə cəlb olunması, beynəlxalq ətraf mühitin qorunması üzrə norma və standartların gözlənilməsinə dəfələrlə çağırış edib. Ancaq rəsmi İrəvan bu çağırışlara əhəmiyyət verməyib.

Əslində, Cənubi Qafqaz regionunda dağıdıcı rol oynayan, Azərbaycan torpaqlarını təxminən 30 il ərzində işğal altında saxlayan, bu müddətdə ərazilərimizdə, sözün əsl mənasında, ağır cinayətlər törədən bir ölkədən başqa nə isə gözləmək də doğru olmazdı. Hər kəsə məlumdur ki, bu cinayətlərə mülki infrastrukturun məqsədyönlü şəkildə kütləvi miqyasda dağıdılması (urbisid), mədəni irsin dağıdılması, saxtalaşdırılması və talan edilməsi (kultursid), ətraf mühitə və biomüxtəlifliyə zərər vurulması (ekosid), mülki əhalimizə, girov və ya əsir götürülmüş vətəndaşlarımıza münasibətdə törədilən əməllər (soyqırımı) kimi ağır cinayətlər daxildir. Təəssüf ki, İrəvan 44 günlük Vətən müharibəsinin başa çatmasından ötən 4 ildə də oxşar hərəkətlərini başqa formada davam etdirir. Necə deyərlər, forma dəyişsə də, məzmun dəyişməyib.

Halbuki, ekologiyanın qorunması, iqlim dəyişmələri ilə mübarizə hazırda bütün dünyada ən çox diqqət yetirilən məsələlərdəndir. Ətraf mühitə əsasən insan təsirinin nəticəsi olan qlobal iqlim dəyişiklikləri bütün dünya üçün narahatlıq doğurur. Relyefi əsasən dağlıq olan, ərazisinin 90 faizinin dəniz səviyyəsindən 1000 metrdən çox yüksəklikdə yerləşən Ermənistanın dağ-mədən sənayesi işləri havanın, su ehtiyatlarının çirklənməsinə gətirib çıxarır. Bu, təkcə Ermənistan sərhədlərində qalmır, eyni zamanda, Cənubi Qafqaz regionunu da təhdid edir. Belə ki, aparılan dağ-mədən sənayesi işləri transsərhəd çayları, regionun atmosferini, şirin su ehtiyatlarını, torpaq ekosistemini çirkləndirir, fauna və florasının məhvi ilə nəticələnir.

Ermənistanın törətdiyi ekosid cinayətləri Qoşulmama Hərəkatının Əlaqələndirmə Bürosunun 2023-cü il iyulun 5-6-da Bakıda nazirlərin bu mövzuda keçirilən görüşündə toxunulan məsələlərdən biri idi. Görüşdə çıxış edən Azərbaycan Prezidenti, Qoşulmama Hərəkatının sədri İlham Əliyev bildirmişdi ki, işğal dövründə altmış min hektar meşəlik məhv edilib, kəsilib və daşınıb, torpaqlarımız və çaylarımız çirkləndirilib və zəhərləndirilib. Dövlət başçımız qeyd etmişdi ki, Ermənistan indi



isə Azərbaycanın Naxçıvan Muxtar Respublikası ilə sərhədində transsərhəd ekoloji fəlakət törətməkdə davam edir: "Bununla Ermənistan 1991-ci il Transsərhəd kontekstində Ətraf Mühitə Təsirin Qiymətləndirilməsi Konvensiyasından (Espo Konvensiyası) irəli gələn öhdəliklərini pozmuş olur. Bu konvensiyada ölkələrin mənfi transsərhəd təsirlərdən qaçmaq üçün bir-biri ilə məsləhətləşmələr aparmasının vacibliyi açıq şəkildə qeyd edilir".

Ermənistanın Azərbaycana vurduğu böyük ziyanlara görə bəlkə də bu yazdıqlarımız kimlərəsə qərəzli görünə bilər. Ancaq bunu deyən təkcə biz deyilik. Virtual ensiklopediya – "Vikipediya"da rus dilində yerləşdirilmiş "Ermənistanın ekologiyası" sərlövhəli materialda bildirilir ki, ölkənin bəzi rayonlarında ekoloji durum bərbad vəziyyətdədir. Bu isə ölkənin təbii sərvətlərinin yüksək keyfiyyətli texnologiyalardan istifadə edilmədən davam edən həddindən artıq istismarı ilə bağlıdır. Ermənistan ekoloji effektivlik indeksinə görə, 180 ölkə arasında 63-cü yerdədir. Ölkənin ən böyük problemləri havanın çirklənməsi, ətraf mühitin (arealın) mühafizəsi və su ehtiyatlarından səmərəsiz istifadədir.

Böyük şirin su ehtiyatına malik, bu gün Ermənistan ərazisində yerləşən və Cənubi Qafqazın ən böyük gölü olan Göyçə gölündə suyun səviyyəsi 1940-cı illərdən bu yana təxminən 20 metr aşağı düşüb. Buna Sevan–Razdan su elektrik stansiyasının intensiv işləməsi və göl sularının suvarma üçün aktiv sərf edilməsi səbəb olub. Nəticədə Göyçə "təmiz" su hövzəsindən "orta dərəcədə çirklənmiş" gölə çevrilib.

Son 30 ildə ölkədə eroziya və sürüşmə nəticəsində 140 min hektar əkin sahəsi, 300 min hektar biçənək və otlaq sahələri kənd təsərrüfatının istifadəsindən çıxarılıb. Meliorasiyaya cəlb olunan eroziyaya uğramış 114 min hektar torpaq sahəsinin cəmi 3,5 faizini bərpa etmək mümkün olub. Meşələrlə örtülü ərazinin payı 11,2 faizdən 8-9 faizə qədər azalıb. Havanın vəziyyəti də qeyri-qənaətbəxşdir. İrəvan, Alaverdi, Vanadzor və Razdanda hava şəraiti xüsusilə pisləşib.

Bütün bunlar az imiş kimi ölkədə dağ-mədən sənayesinin yüksək keyfiyyətli texnologiyalardan istifadə edilmədən davam edən həddən artıq istismarı bütün regiona, o cümlədən Azərbaycana da mənfi təsir göstərməkdədir. Bu mənfi təsirdən daha çox ölkəmizin Ermənistanla sərhəddə yerləşən bölgələri – Naxçıvan Muxtar Respublikası, Şərqi Zəngəzur iqtisadi rayonuna daxil olan Zəngilan, Qubadlı, Cəbrayıl, Laçın və Kəlbəcər rayonları daha çox ziyan görür.

2024-cü il avqustun 16-da keçirilən iqlim dəyişikliyinə səbəb olan ekoloji pozuntulara həsr olunmuş elmi-praktik konfransda Azərbaycan Prezidentinin Naxçıvan MR-dəki səlahiyyətli nümayəndəsi Fuad Nəcəfli bildirmişdi ki, Ermənistan Azərbaycanın ətraf mühitinə bərpası mümkün olmayan ziyan vurmaqda davam edir. Qeyd etmişdi ki, Ermənistanın dağ-mədən sənayesi Azərbaycanın ekologiyasına mənfi təsir göstərir. Səlahiyyətli nümayəndənin sözlərinə görə, Ermənistan tərəfindən metalların zəhərli tullantıların həm Araz çayına, həm də "Şir arxı"na axıdılması nəticəsində burada olan yüzlərlə köçəri quş və balıq məhv olub: "Araz çayının Ermənistan tərəfindən çirkləndirilməsi bu gün də davam edir. Bu isə Arazboyu ərazilərdə flora və faunanın məhvinə səbəb olur. Demək olar ki, artıq bir çox bitki və heyvanların təbiətdən yox olması təhlükəsi yaranıb. Son zamanlar aparılan müşahidələr zamanı müəyyən edilib ki, çayın suyu qatılaşıb, rəngi dəyişilib. Bütün bunlara baxmayaraq, Ermənistan təbiət əleyhinə yönələn əməllərini hələ də davam etdirir. Son vaxtlar, həmçinin ekoterror nəticəsində Sədərək rayonunda "Şir arxı" kanalında köçəri quşlar və balıqlar məhv olub".

Mövzu ilə bağlı fikirlərini öyrəndiyimiz **"Avrasiya Miqrasiya Təşəbbüsləri Platforması" İctimai Birliyinin sədri Azər Allahverənov bildirdi ki,** Ermənis-



tanın 30 il ərzində həyata keçirdiyi təcavüzkar siyasət nəticəsində ərazilərimizin təbiətinə, bioloji müxtəlifliyinə, su ehtiyatlarına, flora və faunasına ciddi ziyan vurulub, faydalı qazıntılar qanunsuz istismar edilib, min hektarlarla meşə sahələri kəsilərək satılıb. Onun sözlərinə görə, bu gün Ermənistanın dağ-mədən sənayesində 26 şirkət fəaliyyət göstərir. Onların fəaliyyəti təkcə Azərbaycanın deyil, bütövlükdə, bölgənin regionun ekologiyasına ziyan vurur. Üstəlik, 26 şirkətinin 12-si Şərqi Zəngəzur iqtisadi rayonuna yaxın yerlərdə yerləşir. Bu isə ölkəmizin ətraf mühiti üçün əlavə problemlər yaradır: "Qafan və Qacaran dağ-mədən kombinatının tullantıları ilə hədsiz dərəcədə çirkləndirilən Oxçuçay, sanki sənaye tullantılarının kollektoru rolunu oynayır. Bu sular təmizlənmədən birbaşa çaya axıdıldığı və çirklənmə səviyyəsi normadan dəfələrlə çox olduğu üçün onun su ehtiyatlarının ölkə ərazisində istifadəsi yararsız hesab edilir. Oxçuçayın Cənubi Qafqazın ikinci böyük çayı olan Araz çayına töküldüyünü nəzərə alaraq deməliyik ki, onun çirklənməsi Arazın su ehtiyatlarının keyfiyyətinə birbaşa təsir göstərir. Araz çayı Kürün ən böyük sağ qolu olmaqla Ermənistanla digər transsərhəd çaydır və Azərbaycanın əkin sahələrinin suvarılmasında həlledici rol oynayır".

**Politoloq Ramiyə Məmmədova** isə dedi ki, 30 ilə yaxın davam edən işğal dövründə Ermənistanın Azərbaycana qarşı bütün pislikləri edib. Onun sözlərinə görə, hələ işğalın davam etdiyi dövrdə peykdən çəkilən foto və videogörüntülərdə torpaqlarımızda hansı vəhşiliklərin həyata keçi-



rildiyi dövlət qurumlarına yaxşı məlum idi. Həmin dövrdə ərazilərimizdə qanunsuz məskunlaşdırma siyasətinin yürüdülməsi ilə yanaşı, təbii sərvətlərimizin vəhşicəsinə istismarı, ekologiyaya ciddi ziyan vurulması baş verirdi. Bəzi xarici şirkətlər isə Ermənistanın cinayət ortağı idi. Onlar yeraltı sərvətlərimizin qanunsuz istismarı üzərində böyük biznes şəbəkəsi qurmuşdular. İşğaldan sonra bütün Azərbaycan xalqı həmin yerlərdə, necə deyərlər, daş üstə daş qalmadığının şahidi oldu. Biz bütün bu qanunsuzluq hallarının hər birini sənədləşdirərək dünya ictimaiyyətinə təqdim etdik. Hazırda Ermənistanın məlum əməllərə görə ölkəmizə təzminat ödəməsini tələb edirik. Ermənistanın təzminat ödəməsinin beynəlxalq hüququn tələbi olduğunu İrəvanda və bütün dünyada yaxşı bilirlər. Buna baxmayaraq, Nikol Paşinyan iqtidarı yenə də xarici havadarlarına güvənərək, geri çəkilmək istəmir.

R.Məmmədova bildirdi ki, Ermənistan iqtidarı bir müddət öncə Naxçıvanla həmsərhəd ərazidə – Arazdəyən kəndində yeni ağır metallurgiya zavodu inşa etmək istəyirdi. Bu isə 1991-ci ildə qəbul olunmuş "Transsərhəd kontekstində ətraf mühitə təsirin qiymətləndirilməsi haqqında Konvensiya"nın kobud şəkildə pozulması demək idi. Konvensiyaya uyğun olaraq, zavodun ətraf mühitə təsirinin hərtərəfli qiymətləndirilməsi aparılmalı, tikinti ilə bağlı qiymətləndirmə sənədi Azərbaycanın müvafiq qurumları, ekoloji fəallar tərəfindən bölgəyə yaxın ərazidə yaşayan qonşu azərbaycanlıların rəyi nəzərə alınmaqla nəzərdən keçirilməli idi. Ancaq qarşı tərəf belə bir razılığa ehtiyac duymamışdı. Nəticədə ölkəmiz bu məsələyə çox şərt şəkildə etiraz etdi və inşaat işləri dayandırıldı".

Politoloq onu da bildirdi ki, Ermənistan indiyədək xarici havadarlarına güvənərək belə destruktiv addımlar atırdı. Amma Azərbaycanın qətiyyəti son vaxtlar onun güvəndiklərini də geri addım atmağa vadar edir. Bu mənada artıq İrəvanda başa düşürlər ki, Azərbaycanın haqlı tələblərini qəbul etməkdən başqa çıxış yolu yoxdur.

***Səxavət HƏMİD***
***XQ***

**Ermənistan parlamentinin sədri Alen Simonyan Parlamentlərarası İttifaqın 149-cu sessiyasında çıxış edərkən bir fikir səsləndirib: “Bundan sonra daha “mükəmməl” yaxşının düşməni olmamalıdır”. A.Simonyan bunu deyərkən, ölkəsi ilə Azərbaycan arasındakı sülh müqaviləsi layihəsi üzərində dayanıb. Bildirib ki, sözügedən layihə çərçivəsindəki beynəlxalq miqyasda qəbul edilmiş 5 müddəa ilə bağlı razılıq əldə olunub. Erməni spiker onu da bildirib ki, ümumilikdə razılığa gəlinmiş müddəaların sayı 16-dır.**



# Simonyanın ucuz populizmi

## *və yaxud “Pralay” sülhü barədə düşüncələr*

Bakı və İrəvan arasında ciddi sülh prosesinin bir neçə ay əvvəl başladığını diqqətə çatdıran A.Simonyan, həmçinin pafosa üstünlük verərək, Azərbaycanla Ermənistanın barış sazişi imzalamanın astanasında olduğunu vurğulayıb: “Biz Azərbaycanı mümkünü reallığa çevirmək üçün siyasi iradə göstərməyə, imkandan istifadə etməyə, bizə qoşulmağa çağırırıq. Biz bu gün sülh sazişini imzalamağa hazırıq”.

Necə deyərlər, avazın yaxşı gəlir, oxuduğun Quran olsa. Bu deyimi təkcə A.Simonyanın deyil, ümumən, Ermənistanın hakim komanda üzvlərinin bir çoxunun ölkəmizlə barış məsələsindəki açıqlamalarına şamil etmək mümkündür. Azərbaycan 44 günlük müharibədən sonra məğlub Ermənistana barış əlini uzadıb, Simonyan isə ölkəmizin ölkəsinə qoşulmasından danışır. Azərbaycan Ermənistana deyil, Ermənistan Azərbaycana qoşulmalıdır. Çünki barışı ilk təklif eləyən Azərbaycan olub. İkincisi, indiyədək siyasi iradə göstərməyən, hər cür oyunbazlığa yol verən İrəvandır. Yəni, Simonyanın da tərkibində yer aldığı hakim erməni siyasi komandası.

Bilavasitə sülh sazişini imzalamağa hazır olmaqdan söz düşmüşkən isə deyək ki, baş nazir Nikol Paşinyan da bir müddət əvvəl istər BMT Baş Assambleyasının 79-cu sessiyasında çıxış edərkən, istərsə də MDB Dövlət Başçıları Şurasının Moskvadakı toplantısı çərçivəsində eyni fikri dilə gətirmişdi. Ancaq burada spesifik məqam var. Rəsmi İrəvanın təmsilçiləri beynəlxalq müstəvidə elə fon yaradırlar ki, sanki Ermənistan Azərbaycanla sülh müqaviləsi imzalamağa hazırdır, ölkə mütərəqqidir, səmimidir və sair. Simonyan hazırda bu təqdimatlara, bir növ, pafos ritorikasını əlavə etməklə diqqəti özünə cəlb edir. Belədə, istər-istəməz, sual yaranır: Ermənistan sülhə hazırdırsa, o zaman hazır olmayan tərəf kimdir? Aydındır ki, diqqətlər Azərbaycan üzərinə yönəlir və əslində, Ermənistan rəsmilərinin də məqsədi budur ki, ölkəmizi xarici aləmə qeyri-konstruktiv tərəf kimi göstərsinlər. Belə yanaşma yolverilməzdir, səmimiyyətdən tam uzaqdır. Rəsmi İrəvanın yanaşması həm də ona görə yolverilməzdir ki, onun mövqeyində sülhün özü yox, sülh məsələsində ciddi manipulyasiya var. Bəs manipulyasiya nədədir, ondan da söz açacağıq.

Həqiqətən, Azərbaycan–Ermənistan sülh müqaviləsi layihəsi üzrə bir çox məqamlar razılaşdırılıb. Hərçənd, konkret nələr razılaşdırılıb, bu barədə heç nə deyilmir. Amma ortaq məxrəcə gəlinməyən məsələ da aydındır. Söhbət Naxçıvana yoldan gedir. O yoldan ki, onunla bağlı müddəa Azərbaycan, Rusiya və Ermənistan liderlərinin 10 noyabr 2020-ci il tarixli üçtərəfli Bəyanatında yer alıb. Bəyanatın 9-cu bəndində bildirilib: “Bölgədəki bütün iqtisadi və nəqliyyat əlaqələri bərpa edilir. Ermənistan Respublikası vətəndaşların, nəqliyyat vasitələrinin və yüklərin hər iki istiqamətdə maneəsiz hərəkətinin təşkili məqsədilə Azərbaycan Respublikasının qərb rayonları və Naxçıvan Muxtar Respublikası arasında nəqliyyat əlaqəsinin təhlükəsizliyinə zəmanət verir. Nəqliyyat əlaqəsi üzrə nəzarəti Rusiyanın Federal Təhlükəsizlik Xidmətinin sərhəd xidmətinin orqanları həyata keçirirlər. Tərəflərin razılığı əsasında Naxçıvan Muxtar Respublikası ilə Azərbaycanın qərb rayonlarını birləşdirən yeni nəqliyyat kommunikasiyalarının inşası təmin ediləcək”.

Üçtərəfli bəyanatın 9-cu bəndindəki “maneəsiz hərəkət” ifadəsinə diqqət yetirək. Azərbaycan çox doğru olaraq bunu “Azərbaycandan Azərbaycana yol” məntiqi ilə əsaslandırır. Yəni, yolda heç bir gömrük və sərhəd nəzarəti olmamalıdır. Ermənistan isə məsələnin qoyuluşu ilə razılaşmır. Nəinki razılaşmır və 44 günlük müharibənin məğlubu kimi üzərinə düşən öhdəliyi yerinə yetirmir, eyni zamanda, yeni reallıqlar formalaşdırmağa çalışır. Məsələn, Ermənistan xarici işlər nazirliyinin mətbuat katibi Ani Badalyan bu günlərdə “Armenpress”in sorğusuna cavab olaraq bildirib ki, İrəvanın irəli sürdüyü “Dünyanın kəsişməsi” ideyası ölkəsinin üzərinə götürdüyü öhdəlikləri yerinə yetirmək üçün planlaşdırdığı layihədir. Göründüyü kimi, ortada ciddi həyasızlıq var. Çünki diqqətə çatdırdığımız 9-cu bənd, kifayət qədər, konkretdir. Yerdə ancaq onu icra etmək qalır. Hansısa söz oyununa, interpretasiyalara ehtiyac yoxdur.

Bəli, Ermənistan üzərinə düşənləri icra etmək istəmədiyi üçün “Dünyanın kəsişməsi”ni irəli sürüb. Məqsəd bu təşəbbüsün köməyi ilə ölkənin qlobal nəqliyyat dəhlizinin açar fiquruna çevirməkdir. Elə bir fiqura ki, kommunikasiyaların açılmasından qazanacağı dividend ona avantürizmi diri saxlamaq üçün kömək olsun, sipərə çevrilsin. Bakıda durumu çox yaxşı dərk edirlər. Ölkəmizin rəhbərliyi gözəl bilir ki, qlobal nəqliyyat xabının episentrinə çevriləcək Qərbpərəst Ermənistan həm prosesdən maddi və mənəvi gəlir götürəcək, həm də həmin Qərbin təhriki ilə istənilən an həmin nəqliyyat xabının işini iflic edəcək, layihə iştirakçılarını şantaj yolu tutacaq. Buna görə də sülh müqaviləsinə tam yanaşmaq lazımdır.

Prezident İlham Əliyev isə bir neçə gün əvvəl Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş fövqəladə və səlahiyyətli səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən bildirib ki, barış sazişinin bütün bəndləri eyni dəyərə malikdir, birini digərindən ayırmaq olmaz. Dövlətimizin başçısı Ermənistan hökumətinin “bu vaxtadək nə barədə razılaşdırılıbsa, ona imza atılsın, razılaşdırılmamış müddəalar növbəti mərhələlərə saxlanılsın” qəribə təklifini tamamilə reallıqdan kənar hesab etdiyini deyib və bu cür yanaşma presedentinin ona məlum olmadığını vurğulayıb.

Deməli, bir daha aydın olur ki, A.Simonyanın əvvəldə diqqətə çatdırdığımız “Bundan sonra daha mükəmməl yaxşının düşməni olmamalıdır” fikri də mənasızdır. Həm də ona görə ki, Ermənistan 1988-ci ildən bəri ölkəmizə düşmən münasibəti bəsləyib, müstəqil Ermənistan Respublikasının qayəsini Azərbaycana qarşı işğalçılıq siyasəti təşkil edib və hazırda rəsmi İrəvan bu yaramaz dəstxətti dəyişmək üçün heç bir əməli tədbir görmür. Yəni, tam təminatlı barış yolu ilə getmək istəmir. Çalışır ki, sülh müqaviləsi formal sənəd olsun. Elə bir sənəd ki, onu gələcəkdə rahatlıqla pozmaq və qəsbkarlığa başlamaq üçün əsaslar qalsın. Tələsik, qeyri-müəyyən sülh müqaviləsi təbliğatı məhz bu səbəbdən işə salınıb.



Bildirdik ki, Simonyanın çıxışı bu təbliğatı gücləndirmək üçün pafos ritorikasından ibarətdir. Nəinki pafosdan, eyni zamanda, erməni spikerin bildirdikləri ucuz populizmin köməyi ilə reallığı təhrif etmək cəhdidir. Daha sərt reallıq isə budur ki, Ermənistan sürətlə silahlanır, özünün hərbi potensialını gücləndirir. Yeri gəlmişkən, bu günlərdə “Alpha Defense” portalı Hindistanın Ermənistana “Pralay” tipli kvaziballistik raketlər satacağını açıqlayıb. 150 kilometrdən 500 kilometrədək məsafədəki obyektlərə zərbə endirə bilən bu raketlər hədəfə çatmazdan əvvəl havada manevr edərək raket hücumundan müdafiə qüvvələrinin hədəfindən yayınmaq qabiliyyətinə malikdir. Onu da deyək ki, “Pralay” raketlərinin istehsalına 2023-cü ildən başlanılıb və hazırda onların bir qismi Hindistanın Çinlə sərhədində yerləşdirilib. Deməli, simonyanların, paşinyanların və digər yanların açıqlamaları fonunda Ermənistanın sülhə necə hazır olduğu ortadadır. Hesab edirik ki, əlavə şərhə ehtiyac qalmır.

***Ə.CAHANGİROĞLU***
***XQ***

# “Binokl diplomatiyası”na Danimarka da qoşuldu

## *Kopenhagenin bədnam Aİ missiyasına daxil olması müsbət qarşılanmır*

**(əvvəli 1-ci səhifədə)**

Missiyanın tərkibində fəaliyyət göstərəcək qrup sərhədboyu ərazidə patrul fəaliyyətinə cəlb olunub. Qeyd edilib ki, qrupun tərkibindəkilərdən üçü polis əməkdaşı, digərləri isə mülki şəxslərdir.

Qeyd edək ki, missiyanın bölgəyə



göndərilməsinə Avropa Siyasi Birliyinin 2022-ci il oktyabrın 6-da Praqada keçirilən ilk sammitində qərar verilmişdi. Müvəqqəti, yəni iki ay müddətinə regiona göndərilən və sonradan müddəti uzadılan missiyanın fəaliyyəti Azərbaycanda narazılıqla qarşılanır. Narazılığın əsas səbəbi bununla bağlıdır ki, missiya mülki adlansa da, onun tərkibində Avropanın bir sıra ölkələrinin, o cümlədən, regionda destruktiv siyasət yürüdən Fransanın ehtiyatda olan jandarm qüvvələri, polis zabitləri təmsil olunurlar. Digər səbəblər isə missiyanın say tərkibinin razılaşmada nəzərdə tutulan 40 nəfər əvəzinə 50 nəfər olması, müddətinin uzadılmasının Azərbaycanla razılaşdırılmaması və bölgədə sülhün təmin olunmasına heç bir formada töhfə verməməsidir.

Ancaq görünən odur ki, avropalılar başqalarını tez-tez tənqid etsələr də, özləri tənqiddən nəticə çıxarmağı xoşlamırlar. Biz onun regionda sülh və əmin-amanlığa heç bir töhfə vermədiyi üçün fəaliyyətinin məhdudlaşdırılmasına çağırış etdiyimiz halda, missiya fəaliyyətini daha da genişləndirir. Adı Aİ-nin missiyası olsa da, onun işində Kanada da təmsil olunmağa başlayıb. Bununla bağlı ölkəmiz öz narazılığını dəfələrlə müxtəlif səviyyələrdə ifadə edib. Sentyabrın 23-də yeddinci çağırış Milli Məclisin ilk iclasında çıxışı zamanı Prezident İlham Əliyev bildirdi: “Artıq bəzi Avropa ölkələrinin və təkcə Avropa deyil, digər Qərb ölkələrinin nümayəndələri Ermənistan ordusunda işə başlayıblar. Bizim sərhədimizdə qanunsuz olaraq “Avropa sülh”, ya bilmirəm “müşahidəçi” missiyası yaradılıb, halbuki, bu, əldə edilmiş razılaşmanın pozulmasıdır. Mən həm Avropa İttifaqına, həm Ermənistana onu da xatırlatmaq istəyirəm ki, 2022-ci ilin Praqa görüşündə razılıq əldə edilmişdir ki, – bəli, biz də razılıq vermişdik, – Ermənistan tərəfində şərti sərhəd istiqamətində kiçik sayda müşahidəçi missiya yerləşsin, cəmi iki, ya üç aya. Yəni, bizimlə bu razılaşdırıldı. Amma ondan sonra bizsiz bunu uzatdılar, onların sayını artırdılar, oraya Kanadadan nümayəndələr daxil edildi və faktiki olaraq bu missiya NATO missiyasıdır. Ondan sonra bizə qarşı “Binokl diplomatiyası”, siyasəti aparılırdı. Gecə-gündüz xarici nümayəndələr gəlir, “binokl”la bizə baxırdılar. Nə göstərmək istəyirdilər bizə?! Bu, nə demonstrasiyadır, nə ucuz şoudur?! Bütün bu amillər bizi ciddi düşündürməlidir və təbii ki, düşündürür”.

Dövlətimizin başçısı bu istiqamətdə sonuncu dəfə öz fikirlərini oktyabrın 14-də Belçika Krallığının ölkəmizdə yeni təyin olunmuş səfiri Julyen de Freponun etimadnaməsini qəbul edərkən səsləndirdi.






Bildirdi ki, Azərbaycan – Aİ münasibətlərində etimadsızlıq yaradan məsələlərdən biri də sərhəddə “Avropa müşahidəçi missiyasının” müddətinin bizim razılığımız olmadan, hətta bizimlə məsləhətləşmədən uzadılmasıdır. Buna nə ehtiyac var idi?! 2022-ci ilin oktyabrında Praqada Azərbaycan ona razılıq vermişdi ki, bu missiya 2 ay orada qalsın və istefaya çıxmış məhdud sayda hərbi zabitlərdən ibarət olsun. Lakin bu missiyanın müddəti uzadıldıqda bizimlə heç kim məsləhətləşmədi. İndi də əlavə müddətə uzadılması istiqamətində müzakirələr aparılır. Missiya üzvlərinin davranışı, necə deyərlər, “binokl diplomatiyası” heç cür qəbuledilməz və hər hansı bir normal siyasi mədəniyyət standartlarından kənar idi. Dövlətimizin başçısı bildirdi ki, biz Aİ ilə təmaslarda bu məsələni qaldıracağıq.

Onu da bildirək ki, indiyədək missiyada Avstriya, Belçika, Bolqarıstan, Kanada, Kipr, Çexiya, Estoniya, Finlandiya, Fransa, Almaniya, Yunanıstan, Macarıstan, İrlandiya, İtaliya, Litva, Lüksemburq, Niderland, Polşa, Portuqaliya, Rumıniya, Slovakiya, Sloveniya, İspaniya və İsveç təmsil olunurdu. Bu qədər ölkəni təmsil edən 209 nəfərin bölgədə sabitliyin və əmin-amanlığın təmin olunmasına hansısa töhfə verdiklərini demək çətindir. İndi isə onların sırasına Danimarkanın qoşulması müsbətə doğru heç nəyi dəyişməyəcək. Çünki missiyanın fəaliyyəti mənasız və məntiqsizdir. Onların nəyi monitorinq etdikləri də aydın deyil. Faktdır ki, son vaxtlar sərhəd bölgəsində atəşkəs pozuntuları qeydə alınmır. İddiaların əksinə olaraq Zəngəzur dəhlizini açmaq üçün bizim o əraziyə hücum etmək planımız yoxdur. Heç zaman da olmayıb. Belə çıxır ki, Aİ missiyası faktiki olaraq işsiz-gücsüz qalıb. Bu vəziyyətdə missiyanın sıralarının genişləndirilməsi yox, onun geri çağırılması daha doğru olardı.

***S.NAZİMOĞLU***
***XQ***

**III MƏQALƏ**

**Biz bölgədə yeni işbirliyi platformasını yaratmalıyıq. Bu, çoxtərəfli platforma ola bilər. Bu işbirliyi platformasında iştirak edən bütün bölgə ölkələri bundan ancaq faydalana bilər.**

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

# AZƏRBAYCAN – GÜRCÜSTAN:
# Etibarlı dost dar gündə tanınar

## Seçkinin regional geosiyasi konteksti

Gürcüstan faktiki olaraq geosiyasi yol ayrıcındadır. Bu təəssüratı oktyabrın 16-sı səhər tezdən Gürcüstan DTX-nın yaydığı bir informasiya sanki təsdiq edir. Ölkənin siyasi dairələri həmin informasiyadan həyəcanlanmışlar. Qonşu dövlətin təhlükəsizlik orqanının ifadə etdiyi faktların bütövlükdə sabitliyə və seçkinin demokratik keçməsinə mane ola biləcəyini təxmin edirlər. Gürcüstan DTX bəyan etmişdir ki, müəyyən dairələr ölkədə seçki öncəsi və sonrası mərhələlərdə süni videogörüntülər yaymaqla xaos yaratmağı planlaşdırırlar. Bunun nəticəsində Gürcüstanda növbəti “rəngli inqilab” təşkil etmək niyyətindədirlər.

Həmin dairələr süni intellekt də daxil olmaqla müxtəlif manipulyativ texnologiyalardan istifadə edərək, saxta çağırışlar edəcəklər. Seçkinin saxtalaşdırıldığı, demokratiyaya ciddi zərər verildiyi haqqında yalan informasiyalar yayacaqlar. Mümkündür ki, ölkədəki müxtəlif xaqların nümayəndələrini qarşı-qarşıya qoysunlar. Ümumilikdə, seçkidə Qərbin maraqlarına xidmət edən siyasi kəsimin məğlubiyyəti variantında radikal addımlar planlaşdırılır. Onların qalib gəldiyi təqdirdə isə başqa repressiv planlar həyata keçirə bilərlər.

Bütün bu informasiyaların doğru və ya yalan olması haqqında biz bir fikir bildirə bilmərik. Ancaq Gürcüstanın təhlükəsizlik orqanı bu barədə həyəcan təbili çalırsa, ötəri hal deyildir. Ölkə üçün ciddi təhlükələrin və geosiyasi risklərin meydana gəldiyi hiss olunur. Gürcüstan hökuməti bu cür situasiyada əhalini təmkinli olmağa səsləyir. Eyni zamanda, təxribatın haradan və necə ediləcəyini dəqiq proqnozlaşdırmaq asan deyildir.

Prosesin bu cür gedişini yalnız Gürcüstanın daxili siyasi mühiti ilə əlaqələndirmək tam doğru olmazdı. Məsələ böyük dövlətlərin Cənubi Qafqaz uğrunda mübarizəsinin yeni mərhələsinin başlaması ilə əlaqəli görünür.

Məhz bu məqamda regionun Gürcüstana qonşu olan dövlətlərinin mövqeyi ciddi əhəmiyyət kəsb edir. Azərbaycan davranışı və Gürcüstandakı yeni situasiyaya münasibəti ilə sübut edir ki, konstruktiv və sülhpərvər mövqedədir. Eyni fikri Ermənistan haqqında söyləmək mümkün deyildir. Əksinə, Ermənistan getdikcə daha çox ölçüdə regional sabitlik üçün təhdid mənbəyinə çevrilir.

Deməlii, geosiyasi kontekstdə Gürcüstanda qarşıda olan seçkiyə münasibətdə iki miqyası ayırmaq lazımdır. Birincisi, Cənubi Qafqaz dövlətlərinin seçkiyə münasibəti. İkincisi, qlobal təsiri olan güclərin seçkiyə münasibəti. Bu iki miqyasın qüvvələr nisbətinin Gürcüstandakı seçkidən sonrakı duruma təsir edəcəyini düşünməmək doğru deyildir.

Bəli, indi Gürcüstan bu anlamda həm də Cənubi Qafqazın geosiyasi yolayrıclarından biridir. Bu dövlətdə parlament seçkilərində hansı siyasi qanadın qalib gələcəyindən asılı olaraq, region ya sabitliyə, ya da xaosa doğru yön alacaqdır. Azərbaycan isə həmişə sabitlik, sülh və əməkdaşlıq mövqeyində olmuşdur. İndi Bakının Gürcüstandakı seçkiyə münasibətinin mərkəzində məhz həmin siyasi dəyərlər dayanır.

Yuxarıda vurğuladığımız iki miqyasın qarşılıqlı əlaqəsi kontekstində sonuncu tezisin məzmununa baxaq.



## Qlobal güclər və Gürcüstandakı seçki

Artıq Qərb və Rusiyanın Gürcüstan uğrunda yeni mübarizə mərhələsinə başladığını hər kəs qəbul edir. Qərb ABŞ və Avropa İttifaqının böyük dövlətləri ilə təmsil olunur. Məqsədləri Azərbaycanın Vətən müharibəsində qazandığı Qələbədən sonra Cənubi Qafqazda formalaşan yeni geosiyasi ab-havanı dəyişir. Açıqca məqsəd bundan ibarətdir!

Bunun üçün əsas plasdarm kimi Gürcüstandan istifadə etməyə çalışdılar. Lakin rəsmi Tbilisi bu oyuna getmədi. Onda üzlərini təcavüzkar Ermənistana çevirdilər. Onun da gücü çox zəif olduğundan xüsusi olaraq Gürcüstan istiqaməti seçilmədi. Cənubi Qafqaz miqyasında Azərbaycanın faydalı və uğurlu addımlarını kölgəyə salan gedişlər etməyə başladılar.

Onların praktiki təzahürü, birincisi, Qarabağda, guya, ermənilərin hüquqlarının pozulmasından, ikincisi, öz torpaqlarını 30 illik işğaldan azad edən Azərbaycanın Qarabağda “terror” törətməsindən, üçüncüsü, Zəngəzur dəhlizinə nəzarətin Rusiyaya deyil, Qərbin hansısa qurumuna verilməsi tələbindən, dördüncüsü, Ermənistanda NATO-nun hərbi kontingentini yerləşdirmək niyyətlərindən və bütün bunların sonucu kimi Rusiya və Türkiyənin regiona təsirini minimuma endirməkdən ibarətdir.

Rusiya isə hakimiyyətdə ona loyal olan siyasi qüvvənin təmsil olunmasında, konkret olaraq “Gürcü arzusu”nun qalib gəlməsində maraqlıdır.

Əlbəttə, hər iki qlobal güc təsirlidir. Belə bir vəziyyətdə region dövlətləri hansı mövqeyi seçməlidirlər? Bu seçim asan məsələ deyil. Çünki faktiki olaraq iki böyük gücün maraqlarına deyil, öz maraqlarına uyğun mövqe seçmək və real addımlar atmaq lazımdır ki, Cənubi Qafqazda sabitliyə və əməkdaşlığa xidmət etsin.

Ermənistan bu məsələdə müsbət mənada heç nəyə yaramadığını dəfələrlə nümayiş etdirmişdir. Deməli, əsas geosiyasi ağırlıq Azərbaycanın üzərinə düşür. Bununla yuxarıda birinci miqyas adlandırdığımız situasiya Azərbaycan – Gürcüstan münasibətlərinə transformasiya olunur. İndi regionun geosiyasi gələcəyi faktiki olaraq bu iki dövlətin davranışından asılıdır. Ermənistanın real pozitiv rol oynaması ehtimalı sıfıra yaxındır.

## Bakının müstəqil və ədalətli mövqeyi

Azərbaycan Gürcüstandakı seçki mövzusu fonunda bütövlükdə regionda sabitlik və əməkdaşlığın tərəfdarı olduğunu dəfələrlə bəyan etmişdir. Gürcüstanda seçkidən sonra “Gürcü arzusu”nun sabitliyi və konstruktiv geosiyasi mövqeyi saxlaya biləcəyinə inam mövcuddur.

Burada digər dövlətlərin ən yaxşı mövqeyi Gürcüstandakı seçkinin gedişinə qarışmadan regional inteqrasiyaya xidmət edə biləcək siyasi qüvvənin qalib gəlməsini gözləməkdən ibarətdir. Çünki qərarı hər hansı başqa dövlət deyil, ancaq və ancaq Gürcüstan toplumu verməlidir. Seçici kimə səs verəcək, onun öz işidir. Bu prosesdə Azərbaycan müşahidəçilərini seçki prosesini obyektiv işləməyə göndərə bilər. Orada Bakının kimlərəsə dəstək verəcəyini gözləmək olmaz. Azərbaycan Gürcüstanın müstəqilliyinə və suverenliyinə tam hörmət edən dövlətdir. Rəsmi Baki dəfələrlə bunu praktiki fəaliyyətində sübut etmişdir.

Məsələn, Rusiya – Gürcüstan müharibəsindən sonra Tbilisidə kritik vəziyyət yaranmışdı. Azərbaycan öz real yardımları ilə dost və qonşu ölkəyə Moskvanın xoşuna gəlib-gəlmədiyini gözləmədən dəstək verdi. Gürcüstan rəhbərliyi və cəmiyyəti dəfələrlə Azərbaycanın bu cür comərd və fədakar davanışlarına görə təşəkkürlərini bildirmişlər. İndi də rəsmi Bakı Gürcüstandakı seçkidə kimlərinsə tərəfini tutmadan onun demokratik və şəffaf keçməsində maraqlıdır. Gürcüstan cəmiyyəti hansı qərarı verəcəksə, Azərbaycan ona hörmətlə yanaşacaq. Bu, Azərbaycan rəhbərliyinin prinsipial mövqeyidir və ondan zərrə qədər də kənara çıxmağı kimsə gözləməsin.

Bundan başqa, Azərbaycanın Cənubi Qafqazın regional lideri kimi üzərinə düşən geosiyasi və siyasi məsuliyyəti də arxa plana atmaq olmaz. Məsələnin bu aspektinin geosiyasi kontekstdə böyük mənası vardır.

## Regional liderlik və strateji tərəfdaşlıq

Azərbaycan Respublikası Avrasiya məkanında gücü və imici ilə adi dövlətlərdən biri deyildir. Bakının regional və regionlararası siyasətdə öz yeri və rolu vardır. Onun müstəqil kimi statusunu bütün dünyada qəbul edirlər. II Qarabağ müharibəsinin nəticələri prizmasında bu dəyişiklik təbii, zəruri və hüquqi baxımdan normal görünür.

Bundan başqa, Azərbaycan Cənubi Qafqazda enerji, nəqliyyat-logistika istiqamətlərində əməkdaşlığın lokomotivi, aparıcı və təşkiledici təşəbbüskar gücüdür. Azərbaycan regionda ciddi geosiyasi gücdür! Bundan qaynaqlanan geosiyasi aktor kimi üzərinə düşən məsuliyyətini dərk edir.

Faktların işığında həmin tezisə nəzər salaq. Azərbaycanın təşəbbüsü, təşkilatçılığı ilə bir neçə neft və qaz marşrutu Gürcüstandan keçir, Türkiyə və Qara dənizin Ukrayna sahillərinə çatır, oradan da Avropaya paylanır.

Azərbaycanın təşəbbüsü və təşkilatçılığı ilə nəqliyyat və logistika xidmətləri Avropa və Yaxın Şərqlə Asiyanı birləşdirir. Azərbaycanın aktiv iştirak etdiyi “Bir kəmər, bir yol” layihəsi çərçivəsində Çindən başlanan Orta dəhlizin Gürcüstandan keçən hissəsi vardır.

Azərbaycan Aİ ilə enerji sahəsində strateji əməkdaşlığa aid memorandum imzalamışdır (18 iyul 2022-ci il). Azərbaycanın Gürcüstan, Rumıniya, Bolqarıstan, Albaniya, İtaliya, Sloveniya və başqa Avropa dövlətləri ilə “yaşıl enerji” ilə bağlı əməkdaşlıq layihələri artıq reallaşmaq mərhələsindədir.

Azərbaycan Rusiya ilə də enerji və nəqliyyat-logistika sahəsində əməkdaşlıq edir. O cümlədən, Qərb – Şərq marşrutu ilə yanaşı, Şimal – Cənub nəqliyyat marşrutunun həyata keçməsi mərhələsi başlanmışdır.

Digər layihələr də vardır ki, geniş bir məkanda regionlararası sabitlik, əməkdaşlıq və təhlükəsizliyə xidmət edir. O halda Azərbaycan Gürcüstandakı seçkidə hansı mövqeyi tutmalıdır? Əlbəttə, sabitliyə, əməkdaşlığa və təhlükəsizliyə xidmət edən siyasi qüvvənin qalib gəlməsində maraqlı olmalıdır. Həmin qüvvənin kimliyini müəyyən etmək rəsmi Bakının işi deyildir. Burada başlıca məqam ondan ibarətdir ki, Azərbaycan birmənalı olaraq Gürcüstanın müstəqilliyinin, suverenlyinin təmin olunması tərəfdasıdır və bu aspektdə qonşu dövlətə lazımi dəstəyi verməkdədir.

Bunlarla yanaşı, Azərbaycan həmişə beynəlxalq hüququn gözlənilməsinə çalışır. İstənilən ölkədə seçkinin beynəlxalq hüquq normaları çərçivəsində keçirilməsi sivil münasibətdir, xeyirxahlıq və praqmatizm əlamətidir. Rəsmi Bakı strateji tərəfdaşı olan Gürcüstandakı seçkiyə eyni qaydada beynəlxalq hüquqa əməl olunması müstəvisində yanaşır. Bunun da əsas təşkiledicisi kimi hər hansı kənar qüvvəni deyil, Gürcüstan hakimiyyəti və cəmiyyətini görür. Şübhə yoxdur ki, Azərbaycandan olan müşahidəçilər məhz bu prinsipə ciddi əməl etməklə seçkini izləyəcəklər.

Bütün bunlarla yanaşı, bir məsələyə də Azərbaycanın diqqət yetirəcəyini gözləmək olar. Gürcüstanda yaşayan soydaşlarımızın həm seçkidə aktiv iştirakı, həm də onların seçimlərinə hörmətlə yanaşılması əhəmiyyətlidir.

Azərbaycanlılar həmişə sülhə, barışa, əməkdaşlığa və dostluğa səs verirlər. Onlar Gürcüstan dövlətçiliyinə, müstəqilliyə və ərazi bütövlüyünün təmin edilməsinə sədaqətlərini dəfələrlə sübut etmişlər. Bu seçkidə də Gürcüstanda yaşayan azərbaycanlıların Gürcüstan dövlətçiliyinin xeyrinə səs verəcəklərinə inanırıq!

***Füzuli QURBANOV,***
***XQ-nin analitiki,***
***fəlsəfə elmləri doktoru***

# Qərbin tikanlı “qızıl gül”ü...

## *Sabitlik və inkişaf – gürcü seçicini maraqlandıran bax budur*

**(əvvəli 1-ci səhifədə)**

Okeanın istər o tayından, istərsə də “köhnə qitə”dən seçki prosesinə təsir göstərməyə çalışırlar. Məqsəd də aydındır – Qərb Gürcüstanda maraqlarını təmin edəcək siyasi qüvvənin hakimiyyətə gəlməsini istəyir. Təbii ki, son sözü gürcü xalqı deyəcək. Amma Tbilisidə seçki proseslərinə kobud müdaxilələr və nəticələrin qəbul edilməməsi kimi hallar təkcə Gürcüstana deyil, ümumilikdə, Cənubi Qafqaz regionunda cərəyan edən geosiyasi və geoiqtisadi gedişata da təsir göstərə bilər.

Qonşu respublikada siyasi emosiyalar pik həddindədir. İqtidar və müxalifət partiyaları oktyabrın 26-da keçiriləcək parlament seçkilərinə hazırlaşırlar. Mübarizənin asan olmayacağı artıq hamıya məlumdur. Bəs uğur kimin tərəfində olacaq? Aydındır ki, ölkədə sabitliyi və iqtisadi inkişafı təmin edən hakim “Gürcü Arzusu – Demokratik Gürcüstan” partiyasının seçkilərdə yenidən qalib gəlməsi ölkənin strateji maraqlarına cavab verir. Çünki hazırkı iqtidar partiyasının yürütdüyü praqmatik siyasət Gürcüstanın siyasi təlatümlərdən kənarda qalmasına, böyük güclərin toqquşma meydanına çevrilməməsinə şərait yaradır. Buna görə də hakim partiyanın seçkilərdə qalib gəlmək şansı yüksək qiymətləndirilir.

Ancaq müxalifəti və Qərbi bu vəziyyət razı salmır. Ona görə də müxalifət düşərgəsindən səsləndirilən bəyanatlarda qarşıdakı seçkiləri “həlledici” adlandırırlar. İddia olunur ki, bu seçkilərdə vətəndaşlar Avropa ilə, yoxsa Rusiya ilə yaxınlaşmanı seçəcəklər. Seçkilərin statusunu belə kritik vəziyyətə yüksəltməklə müxalifət siyasi qarşıdurmanın dərəcəsini artırır, ona “ölüm-dirim” çaları verməyə cəhd göstərir. Halbuki hazırda Gürcüstan belə ciddi seçim qarşısında dayanmır. İqtidar mənsubları bildirirlər ki, Tbilisi Transatlantik tərəfdaşlığa sadiqdir və geosiyasət vektorunda kəskin çevriliş etməyə zərurət görmür. Lakin müxalifət düşərgəsi hakim partiya üzvlərinin bəyanatlarını qəbul etməyərək, 26 oktyabr seçkilərini “son döyüş”ə çevirməyə can atır.

Əslində, müxalifət düşərgəsinin sərgilədiyi mövqe başadüşüləndir. Qərbpərəst müxalifət iqtidara təzyiqi artırmağa, rəsmi Tbilisinin Transatlantik icmanın geosiyasi sorğularına cavab verməsinə çalışır. Hamıya məlumdur ki, Qərb strateji əhəmiyyətli Cənubi Qafqaz regionundan Rusiyanı çıxarmaq istəyir və bu prosesdə Ermənistan da fəal iştirak edir. Nikol Paşinyanı hakimiyyətə gətirən güclərin harada olduqlarını hamı bilir. Buna görə də qeyri-regional güclər, xüsusilə də Qərb İkinci Qarabağ müharibəsindən sonra Cənubi Qafqazda yaranmış yeni reallıqları qəbul etməyərək, Transatlantik icmanın tələblərinə cavab verən siyasi qüvvələrin Gürcüstanda hakimiyyətə gəlməsini vacib sayır.



Gürcüstan iqtidarı Rusiya-Ukrayna müharibəsi başlanandan sonra tarazlığı saxlamağa çalışır və Tbilisinin anti-Rusiya cəbhəsində yer almasına imkan vermir. Amma iqtidarın balanslı siyasət yürütməsi, böyük qonşusu Rusiya ilə münasibətləri normallaşdırmağa çalışması Qərbdə ciddi narazılıq doğurur. “Gürcü Arzusu – Demokratik Gürcüstan” Partiyasının müstəqil siyasət yürütməsi, Qərbin diktəsi ilə hərəkət etməməsi Transatlantik icmanı qıcıqlandırır. İndi Qərb Tbilisidə üzüyola, onun siyasi iradəsini sözsüz yerinə yetirən iqtidarı görmək istəyir. Qərbin belə gözləntiləri fonunda da müxalifət düşərgəsi qarşıdakı seçkilərə ciddi hazırlaşır.

Lakin Qərb anlamaq istəmir ki, Gürcüstanda onun istəkləri artıq avtomatik olaraq müvafiq siyasi komponentə çevrilmir. Əgər on və ya iyirmi il əvvəl Qərbin bəyanatları gürcü seçicisinə birbaşa təsir edə bilirdisə, indi onun müəyyən siyasi təcrübəsi var və onu boş vədlərlə inandırmaq çox çətindir. Yerli politoloqların da dediyi kimi, bu gün Gürcüstan əhalisinin əksəriyyəti marginal siyasi düşüncədən uzaqdır və gürcü seçicisini daha çox sabitlik və sülh maraqlandırır. Radikalizmin cəmiyyətə hansı bəlaların gətirdiyini yerli vətəndaşlar çox gözəl bilirlər. Ancaq bu reallıqla barışmayan Qərb gürcü seçicilərini müxtəlif problemlərlə hədələyir, həm də yerli siyasi, qeyri-hökumət, biznes və akademik elitaları “Avropa faydalarını” müdafiə etmək üçün barrikadalara çağırır. Heç kimə sirr deyil ki, Gürcüstanda QHT və digər təşkilatların böyük əksəriyyəti Qərbin müxtəlif maliyyə institutları və fondları tərəfindən maliyyələşdirilir. Buna görə də, Qərbin Tbilisi sakinlərinin yenidən “Qızıl gül” ətrini duymağa məcbur etməyə çalışması gözləniləndir.

İndi bir çox amerikalı və avropalı siyasətçilər Tbilisidə “rəngli inqilab”ın mümkünlüyünü dilə gətirirlər. Amma ondan sonra Tbilisidə belə destruktiv cəhdlərin uğursuzluqla nəticələndiyi hamıya məlumdur. Rəy sorğuları da iqtidarın əsas müxalifət partiyasını üstələdiyini göstərir. Qərb qəbul etmək istəmir ki, iqtidarın qələbəsi açıq şəkildə fikir ayrılığının və seçicilərin əksəriyyətinin xarici qüvvələr tərəfindən idarə olunmaq istəməməsinin təsdiqi olacaqdır. Eyni zamanda, Transatlantik icmada düşünürlər ki, hakim partiyanın qələbəsi Qərb institutlarının nüfuzuna və imicinə zərbə vuracaq, onların effektivsizliyini təsdiqləyəcək. Qərbin siyasi dairələri üçün Tbilisinin demokratik inkişafı Vaşinqton və Brüsselin dəyərlərinə tam bağlılıq, eləcə də onların direktiv və göstərişlərinə riayət etməkdir.

Amma gürcü seçici bu gün ciddi suallara müstəqil şəkildə cavab vermək iqtidarındadır: Nəyə görə Gürcüstan Qərbin maraqlarını öz maraqlarından üstün tutmalıdır? Yaxud Qərb modeli yeganə inkişaf modelidirmi? Dünyanın geosiyasi mənzərəsi dəyişir, güc balansı da həmçinin və belə şəraitdə yeganə inkişaf modelindən danışmaq mübahisələrə səbəb olmur. Ancaq dünyada dominantlığını sürdürməkdə israrlı olan Qərb üçün alternativ inkişaf modeli və siyasi kurs qəbuledilməzdir. Ona görə də, təəccüblü deyil ki, Qərb Gürcüstanda iqtidar partiyasının qələbəsini qərbpərəstliyin iflasa uğrayacağı kimi nəzərdən keçirir və bunun qarşısını almaq üçün bütün resurslarını işə salır.

Təbii ki, son sözü gürcü seçicisi deyəcək. Müdrik qonşu və dost xalqın da sabitliyi və inkişafı seçəcəyi şübhə doğurmur. Qızıl gül ətrinin də barrikadalardan yox, mənzildəki güldanlardan gəlməsinə şərait yaradılacaq...

***S.ELAY***
***XQ***

# Azad Füzulinin doğum günü

**17 Oktyabr Füzuli Şəhəri Günü münasibətlə Mədəniyyət Nazirliyi və Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəliyinin birgə təşkilatçılığı ilə dünən Füzulidə təntənəli tədbir keçirilib. Təntənələrdə dövlət və hökumət rəsmiləri, Mədəniyyət Nazirliyinin nümayəndələri, incəsənət xadimləri və digər qonaqlar iştirak ediblər.**



Doğma yurda qayıtmış Füzuli sakinləri böyük həvəs və sevinclə bayram şənliklərində iştirak ediblər. Onlar rəngarəng tematik sərgilərlə tanış olub, incəsənət ustalarının, bədii kollektivlərin ifasında maraqlı konsert proqramını izləyiblər.

Gün ərzində proqram çərçivəsində "Ümummilli lider Heydər Əliyev və Füzuli", "Zamanın qanadalarında: Füzuli" adlı fotosərgilər, "Mənim Füzulim" rəsm sərgisi, "Füzuli 530" tamaşası, dekorativ-tətbiqi xalq sənəti növləri üzrə ustad dərsləri və uşaqlar üçün əyləncə zonası təşkil olunub.



Həmçinin Füzuli rayonunun tarix və mədəniyyət abidələri haqqında məlumatlar təqdim edilib, burada aparılan arxeoloji qazıntılar nəticəsində aşkarlanmış maddi-mədəniyyət nümunələri nümayiş olunub.

Dünən axşam tədbirə qala-konsert proqramı və atəşfəşanlıqla yekun vurulub.

Qeyd edək ki, Prezident İlham Əliyevin imzaladığı 2023-cü il 31 iyul tarixli sərəncamla Azərbaycan Respublikasının işğaldan azad edilmiş əraziləri üzrə şəhər günləri təsis olunub. Sərəncama əsasən, 17 Oktyabr Füzuli Şəhəri Günüdür.

*XQ*

# Cuvarlıdan başlayan savaş

**Xocalı rayonunun Kosalar kəndindən məcburi köçkün düşəndə Elnur Nəcəfovun cəmi 9 yaşı olub. O, qəlbində sonsuz Vətən sevgisi, müqəddəs torpaqlarımızın düşməndən azad ediləcəyinə dərin inam hissi ilə böyüyüb. 2006-cı ildə həqiqi hərbi xidmətə yollanıb, Naxçıvan Muxtar Respublikasında "N" saylı hərbi hissənin motoatıcı taqım komandiri olub.**

Vətən müharibəsində döyüş yolu oktyabrın 17-də Füzuli rayonunun Cuvarlı kəndindən başlayıb. Bakı Korpusunun əməliyyat taborunun (hərbçilər arasında daha çox "Bakı həmlə taboru" kimi tanınıb) taqım komandiri, leytenant Elnur Nəvəfovun qismətinə ilk döyüş günündən qələbə xəbərlərinin sevincini dadmaq düşüb. Belə ki, oktyabrın 17-də ordumuzun şiddətli hücumları qarşısında aciz qalan düşmənin bu istiqamətdəki müdafiə xətti yarılıb, Füzuli şəhəri, rayonunun Qoçəhmədli, Çimən, Pirəhmədli, Musabəyli, İşıqlı, Dədəli, həmçinin Elnurun uğrunda döyüşdüyü Cuvarlı kəndi azad edilib.

Vətən müharibəsinin dördüncü ildönümü günlərində Xocalıdan olan leytenantla görüşüb o qürurverici anları yenidən xatırladıq:

– Paylayıcı yollar əsasən Füzuli ərazisindən keçdiyinə görə düşmənin ən güclü müdafiə xətti də bu istiqamətdə yerləşirdi. Odur ki, ordumuzun rəşadəti sayəsində Füzulinin işğaldan azad edilməsi qələbəmizin qaçılmaz olduğu reallığını hər kəsə nümayiş etdirdi. Həmin vaxt mən bir daha əmin oldum ki, tezliklə erməni tapdağı altında olan bütün digər torpaqlarımız, o cümlədən doğulduğum doğma yurdum da əbədi azadlığına qovuşacaq!

Füzulidə əldə edilmiş zəfərdən sonra əməliyyat taboru Xocavəndə doğru irəliləyib. Elnurun iştirak etdiyi ağır döyüş əməliyyatlarından biri də həmin istiqamətdə baş verib:



– Oktyabrın sonunda düşmənin Füzuli-Xocavənd yolundakı əlverişli mövqedə yerləşən hərbi hissəsinin ələ keçirilməsi ilə bağlı tapşırıq aldıq. Ermənilər hərbi hissəyə aparan yolları minalamışdılar. Odur ki, ilk hücum cəhdində şəhidlərimiz oldu. Yeri gəlmişkən, haqqında danışdığım əməliyyatın planını taborun qərargah rəisi, kapitan Nəcəf Şikarov hazırlamışdı. Təəssüf ki, o, bundan bir neçə gün sonra taborumuzun qatıldığı daha bir ağır döyüşdə şəhid oldu.

Elnur bir an fikrə dalaraq söhbətini davam etdirdi:

– Döyüş yoldaşlarını itirmək çox ağırdır, Allah onların hər birinə rəhmət eləsin! Əməliyyat planına şəraitə uyğun edilən dəyişiklikdən və qızğın döyüşlərdən sonra noyabrın 2-də tapşırığı uğurla yerinə yetirərək düşmənin hərbi hissəsini ələ keçirdik, Füzuli-Xocavənd yolu nəzarətə götürüldü. Beləcə, şəhidlərimizin də qisasını aldıq. Tabor komandirimiz, polkovnik-leytenant Cavid Fərhadov sanki bir xocalılı kimi ürəyimdən keçənləri oxuyaraq şəxsi heyətə deyirdi ki, addımlarınızı qətiyyətli və ürəkli atın, sürətlə addımlayın. Çünki geridə qoyduğumuz hər qarış torpaq azad etdiyimiz Vətənimizin bir parçasıdır!

Daha sonra döyüş yolu Xocavənd və Cəbrayılda davam edən E.Nəcəfov bir xatirəsini də bizimlə bölüşərək bildirdi ki, qələbədən sonra Bakıya qayıdanda Biləsuvarda əhali yollara tökülərək kolonumuzun yolunu kəsdi. İzdihamın sevinci, hərbi maşınlarımızın üzərinə yağdırdıqları güllər hamımızın gözlərini yaşartmışdı. Bir daha əmin olduq ki, biz müharibədə zəfəri xalqımızın birliyi sayəsində qazanmışıq.

Xidmətləri dövlətimiz tərəfindən layiqincə qiymətləndirilən, Azərbaycan Prezidentinin müvafiq sərəncamları ilə "Cəbrayılın azad olunmasına görə", "Füzulinin azad olunmasına görə", "Xocavəndin azad olunmasına görə" və "Vətən müharibəsi iştirakçısı" medalları ilə təltif edilən Elnur indi daha bir arzusunun reallaşacağı – həmyerlilərinin doğma yurda dönəcəyi günü səbirsizliklə gözləyir.

*R.MAHİR*
*XQ*

# Arazqırağından Şuşaya zəfər yolu



**İşğaldan azad edilmiş ərazilərimizdə yol infrastrukturunun yenidən qurulması məqsədilə genişmiqyaslı layihələr icra edilir, yeni yollarda dayanmadan iş gedir. Başlanğıcını Hacıqabul–Horadiz–Ağbənd–Zəngəzur dəhlizi magistral avtomobil yolundan götürməklə Füzuli, Xocavənd, Xocalı və Şuşa rayonlarını birləşdirən, 81,6 kilometr uzunluğa malik Əhmədbəyli-Füzuli-Şuşa avtomobil yolunun da inşası sürətlə davam etdirilir.**

Yol 1-ci texniki dərəcəli, 4-6 hərəkət zolağından ibarətdir və inşası beynəlxalq magistral normalarına uyğun həyata keçirilir. Azərbaycan Avtomobil Yolları Dövlət Agentliyinin (AAYDA) İcimaiyyətlə əlaqələr şöbəsinin rəisi Anar Nəcəflinin "Xalq qəzeti"nin Qarabağ bürosuna verdiyi məlumata görə, Qarabağın və Şərqi Zəngəzurun yaşayış məntəqələrinin sosial-iqtisadi inkişafında mühüm rol oynayacaq yolun ilk 48 kilometri 6, 48-81,6 kilometrlik hissəsi isə 4 hərəkət zolaqlıdır. Müvafiq olaraq yol yatağının eni 29.5 və 21.5 metr təşkil edir.

Yolboyu 137 müxtəlif diametrli suötürücü boru, 30 yeraltı keçid, 7 körpü, 7 tunel və 9 viaduk (yolun çuxur, dağ dərəsi ilə kəsişməsində daş, dəmir-beton və ya metaldan tikilmiş körpü tipli nəqliyyat qurğusu – M.R.) inşa edilir.

Yolun vizual görünüşü də göz oxşayır. Sanki yolboyu Azərbaycanın füsunkar təbiətinin gözəllikləri ilə insanın yaratdığı möcüzələr yarışa çıxıb. Təsadüfi deyil ki, 2024-cü il Avropa və Mərkəzi Asiya Regional Mükəmməllik Mükafatlarına təqdim edilən Əhmədbəyli-Füzuli-Şuşa Avtomobil Yolu Layihəsi Beynəlxalq Yol Federasiyası (BYF Qlobal) tərəfindən İnnovativ İnşaat Metodologiyası kateqoriyasında qalib seçilərək 1-ci yeri tutub.

Qeyd edək ki, AAYDA tərəfindən Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonları ərazisində "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" çərçivəsində, həmçinin dövlət başçısının sərəncamları əsasında ümumi uzunluğu 3094,3 kilometr təşkil edən 45 avtomobil yolunun tikintisi yerinə yetirilir. Artıq 7 layihə (ümumi uzunluğu 254,2 kilometr) üzrə icra olunaraq yekunlaşdırılıb. Layihələr çərçivəsində ümumilikdə uzunluğu 69,1 kilometr təşkil edən 45 avtomobil tuneli, həmçinin ümumi uzunluğu 13,4 kilometrə yaxın olan 463-dən artıq körpü, viaduk və yol ötürücüsü də inşa edilir.

*Mahir RƏSULOĞLU,*
*XQ-nin Qarabağ müxbiri*

## Zəfər marafonunun 22-ci günü

**2020-ci il sentyabrın 27-də Ermənistanın silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi, təxminən, 30 illik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.**

2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu sonradan "Dəmir yumruq" adlandırılan əks-hücum əməliyyatına başladı. 44 gün davam edən Vətən müharibəsi təxminən otuzillik işğala son qoyulması və ərazi bütövlüyümüzün bərpası ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər tariximizə qızıl hərflərlə yazıldı.

# Vətən müharibəsinin xronikası: 18 oktyabr



• Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdılar. Prezident İlham Əliyev bunu özünün rəsmi "Twitter" səhifəsində bildirib. Paylaşımda qeyd edilib: "Azərbaycan Silahlı Qüvvələri qədim Xudafərin körpüsünün üzərində Azərbaycan bayrağını qaldırdı. Eşq olsun Azərbaycan xalqına! Qarabağ Azərbaycandır!"

• Birinci vitse-prezident Mehriban Əliyeva Füzuli şəhərinin və Füzuli rayonunun bir sıra kəndlərinin işğaldan azad edilməsi ilə bağlı rəsmi instaqram hesabında paylaşım edib. Paylaşımda bildirilib: "Azərbaycan Ordusunun növbəti qələbəsi! Füzuli şəhəri və Füzuli rayonunun bir sıra kəndləri işğaldan azad edilib. İllər boyu bir çox soydaşımız Vətən həsrəti ilə yaşayıb! Nə qədər həmvətənimiz doğma diyarını heç olmasa bir dəfə də olsun yenidən görmək arzusunda idi! Bu gün bizim ordumuz əzəli Azərbaycan torpaqlarını işğaldan azad etməklə milyonlarla azərbaycanlının arzularını həyata keçirir. Bu, ədalətin təntənəsidir! Ona görə ki, bu yerlər bizim doğma torpaqlarımızdır, əcdadlarımızın torpaqlarıdır. Hər bir Azərbaycan əsgərinin və zabitinin həyatı və sağlamlığı üçün dua edirəm. Uca Tanrı ordumuzu, xalqımızı, Vətənimizi və Prezidentimizi qorusun! Qarabağ Azərbaycandır!"

• İşğaldan azad olunan Füzuli şəhərində Azərbaycan bayrağı qaldırılıb.

• Müdafiə Nazirliyinin mətbuat xidmətinin katibi polkovnik-leytenant Anar Eyvazov Hərbi İnformasiya Mərkəzində keçirilən brifinqdə deyib: "Hazırda əməliyyat şəraiti tam olaraq bölmələrimizin nəzarəti altındadır. Düşmənə xəbərdarlıq edirik ki, Ermənistan ordusu humanitar atəşkəs rejiminə məhəl qoymadan əməliyyat bölgəsində yenə gərginlik yaratmaqda davam edərsə, ordumuz tərəfindən daha kəskin şəkildə adekvat cavab tədbirləri görüləcək. Azərbaycan Ordusu düşmənin istənilən təxribatının qarşısını almağa, Ali Baş Komandanın qarşıya qoyduğu istənilən döyüş tapşırığını vaxtında və tam olaraq icra etməyə hazırdır".

Müdafiə Nazirliyinin mətbuat katibi daha sonra qeyd edib ki, son sutka ərzində düşmən ağır itkilərə məruz qalıb. Belə ki, düşmənin 2 ədəd S-300 ZRK, 3 ədəd BM-21 "Qrad" YARS, 2 ədəd "Smerç" yaylım atəşli raket sistemi, beşdən çox tank, bir neçə haubitsa və zenit topları, o cümlədən avtomobil texnikaları və xeyli sayda canlı qüvvəsi bölmələrimiz tərəfindən məhv edilib. Uğurlu əməliyyatlar nəticəsində Füzuli ərazisində düşmənin hərbi hissəsi bölmələrimiz tərəfindən ələ keçirilib. Bu hərbi hissədə olan bütün texnikalar, döyüş sənədləri hərbi qulluqçularımızın əlindədir.

Anar Eyvazov vurğulayıb ki, humanitar atəşkəs qətiyyən sülh demək deyil. Ali Baş Komandanımızın göstərişinə əsasən, Azərbaycan Ordusu hazırda əməliyyat ərazisində humanitar atəşkəs rejimini tam təmin etməklə, cəsədlərin toplanılması, eyni zamanda, tərəflərdə olan əsirlərin dəyişdirilməsi üçün lazımi şəraiti yaratmaqdadır. Təəssüf ki, Ermənistan tərəfi humanitar atəşkəs rejiminə məhəl qoymadan işğaldan azad edilmiş əraziləri, o cümlədən Cəbrayıl şəhərini dəfələrlə ağır artilleriya və minaatanlardan atəşə tutur. Həmçinin Azərbaycan–Ermənistan dövlət sərhədinin müxtəlif istiqamətlərində – Tovuz, Daşkəsən rayonlarında Azərbaycan Ordusunun mövqeləri iriçaplı pulemyotlardan atəşə tutulur. Bundan başqa, Ermənistan ordusu humanitar atəşkəs rejiminin yenidən elan olunduğu dövrdən bəri Ağdərə, Füzuli, Hadrut, Cəbrayıl istiqamətində hücuma keçməyə cəhd göstərib. Bütün hallarda Ermənistan ordusunun bölmələri Silahlı qüvvələrimiz tərəfindən qətiyyətlə dəf edilib və düşmən itki verərək geri çəkilməyə məcbur edilib.



• Saat 12.30-da cəbhənin Cəbrayıl istiqamətində Ermənistan silahlı qüvvələrinin "Su-25" hücum təyyarəsi Azərbaycan Hava Hücumundan Müdafiə bölmələri tərəfindən məhv edilib.

• Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin son qüvvə kimi səngərlərə yerləşdirdiyi xüsusi təyinatlıların Azərbaycan əsgərinin həmləsinə tab gətirməyərək geri qaçmasını əks etdirən videogörüntüləri paylaşıb.

• Fövqəladə Hallar Nazirliyi Gəncədə düşmənin raket zərbələri nəticəsində dağılan binada axtarış-xilasetmə işlərinin yekunları barədə məlumat yayıb. Məlumata görə, dağıntılar altından xəsarət almış 53 nəfər və 13 cəsəd çıxarılıb.

• Azərbaycanın Müdafiə Nazirliyi Füzuli istiqamətində gedən döyüşlərdə düşmənin döyüş meydanında atıb qaçdığı hərbi texnika və silah-sursatın foto və videogörüntülərini paylaşıb.

• Saat 13:00-da Horadiz istiqamətində uçuşlar keçirməyə cəhd göstərən Ermənistan silahlı qüvvələrinə məxsus taktiki pilotsuz uçuş aparatı məhv edilib.

• Cəbhə bölgəsindən yüz kilometrlərlə aralıda yerləşən Xızı rayonuna atılan raket Sitalçay qəsəbəsi ərazisində havada zərərsizləşdirilib.

*XQ*

# Macarıstan dost ölkə, etibarlı tərəfdaşdır

**Azərbaycan – Macarıstan əlaqələri qurulduğu vaxtdan etibarən yüksələn xətlə möhkəmlənib. Hazırda dostluq, əməkdaşlıq və strateji tərəfdaşlıq ruhunda müşahidə edilən ikitərəfli münasibətlər özünün yeni inkişaf mərhələsinə daxil olub. Belə bir uğuru isə geniş iqtisadi potensiala malik hər iki dövlət arasında imzalanan strateji tərəfdaşlıq haqqında Birgə Bəyannamə, habelə iqtisadi sahəni əhatə edən bir sıra digər sənədlərin icrası şərtləndirib.**



İki ölkə arasında əlaqələrin yüksək səviyyədə olması ilə bağlı əmək və əhalinin sosial müdafiəsi naziri Sahil Babayev Macarıstanın Milli Günü – 1956-cı il bu ölkə inqilabının ildönümü şərəfinə keçirilən qala tədbirində çıxış edərək bildirib ki, indiyədək Azərbaycan ilə Macarıstan arasında imzalanan 60-dan çox sənəd birgə əməkdaşlıq üçün möhkəm hüquqi baza yaradıb.

Hazırda Azərbaycan və Macarıstan arasında iqtisadi əlaqələr sabit artım dinamikası ilə inkişaf edir. Respublikamızda Macarıstan kapitallı 26 şirkət fəaliyyət göstərir. Ötən 8 ayda iki ölkə arasında ticarət dövriyyəsinin 30 faiz artması ikitərəfli iqtisadi əlaqələrin möhkəmliyinin bariz nümunəsidir. Bu gün Azərbaycan və Macarıstan arasında ənənəvi və "yaşıl" enerji sahəsində səmərəli əməkdaşlıq da diqqət çəkir. yeni mərhələ

Azərbaycan–Macarıstan arasında ötən illər ərzində nəqliyyat, tranzit və logistika sahələrində də əməkdaşlıq daim diqqətdə saxlanılıb. Bu məqsədlə 2022-ci ildə Ələt Azad İqtisadi Zonası və Macarıstan İxracın Təşviqi Agentliyi arasında Anlaşma Memorandumu imzalanıb. Eyni zamanda, dəmir yolları vasitəsilə artıq Macarıstandan Azərbaycana, həmçinin əks istiqamətə yüklərin ötürülməsinə başlanılıb. Bundan başqa, dost ölkənin "Wizz Air" şirkəti Bakı və Budapeşt şəhərləri arasında birbaşa aviareyslərin həyata keçirməsinə başlayıb.

Hazırda Macarıstan şirkətləri tərəfindən düşməndən təmizlənən ərazilərimizdə aparılan bərpa-quruculuq işləri ilə əlaqədar ölkəmizə müvafiq layihələr təqdim edilib. Döst dövlət düşməndən azad olunan torpaqlarımızda minatəmizləmə əməliyyatında da dəstəyini əsirgəmir. Macarıstanın bu məqsədlə Azərbaycana 25 min avro ianə etməsi də bunun bariz ifadəsidir.

İşğaldan azad olunan Cəbrayıl rayonunun Soltanlı kəndinin təməlqoyma mərasimi Macarıstanla birgə həyata keçirilib, bu layihənin macar şirkətlərinin iştirakı ilə icra olunacağı qərara alınıb.

Xatırladaq ki, Soltanlı kəndi Araz çayının sahilində, Horadiz Cəbrayıl–Zəngilan–Ağbənd yolunun üzərində yerləşir. Beynəlxalq nəqliyyat dəhlizinin bir hissəsini təşkil edən Əhmədbəyli–Horadiz–Mincivan–Ağbənd avtomobil yolu kəndin şimal hissəsinə bitişik ərazidən keçir. Həmçinin "Araz Vadisi İqtisadi Zonası" Sənaye Parkı Soltanlının yaxınlığında salınır.

"Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı"na əsasən Soltanlı kəndinin yenidən qurulması mərhələli şəkildə həyata keçiriləcək. Birinci mərhələdə kəndə qayıdacaq 1336 sakinin yaşayışını təmin etmək məqsədilə 315 fərdi ev 78 hektar ərazidə tikiləcək.

Cənubi Qaz Dəhlizinin yeni elementinə çevrilən IGB-nin ötürmə gücünün 3,5 milyard kubmetrdən 5 milyard kubmetrədək artırılması Macarıstan, Serbiya, Slovakiya, Ruminiya, Şimalı Makedoniya kimi ölkələrin də Azərbaycandan daha çox qaz almasına və ya yeni enerji əməkdaşlığına başlamasına imkan yaradır. Bu məqamla bağlı qeyd edək ki, dost dövlət Cənub Qaz Dəhlizi təşəbbüsünü daim dəstəkləyir və bu layihəyə qoşulmaqla bağlı marağını daim diqqətə çatdırır. Məhz elə buna görədir ki, qarşı tərəf Cənub Qaz Dəhlizi Məşvərət Şurasının illik Nazirlər görüşlərində bir qayda olaraq nazir səviyyəsində təmsil olunur.

Ölkələrimiz arasında enerji sahəsində əməkdaşlıqda Buxarestdə imzalanan Azərbaycan, Macarıstan, Rumıniya və Gürcüstan hökumətləri arasında "yaşıl" enerji sahəsində strateji tərəfdaşlığa dair müvafiq Saziş xüsusi yer tutur. Həmin tarixi sənədə əsaslanılaraq adları çəkilən ölkələr arasında "yaşıl" enerjinin ötürülməsi məqsədilə Gürcüstan və Qara dənizdən keçəcək sualtı elektrik enerjisi kabelinin çəkilməsi ilə bağlı layihənin icrası istiqamətində səylər hazırda uğurla davam etdirilir. Bununla da 1200 kilometr uzunluğunda dünyanın ən uzun sualtı kəmərinin tikintisi planlaşdırılır. Hazırda adıçəkilən "yaşıl" enerji layihəsinin həyata keçirilməsinə məsul Birgə Müəssisənin tezliklə yaradılması, texniki-iqtisadi əsaslandırma prosesinin yekunlaşdırılması nəzərdə tutulur.

Macarıstan ötən illər ərzində respublikamıza investisiya qoyuluşuna da daim maraq göstərib. Enerji içkiləri istehsalçısı "Hell" şirkəti ölkəmizə 211 milyon dollarlıq sərmayə yatırıb. Bundan başqa, Macarıstanın ən böyük əczaçılıq müəssisələrindən biri olan "Richter"in Azərbaycanla imzaladığı istehsal müqaviləsinə əsasən, gələcəkdə respublikamızda istifadəyə veriləcək zavodda tibbi və əczaçılıq məhsullarının hazırlanacağı nəzərdə tutulub.

Bütün bu deyilənlərdən belə bir qənaət hasil olur ki, Azərbaycanla Macarıstan arasında əməkdaşlıq təkcə qaz tədarükü, eləcə də "yaşıl" enerjinin inkişafı və təchizatı ilə məhdudlaşmır. Hər iki ölkədə sənaye, nəqliyyat, informasiya texnologiyaları, kənd təsərrüfatı, ticarət və s. sahələrdə də əlaqələrin gücləndirilməsi üçün əlverişli şərait var və bu potensialın reallaşdırılması məqsədilə zəruri tədbirlər görülür. Bu isə Azərbaycan–Macarıstan əlaqələrinin getdikcə genişlənməsini, iqtisadi sahədə yüksək nəticələrin əldə edilməsini şərtləndirir.

# Azərbaycandan Avropaya "mavi" axın

**Əsrimizin ən böyük layihələrindən olan Cənub Qaz Dəhlizi 4 seqmentdən – "Şahdəniz Mərhələ-II", Cənubi Qafqaz Boru Kəməri (CQBK), Trans-Anadolu Qaz Boru Kəməri (TANAP) və Trans-Adriatik Qaz Boru Kəmərindən(TAP) ibarətdir.**

Cənub Qaz Dəhlizinin 2018-ci il mayın 29-da Səngəçal terminalında rəsmi açılış mərasimi keçirilib və Azərbaycan təbii qazı həmin sistemə vurulub. Beləliklə, Xəzər dənizinin Azərbaycan sektorundakı "Şahdəniz" qaz-kondensat yatağının işlənməsinin ikinci mərhələsi çərçivəsində qurulan "Şahdəniz Alfa" və "Şahdəniz Bravo" platformalarından birgə qaz hasilatına başlanılıb. Həmin il iyulun sonunda isə "Şahdəniz Bravo" platformasından ilk qaz əldə olunduğu vaxtdan isə hasilat tədricən artıb. Mövcud "Şahdəniz" qurğularının hasilat gücü gündəlik 56 milyon (ildə 20 milyard) standart kubmetr təşkil edib.

TAP ilə indiyə qədər qaz tədarükü 25 milyard kubmetr həddinə çatıb. Bu barədə məlumat yayan TAP konsorsiumunun açıqlamasında deyilir: "TAP kommersiya əməliyyatına başladığı vaxtdan etibarən




təhlükəsiz şəkildə Yunanıstan, Bolqarıstan və İtaliyaya 25 milyard kubmetr təbii qaz tədarük edib. Təhlükəsiz enerji ötürücüsü olan TAP-ın Avropanın enerji təhlükəsizliyini artırmaq məqsədilə mərhələli şəkildə genişləndirilməsi nəzərdə tutulub".

Azərbaycan TAP vasitəsilə Avropaya qaz tədarükünə 2020-ci il dekabrın 31-də başlayıb. Boru kəmərinin ilkin buraxılış gücü ildə 10 milyard kubmetr təşkil edir. Hidrogen və digər bərpaolunan qazların yeni həcmlərini, həmçinin TAP vasitəsilə nəql etməklə uzunmüddətli dayanıqlılığa imkan yaratmaq mümkündür.

Ölkəmizdən Avropaya qaz tədarükü başlayan vaxtdan indiyədək ixrac coğrafiyası da getdikcə genişlənir. Məsələn, Rumıniya qaz idxalında Azərbaycanla əməkdaşlığa xüsusi diqqət yetirir. Bu sahədə ölkənin "ROMGAZ" şirkəti səmərəli fəaliyyət göstərir. Yeri gəlmişkən, "ROMGAZ" Rumıniyanın ən böyük qaz istehsalçısı olmaqla bərabər, həm də "mavi yanacaq" bazarında ən mühüm tədarükçülərdən biridir.

Azərbaycanın təbii qazını Avropa bazarlarına çatdıran TAP boru kəməri ilə ticarət əməliyyatlarının başlandığı gündən bu vaxtadək "köhnə qitəyə" 40 milyard kubmetrdən çox qaz nəql edilib.

Avropanın enerji təhlükəsizliyini dəstəkləyən boru kəməri ilə 2026-cı ilə qədər ildə əlavə 1,2 milyard kubmetr qaz nəql olunması gözlənilir. TAP hazırda İtaliyanın enerji tələbatının ödənilməsinə mühüm töhfə verir.

TAP kommersiya qaz nəqlinə 2020-ci ilin dekabrında başlayıb. Boru kəməri Xəzər dənizinin Azərbaycan sektorundakı nəhəng "Şahdəniz" yatağından çıxarılan təbii qazı Avropaya çatdırır. TAP Türkiyə–Yunanıstan sərhədində TANAP boru kəmərinə birləşir, Yunanıstan, Albaniya və Adriatik dənizindən keçərək İtaliyanın cənubunda sahilə çıxır.

Boru kəməri perspektivli interkonnektorlar vasitəsilə Cənub-Şərqi Avropa ölkələrinə qaz tədarükünü asanlaşdıracaq. TAP-ın Yunanıstan və Albaniyadakı çıxışları, İtaliyaya uzanması ilə birlikdə Azərbaycan qazının daha geniş Avropa bazarlarına nəqli üçün çoxsaylı imkanlar yaradır. TAP Cənub Qaz Dəhlizinin əsas hissəsi kimi Avropa üçün strateji və iqtisadi baxımdan mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən qətiyyətli enerji strategiyası sayəsində Azərbaycan bu gün Avropanın enerji resurslarının etibarlı təchizatçısına çevrilib. Avropa İttifaqı ölkələri ildən-ilə ölkəmizlə enerji tərəfdaşlığını inamla möhkəmləndirir və genişləndirir, eyni zamanda, bu istiqamətdə bütün layihələri dəstəkləyir.

Azərbaycanın təşəbbüsü ilə həyata keçirilən bütün layihələr kimi, Avropa İttifaqına qaz nəqlinin genişləndirilməsi də artıq reallığa çevrilib. Xüsusilə, son illər ərzində kəskin enerji böhranı və qaz təchizatı mənbələrinin və marşrutlarının real şaxələndirilməsi zərurəti fonunda Avropa İttifaqı ölkələri tərəfindən dəfələrlə Azərbaycandan qaz tədarükünün artırılmasında və ya ona çıxış əldə etməkdə maraqlı olduqları bildirilib. Son illər Avropa İttifaqına üzv dövlətlərin rəhbərlərinin ən yüksək səviyyədə çoxsaylı qarşılıqlı səfərləri reallaşıb və bu səfərlər zamanı əsas diqqət Cənub Qaz Dəhlizinin imkanlarının genişləndirilməsinə yönəldilib.

Sonda diqqəti bir məqama da yönəltmək istərdik. "Rystad Energy" (Norveç) müstəqil araşdırma şirkətinin məlumatına görə, Azərbaycanda qaz sənayesi sürətlə inkişaf edir və onilliyin sonuna qədər qaz hasilatının 2020-ci ilin göstəriciləri ilə müqayisədə 51 faiz – ildə 40 milyard kubmetrə qədər artacağı gözlənilir.

Azərbaycan qaz hasilatını daha da artırmaq üçün bir neçə əsas qaz və qaz-kondensat yataqlarını işlətməyi planlaşdırır. Bu artım yaxın illərdə qaz hasilatının neft hasilatını üstələməsinə gətirib çıxaracaq. 2018-ci ildə "Şahdəniz" layihəsinin ikinci mərhələsinin işə salınmasından sonra qaz sənayesinə əhəmiyyətli təkan verilib ki, bu da 2017-ci ildən əmtəəlik qaz hasilatını 83 faiz –keçən il təxminən 36 milyard kubmetrə çatdırmağa imkan verdi. Təkcə "Şahdəniz" ümumi qaz hasilatının, təxminən, 72 faizini təmin edib.

Norveç şirkəti analitiklərinin dediyi kimi, qaz ixracı da 2018-ci ildəki 9,6 milyard kubmetrdən ötən il, təxminən, 24 milyard kubmetrə qədər artıb. Bu tədarükün, təxminən, yarısı Avropaya, qalanı Türkiyə və Gürcüstana göndərilib. 2022-ci ilin ikinci yarısında Azərbaycan Avropaya ixracını 2027-ci ilə qədər 20 milyard kubmetrə çatdırılması ilə bağlı niyyətlər haqqında memorandum imzalayıb, eyni zamanda, "Şahdəniz" burada əsas rol oynayacaq.

Bu əlavə həcmləri Cənub Qaz Dəhlizi vasitəsilə Avropaya çatdırmaq üçün Azərbaycan TAP-ın ötürmə qabiliyyətini iki dəfə artıraraq 20 milyard kubmetrə, TANAP-ın ötürmə qabiliyyətini 16 milyard kubmetrdən 31 milyard kubmetrə çatdırmağı, eləcə də Cənubi Qafqaz Boru Kəmərinin ötürmə qabiliyyətinin 24 milyard kubmetrdən 31 milyard kubmetrə qədər genişləndirilməsini proqnozlaşdırır.

## Adambaşına aylıq xərc – 582 manat



**Bu ilin yanvar–sentyabr aylarında istehlakçıların tələbatlarının ödənilməsi məqsədilə satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 53,4 milyard manat olmaqla ötən ilin müvafiq dövrünə nisbətən müqayisəli qiymətlərlə 4,5 faiz artıb.**

Dövlət Statistika Komitəsindən bildirilib ki, qeyri-dövlət sektorunun təsərrüfat subyektləri tərəfindən satılmış malların və göstərilmiş xidmətlərin dəyəri 2023-cü ilin yanvar-sentyabr ayları ilə müqayisədə 4,4 faiz artaraq 51,3 milyard manata bərabər olub, onun 45,4 faizi fərdi sahibkarların fəaliyyəti sayəsində formalaşıb.

Hesabat dövründə bir istehlakçı orta hesabla ayda 582,2 manat və ya 2023-cü ilin müvafiq dövrü ilə müqayisədə nominal ifadədə 29,5 manat çox vəsait xərcləyib.

## Ölkədə 2,5 milyard manatlıq rabitə xidməti göstərilib



**Yanvar–sentyabr aylarında informasiya və rabitə müəssisələri əhaliyə 2 milyard 555 milyon manatlıq xidmət göstərib. Onun da 73,4 faizi əhali tərəfindən istehlak olunub.**

Dövlət Statistika Komitəsinin hesabatına əsasən, bu göstərici əvvəlki ilin müvafiq dövrü ilə müqayisədə 12,3 faiz artıb. Xidmətlərdən əldə edilən gəlirin 35,6 faizi və ya 909 milyon manatı mobil telefon rabitəsi sahəsində formalaşıb.

## 9 ayda 1,7 ton qızıl



**Dövlət Statistika Komitəsindən bildirilib ki, cari ilin yanvar–sentyabr aylarında Azərbaycanda 1752,1 kiloqram qızıl, 2308 kiloqram gümüş istehsal edilib. Hesabat dövründə qızıl istehsalı ötən ilin müvafiq dövrü ilə müqayisədə 1,2 faiz artıb, gümüş istehsalı isə 23,8 faiz azalıb.**

Qeyd edək ki, 2024-cü il oktyabr ayının 1-nə respublikada gümüş və qızıl üzrə hazır məhsul ehtiyatı müvafiq olaraq 663,5 kiloqram və 302,3 kiloqram təşkil edib.

## Hər adama 9 ayda 890 manat xidmət



**Cari ilin 9 ayında əhaliyə göstərilən ödənişli xidmətlərin dəyəri ötən ilin müvafiq dövrü ilə müqayisədə 8,3 faiz artaraq 9068,8 milyon manat olub.**

Dövlət Statistika Komitəsinin məlumatına görə, hüquqi şəxslər tərəfindən əhaliyə 6827,8 milyon manatlıq xidmət göstərilib ki, bu da xidmətlərin ümumi dəyərinin 75,3 faizini təşkil edib.

Cari ilin yanvar–sentyabr aylarında hər bir ölkə sakini orta hesabla 889,3 manatlıq və ya ötən ilin müvafiq dövrü ilə müqayisədə 90,3 manat çox müxtəlif ödənişli xidmətlərdən istifadə edib.

*Səhifəni hazırladı:*
*Vaqif BAYRAMOV*
*XQ*




# “Yaşıl” büdcə “yaşıl” keçidin təkanverici amilidir

**İqlim dəyişikliyinin insan sağlamlığı və biomüxtəliflik üçün yaratdığı problemlər və sürətlə artan ekoloji, eləcə də sosial-iqtisadi təsirlər bu gün bütün dünyanı ciddi narahat edir. İqlim dəyişikliyi səbəbindən hava şəraiti sürətlə dəyişir, quraqlıqlar genişlənir, okeanlar istiləşir, buzlaqlar əriyir.**



Beynəlxalq Əmək Təşkilatı istilik təsirinin hər il dünya üzrə ümumi iş saatını 2,2 faiz azaltmaqla məhsuldarlıq itkilərinə səbəb olacağını və bu itkilərin 60 faizinin kənd təsərrüfatı sektorunun payına düşəcəyini proqnozlaşdırır. Problemin qlobal xarakteri iqlim dəyişikliyinin neqativ təsirlərinin azaldılması istiqamətində səylərin birləşdirilməsini və bu sahədə beynəlxalq əməkdaşlığın gücləndirilməsini tələb edir. Təsadüfi deyildir ki, iqlim dəyişikliyi və onun təsirlərinə qarşı mübarizə aparmaq üçün təxirəsalınmaz tədbirlərin görülməsi 2015-ci ildə BMT-nin tarixi sammitində dünya liderləri tərəfindən qəbul edilən Dayanıqlı İnkişaf Məqsədlərindən biri kimi müəyyənləşdirilib. 2016-cı ildə qəbul oluna Paris Sazişi isə iqlim dəyişikliyi ilə bağlı həm siyasi məlumatlılığı, həm də öhdəliyi artırıb.

Dünya ölkələri qlobal temperatur artımını 1,5°C-dən aşağı saxlamaq üçün öz milli fəaliyyət planlarını və yol xəritələrini müəyyən edib. Bir sıra dövlətlər bu istiqamətdə mühüm addımlar atsa da, Paris Sazişinin məqsədlərinə tam çatmaq üçün hələ uzun bir yol qət edilməlidir.

İqlim dəyişikliyi üzrə beynəlxalq öhdəliklərin yerinə yetirilməsi və “xalis sıfır” karbon iqtisadiyyatına keçid böyük məbləğdə maliyyə resursları tələb edir. Bu baxımdan Paris Sazişi ilə qarşıya qoyulan hədəflərdən biri də məhz BMT-nin İqlim Dəyişikliyi üzrə Çərçivə Konvensiyasına üzv inkişaf etmiş ölkələrin inkişaf etməkdə olan ölkələrə iqlim dəyişikliyinin neqativ təsirləri ilə mübarizəyə dəstək göstərməsi, eləcə də qısa müddətdə kapitallaşdırma yolu ilə Yaşıl İqlim Fondunun fəaliyyətini tam gerçəkləşdirmək üçün bütün mənbələrdən, ümumilikdə, 100 milyard ABŞ dollar məbləğində vəsaitin toplanması olub.

Qlobal istiləşməni 1,5°C həddində saxlamaq niyyəti daşıyan istixana effekti yaradan qaz tullantılarını azaltmaq üçün dünya ölkələri tərəfindən Paris İqlim Sazişindən sonrakı müddətdə yeni, daha iddialı hədəfləri gerçəkləşdirmək məqsədilə 2021-ci il oktyabrın 31-dən noyabrın 12-dək Böyük Britaniyanın Qlazqo şəhərində BMT-nin növbəti İqlim Dəyişiklikləri Konfransı (COP26)) keçirilib. Konfrans çərçivəsində 2030-cu ilədək mövcud hədəflərin artırılması və 2050-ci ilədək “xalis sıfır” emissiyaya nail olunması istiqamətində inkişaf etmiş ölkələr qrupu, ələlxüsus Avropa İttifaqı, ABŞ və konfransın ev sahibi olan Böyük Britaniya tərəfindən bir sıra təşəbbüslər irəli sürülüb.

Konfrans son illər iqlim və enerji transformasiyası ilə bağlı vacib qərarlar qəbul etməklə bərabər, həm də inkişaf etmiş ölkələr qrupu ilə iddialı iqlim hədəflərinin və enerji transformasiyası tempinin aşağı olduğu Çin, Hindistan, Rusiya kimi nəhəng iqtisadiyyatlı, eləcə də məhdud resurslara malik inkişaf etməkdə olan bir çox ölkələr arasında gərgin danışıqlar fonunda keçib. Xüsusilə də iqlim dəyişikliyi sahəsində adaptasiya və mitiqasiya tədbirlərini səmərəli həyata keçirmək üçün irimiqyaslı maliyyə, texniki və texnoloji resursların səfərbər edilməsinin vacibliyi inkişaf etməkdə olan ölkələr tərəfindən qabardılıb və bu zəruri ehtiyac inkişaf etmiş ölkələr tərəfindəndə təsdiqlənib.

İqlim dəyişikliyi fiskal, maliyyə və monetar siyasətlərin, eləcə də xərc qərarlarının yenidən istiqamətləndirilməsi, xüsusən də mədən yanacaqlarından asılı ölkələrdə keçidlə bağlı risklərin nəzərə alınması da daxil olmaqla hərtərəfli reaksiya tələb edir. İqlim dəyişikliyi ilə mübarizə tədbirlərinə maliyyə resurslarının səmərəli mobilizasiyası üçün büdcə siyasətinin milli ətraf mühit və iqlim prioritetləri, həmçinin məqsədləri ilə əlaqələndirilməsi, iqlim dəyişikliyi ilə bağlı maliyyələşmənin büdcə proseslərinə sıx inteqrasiyası zəruridir.

Dövlət maliyyəsinin iqlim dəyişikliyinə həssaslığının artırılması büdcə siyasətinin ətraf mühit və iqlim təsirlərinin qiymətləndirilməsinə və daha əsaslı iqlim məqsədlərinə uyğunlaşdırılmış büdcə qərarlarının verilməsinə imkan yaradır. İqlimə həssas büdcənin tətbiqi iqlimlə bağlı dövlət xərclərinin müəyyənləşdirilməsi, monitorinqi, hesabatlılığı və qiymətləndirilməsi ilə yanaşı, iqlim dəyişikliyinin artan mənfi təsirləri ilə bağlı fiskal risklərin də qiymətləndirilməsi və idarə olunmasına şərait yaratmaqla fiskal dayanıqlığın möhkəmlənməsinə töhfə verir.

Son illər ərzində 2030-cu il İqlim Gündəliyinin sosial, ekoloji və iqtisadi məqsədlərinə daha yaxşı inteqrasiya olunan yanaşmaların tətbiqində maliyyə nazirliklərinin rolu və potensialı artmaqdadır. 2019-cu ildə İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyası yaradılıb. Maliyyə nazirlərinin imzaladığı “Helsinki prinsipləri” xüsusilə fiskal siyasət və dövlət maliyyəsindən istifadə yolu ilə milli iqlim fəaliyyətini təşviq etmək məqsədi daşıyıb. Koalisiya hazırda 62 ölkədən olan üzvlərdən ibarətdir və 18 institusional tərəfdaş tərəfindən dəstəklənir. Koalisiyaya üzvlük qlobal xarakter daşıyır və bütün regionlardan olan ölkələri bir araya gətirir.

“Helsinki prinsipləri”ndə makroiqtisadi siyasət, fiskal planlaşdırma, büdcə, dövlət investisiyalarının idarə edilməsi və satınalma təcrübələrində iqlim dəyişikliyinin nəzərə alınması amili xüsusi diqqət çəkir. Bu, ölkələrin və inkişaf tərəfdaşlarının iqlim dəyişikliyi problemlərinə cavab vermək üçün milli planlaşdırma və büdcə sistemlərindən istifadəsinin vacibliyini qabul etdiklərini göstərir.

Son illərdə dünyada ətraf mühit və iqlim məqsədlərinə nail olmaq üçün büdcə siyasətində mühüm yer tutan vasitələrdən istifadəni özündə ehtiva edən “Yaşıl büdcə” çərçivəsinin tətbiqi geniş vüsət alıb. Avropa, Asiya, Afrika və digər regionlarda yerləşən bir sıra ölkələrdə iqlim dəyişikliyi ilə bağlı maliyyələşmənin büdcə proseslərinə inteqrasiyası, monitorinq, qiymətləndirmə və hesabatlılıq sisteminin qurulması və “yaşıl büdcə”nin tətbiqi istiqamətində mühüm addımlar atılıb.

İqlim və ətraf mühit məqsədlərinin dövlət maliyyə idarə olunması proseslərinə uyğunlaşdırılmasında ölkələrə dəstək göstərmək üçün büdcə alətlərinin hazırlanması məqsədilə 2017-ci ildə İqtisadi Əməkdaşlıq və İnkişaf Təşkilatının “Yaşıl büdcə” üzrə Paris Əməkdaşlıq Birliyi yaradılıb. Bununla yanaşı, son illərdə BMT-nin İnkişaf Proqramı kimi bir sıra beynəlxalq təşkilatlar tərəfindən də müəyyən metodoloji təlimatlar və tövsiyələr hazırlanıb.

Lakin hazırda dünyada büdcə siyasətinin iqlim dəyişikliyinə təsirlərinin və ya büdcənin nə qədər “yaşıl” olduğunun qiymətləndirilməsi üçün vahid bir metodologiya, standart və ya qayda mövcud deyil. Azərbaycan da digər ölkələr kimi, iqlim dəyişikliyinin neqativ təsirlərinə məruz qalıb. Respublikada iqlim dəyişikliyinin mənfi təsirləri daha çox havanın orta illik temperaturunun artması, daşqınlar, sellər, quraqlıq və s. kimi təbiət hadisələrinin sayının artması ilə göstərib.

Azərbaycanda iqlim dəyişikliyinə ən həssas sahələr kənd təsərrüfatı, su, səhiyyə, enerji, meşə, turizm sektorları hesab edilir. Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 2 fevral tarixli Sərəncamı ilə təsdiqlənən “Azərbaycan 2030: sosial–iqtisadi inkişafa dair Milli Prioritetlər” sənədində təmiz ətraf mühit və “yaşıl artım” 5 əsas prioritetdən biri olaraq müəyyənləşdirilib və bu prioritet daxilində yüksək keyfiyyətli ekoloji mühitin, eləcə də “yaşıl” enerji məkanının gerçəkləşdirilməsi nəzərdə tutulub.

Milli Prioritetlərə uyğun olaraq hazırlanan “2022-2026-cı illər üzrə sosial–iqtisadi inkişaf Strategiyası”nda yüksək keyfiyyətli ekoloji mühitin və “yaşıl” enerji məkanının təmin edilməsi istiqamətində müəyyən strateji layihə və tədbirlərin həyata keçirilməsi nəzərdə tutulub.

Həmin məqsədlərin gerçəkləşdirilməsi, iqlim dəyişikliyi ilə mübarizə və “yaşıl” iqtisadiyyata keçid üçün böyük məbləğdə maliyyə resursları tələb edilir ki, bu da büdcə sisteminə sıx inteqrasiya olunmaqla, effektiv monitorinq, qiymətləndirmə və hesabatlılıq sisteminin qurulması ilə mümkündür. Unutmayaq ki, problemin həllində ölkədə iqlim dəyişikliyinin təsirlərinin azaldılması istiqamətində bərpaolunan enerji mənbələrindən və enerji səmərəli texnologiyalardan istifadənin daha çox diqqətdə saxlanılması, istilik elektrik stansiyalarında mazut işlədilməsinin dayandırılması, eləcə də onun əvəzinə daha təmiz yanacaq olan təbii qazdan istifadəyə üstünlük verilməlidir. Meşə ərazilərinin genişləndirilməsi, səmt qazlarının atmosferə atılma həcminin və elektrik enerjisi istehsalında sərf olunan şərti yanacağın ildən-ilə azaldılması və s. kimi tədbirlərin keçirilməsində də xüsusi həssaslıqla yanaşılmalıdır.

Ölkədə alternativ enerjinin istifadəsi, sosial – iqtisadi sektorlarda azkarbonlu fəaliyyətlərin təşviqi prioritet təşkil edir. “Yaşıl” iqtisadiyyata investisiyaların yatırılması, ekoloji cəhətdən təmiz alternativ enerji mənbələrindən geniş istifadəyə üstünlük verilməsi, istilik effekti yaradan qazların azaldılması, sənaye, nəqliyyat, tikinti və digər sahələrdə enerjidən səmərəli istifadə tədbirlərinin həyata keçirilməsi, su anbarları və elektrik stansiyalarının inşası, meşəsalma və s. layihələrinin reallaşdırılması diqqətdə saxlanılır.

# Seuldan Bakı konfransına gələn yol

**Ölkəmizin Cənubi Koreyadakı səfiri Ramin Həsənov Seulda Qlobal Yaşıl İnkişaf İnstitutunun təşkilatçılığı ilə keçirilən “COP29-a aparan yol” konfransında bildirib ki, Azərbaycanın sədrliyinə etimad göstərilməsi respublikamızın iqlim gündəliyinin həyata keçirilməsində liderliyə və iqlim dəyişikliyi ilə mübarizə üzrə qlobal səylərə mühüm töhfə verməyə hazır olduğunu təsdiq edir.**



Səfiri çıxışında Azərbaycanın ekoloji təhlükəsizliyə, ekoloji davamlılığa və “yaşıl” inkişafa böyük əhəmiyyət verdiyini, respublikamızın əsas uzunmüddətli hədəflərindən birinin “yaşıl” iqtisadiyyata keçid olduğunu, bu kontekstdə “təmiz ətraf mühit və yaşıl inkişaf” sosial–iqtisadi tərəqqinin əsas milli prioritetləri kimi müəyyənləşdirildiyini vurğulayıb. Bununla belə ölkəmizin artıq iqlim dəyişikliyinin mənfi nəticələri ilə üzləşdiyini xatırladan R.Həsənov bildirib: “Belə bir hal ekoloji məqsədlərə nail olmağı çətinləşdirir. Azərbaycan həddindən artıq istilər, su qıtlığı, Xəzər dənizinin səviyyəsinin aşağı düşməsi, eləcə də əhalinin həyatına və rifahına birbaşa təsir edən səhralaşma ilə üzləşir. Bundan əlavə, transsərhəd axınlarla su ehtiyatlarının çirklənməsi və azad olunan ərazilərin Ermənistan tərəfindən yerləşdirilmiş minalarla çirklənməsi ekoloji vəzifələrin yerinə yetirilməsinə maneə törədir. İqlim dəyişikliyi bu gün dünya üzrə milyardlarla insana təsir edən real bir təhlükədir”.

Diplomatın sözlərinə görə, “Yaşıl dünya naminə həmrəylik” çağırışına əsaslanaraq inkişaf etməkdə olan ölkələri yaxınlaşdırmaq və iqlim problemlərinin həlli üçün əməkdaşlıq ruhunu gücləndirməklə bağlı səylər göstərir ki, bu da ümumi öhdəlik və mənəvi borc kimi qəbul edilir. COP29 Cənubi Qafqazda keçiriləcək ilk tədbir olacaq və ölkəmizi dünyaya təqdim etmək bizim üçün böyük şərəfdir.

Beynəlxalq ictimaiyyətin bu il COP29-u keçirmək və ona sədrlik etməklə bağlı ölkəmizə göstərdiyi etimad Azərbaycanın iqlim gündəliyini uğurla yerinə yetirməyə və iqlim dəyişikliyinə qarşı qlobal mübarizəyə öz töhfəsini verməyə hazır olduğunun sübutu və etirafıdır. Sədr olaraq Azərbaycan COP29-u şəffaf, qərəzsiz, inklüziv şəkildə və bütün tərəflərin təşəbbüsü ilə gerçəkləşdirməyə dair öhdəliklərini təsdiqləyir.

Tədbirdə rəsmi şəxslərlə yanaşı, iqlim sahəsində aparıcı ekspertlər də iştirak ediblər. Onlar iqlim dəyişikliyi ilə mübarizədə təcili tədbirlərin zəruriliyinə diqqət çəkiblər. Qeyd edilib ki, dünya ictimaiyyəti uyğunlaşma və zərərli emissiyaların azaldılması üzrə tədbirləri təxirə sala bilməz, çünki iqlim dəyişikliyinin nəticələri daha çox hiss olunur.

Ekspertlər beynəlxalq əməkdaşlığın gücləndirilməsinə və həssas ölkələrə maliyyə dəstəyinin artırılmasına çağırış edərək dünya ictimaiyyətini iqlim çağırışları ilə mübarizə aparmağa və qlobal ətraf mühit dəyişikliklərinin artıq vurduğu zərəri minimuma endirməyə səsləyiblər.

# Planetimizin gələcək taleyi COP29-dan cavab gözləyir

**Bu ilin noyabr ayında Bakıda keçiriləcək COP29 planetimizin gələcəyi və rifahı üçün mühüm əhəmiyyət kəsb edən qlobal tədbirdir. Bu fikri Avropa İttifaqının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Peter Mixalko “Caspian Energy Club”ın təşkilatçılığı ilə Bakıda keçirilən “Yaşıl texnologiya və dayanıqlı inkişaf” mövzusunda “Central Baltic&Azerbaijan Business Forum”da bildirib.**



Onun sözlərinə görə, COP29 zamanı dünyanın diqqəti Bakıda olacaq: “İki həftə ərzində dünya liderləri burada bir araya gələcək. İqlim konvensiyasının iştirakçıları görüşə və beynəlxalq iqlim siyasəti ilə bağlı müzakirələr apara biləcəklər”.

Diplomat qeyd edib ki, “yaşıl” texnologiyalarla bağlı müxtəlif qanunvericilik aktlarının hazırlanmasından tutmuş həll edilməli bir çox məsələlər var: “Biz Avropa İttifaqı olaraq Azərbaycanın bu sahədə üzərinə götürdüyü öhdəlikləri dəstəkləməyə, bu istiqamətdə ən yaxşı nəticələrə nail olmaq üçün təcrübələrimizi bölüşməyə hazırıq.

P.Mixalko sonda vurğulayıb ki, bərpaolunan enerji və enerji səmərəliliyi iqlim dəyişikliyi ilə mübarizədə mühüm əhəmiyyət kəsb edir. Bunlar qazıntı yanacaqlarına, kömürə və təbii qaza olan tələbatı azaltmaq üçün imkan yaradır, istixana qazı emissiyalarının azaldılmasına böyük töhfə verir.

# “Yaşıl” ongünlükdə 1,6 milyon ağac və kol əkiləcək

**Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin sərəncamı ilə iqlim dəyişmələrinə qarşı qlobal mübarizədə beynəlxalq həmrəyliyin gücləndirilməsi məqsədilə 2024-cü il Azərbaycanda “Yaşıl dünya naminə həmrəylik ili” elan edilib.**



Bununla bağlı ölkə ərazisində yaşıllıq sahələrinin genişləndirilməsinə, ətraf mühitin qorunmasına və qlobal iqlim dəyişmələrinin qarşısının alınmasına töhfə vermək üçün cari il oktyabrın 18–27-də respublikamızın 85 şəhər və rayonunun icra hakimiyyətləri tərəfindən “Yaşıl bir dünya üçün həmrəy olaq!” şüarı altında 2401 hektar ərazidə 1 milyon 611 min ağac və kolun əkilməsi nəzərdə tutulub.

Ölkəmizin bütün bölgələrini əhatə edən və 10 gün ərzində keçirilməsi nəzərdə tutulan aksiya zamanı Bakı şəhərində 619 min, Naxçıvan Muxtar Respublikasında 89 min, digər şəhər və rayonlarda isə 903 min ağac əkiləcək. Bölgələrdə yerli iqlimə uyğun olması və quraqlığa davamlılığı nəzərə alınmaqla 749 min həmişəyaşıl, 170 min meşə ağacları, 692 min ədəd isə dekorativ kol basdırılacaq.

Aksiyaya hazırlıq mərhələsində bütün şəhər və rayon icra hakimiyyətləri tərəfindən yaşıllıqların salınacağı ərazilər üzrə 540 ünvan müəyyən edilib, yeni əkilən ağaclara aqrotexniki qulluq göstərilməsi, onların qorunması və suvarılması ilə bağlı vacib təşkilati və texniki tədbirlər görülüb.

*Səhifəni hazırladı:*
***Vaqif BAYRAMOV***
***XQ***

Nizaməddin Şəmsizadə – 70

# Milli ədəbiyyatın tarixçisi, nəzəriyyəçisi və tənqidçisi

**XIX əsrin sonu, XX əsrin əvvəllərində Firudin bəy Köçərlidən başlayan peşəkar Azərbaycan ədəbiyyatşünaslığı 100 ildən artıq tarixinin, demək olar ki, heç bir mərhələsində mütəxəssis korluğu çəkməmişdir.**

Milli ədəbiyyatşünaslıq, ümumən, ədəbiyyatın, xüsusən, onun dialektikası və metafizikası üzərində dərindən düşünmüş, ayrı-ayrı dövrlər üçün səciyyəvi ideoloji müdaxilələri, subyektiv mövqelər formalaşdıran müəyyən yanlış metodoloji təsirləri aşaraq bu gün cəsarətlə təqdir edə biləcəyimiz kifayət qədər möhtəşəm bir elmi-intellektual, mədəni-mənəvi irs – zəngin milli məfkurə potensialı yaratmışdır. Bu barədə danışarkən onlarla görkəmli şəxsiyyətin adını böyük ehtiramla xatırlamaq lazım gəlir: F.Köçərli, S.Mümtaz, B.Çobanzadə, S.Vurğun, M.Hüseyn, H.Araslı, M.Cəlal, M.Arif, Ə.Mirəhmədov, R.Əliyev, M.Təhmasib, M.Seyidov, Q.Kəndli, Ə.Ağayev, P.Xəlilov, Y.Qarayev, İ.Həbibbəyli, R.Hüseynov, T.Kərimli, M.Kazımoğlu, M.Qasımlı...

Filologiya elmləri doktoru, professor, Əməkdar elm xadimi, Azərbaycan Respublikasının Dövlət mükafatı laureatı Nizaməddin Şəmsizadənin də adı, heç şübhəsiz, bu sırada özünəməxsus yer tutmaqdadır. Nizaməddin ədəbiyyat haqqındakı elmin hər 3 sahəsi üzrə çoxdandır ki, nüfuzlu mütəxəssis kimi tanınmaqdadır. Həm ədəbiyyat tarixinə, həm ədəbiyyat nəzəriyyəsinə, həm də ədəbi tənqidə həsr edilmiş (və hər biri elmi-ədəbi mühitdə maraq doğuraraq geniş müzakirə obyektinə çevrilmiş) kitabları, məqalələri, məruzə və çıxışları elmimizin ən dəyərli uğurlarındandır. Onlar, bir tərəfdən, ədəbi şəxsiyyətə, hadisəyə, prosesə üzdən deyil, dərindən, həssas, dəqiqliklə yanaşmaq, ikinci tərəfdən, həmin faktların özünəməxsus vüsəti ilə seçilən mükəmməl ideya-estetik dərk nümunələridir.

Nizaməddinin indiyə qədər nəşr olunmuş əsas kitablarının, sadəcə, adlarını çəkmək kifayətdir ki, onun miqyaslı və keyfiyyətli təfəkkürünün meydanı barəsində aydın təsəvvür hasil olsun: “Ədəbi mübahisələr” (1986), “Azərbaycan ideologiyası” (1996), “Azərbaycan ədəbiyyatşünaslığı” (1997), “Türk təfəkkürü məcrasında” (1998), “Hıçqıran gülüşlər” (2002), “Əli Nazim” (2003), “Tənqidin ədəbi prosesdə rolu” (2004), “Böyük nəslin davamçısı” (2005), “Azərbaycançılıq” (2006), “Ədəbi proses və ədəbi nəsil” (2008), “Yazıçı ömrünə uvertüra” (2010), “Ədəbiyyat nəzəriyyəsi” (2012), “Əgər onlar olmasaydı” (2015), “İdrakın üfüqləri” (2019) və 3 cildlik “Seçilmiş əsərləri” (2008, 2010, 2011).

Azərbaycan ədəbiyyatşünaslığının dəyərli əsərlərini yaratdığına görə bu elm də Nizaməddinin alim-mütəfəkkir obrazını təqdim etməyə ehtiyac duymuşdur. Şamil Vəliyevin “Azərbaycanşünas alim” (2004), Gülxani Pənahın “Ədəbiyyatdan əbədiyyətə” (2019) monoqrafiyaları, eləcə də “Filosof tənqidçi” məqalələr məcmuəsi (2011) və s. məhz bu ehtiyacdan ərsəyə gəlmişdir.

Əlbəttə, Nizaməddin, ilk növbədə, fundamental elmi əsərlər – monoqrafiyalar müəllifidir. Ancaq onun bədii əsərlərinə də, görünür, həvəskar yaradıcılığıdır deyib keçmək doğru olmazdı. “Bürkü”, “Tüstü”, “Duman”, “Səma”, “Sonuncu daxma”, “Reanimasiya” şeir, hekayə və esse kitablarında, kəlamlarında (“Müdriklər bunları deməyib”) və “Mən kiməm” fəlsəfi-publisistik romanında Nizaməddin elmi üslubun hüdudlarına sığmayan duyğu-düşüncələrini bədii üslubun və təxəyyülün öhdəsinə verməklə çoxşaxəli istedadının daha bir komponentini hərəkətə gətirir. Və belə bir yaradıcılıq sirrinin üstünü açmalı olur: ədəbiyyat özünün ən müxtəlif janr təzahürlərində onun üçün təkcə tədqiqat predmeti deyil, həm də ruhunun dolandığı məkan, idrakının pərvaz etdiyi üfüqlərdir.

Professor Nizaməddin Şəmsizadənin “Orta əsrlər Azərbaycan ədəbiyyatı (bədii-



fəlsəfi təkamülü)” kitabı mükəmməl elmi əsərdir. Əsərin xüsusilə 3 mühüm məziyyətini ayrıca qeyd etmək istərdik:

– birincisi, ilk dəfədir ki, Azərbaycan ədəbiyyatı tarixi kontekstində “orta əsrlər” konseptinə aydınlıq gətirilməsinə strateji səviyyədə və kifayət qədər arqumentli bir şəkildə cəhd göstərilir;

– ikincisi, orta əsrlər Azərbaycan ədəbiyyatının əsas cərəyanları, məktəbləri, yaradıcılıq metodları, dövrləri, mərhələləri, şəxsiyyətləri və s. barədəki faktlar, məlumatlar, bu və ya digər məqsədlə aparılmış ayrı-ayrı ümumiləşdirmələr bədii-fəlsəfi təkamül baxımından konseptual olaraq analiz edilir ki, həmin analizin nəticələri bizə Azərbaycan orta əsrlərinin xronoloji hüdudlarını yox, ədəbiyyat adlandırdığımız hadisənin ən müxtəlif ideya-estetik zühur imkanlarının ortaya çıxan mənzərəsini versin;

– nəhayət, müəllif bir ədəbiyyatşünas-mütəfəkkir kimi hərəkət edərək üçdilli Azərbaycan ədəbiyyatının istər ərəb, istər fars, istərsə də türkcə yaradıcılıq aktlarını eyni bir genetipoloji mənbədən – Azərbaycan türk-müsəlman təfəkküründən qaynaqlandığını inandırıcı şəkildə sübut etməyə yaxınlaşır.

Və az qala elmi aforizm kimi yaddaşımızı həbs etməkdə olan “ərəb zehniyyəti, fars dili və türk ruhunun əlaqəsi” barədəki mülahizə, görünür, Şərq müsəlman mədəniyyəti haqqında yeni nəzəriyyələrin meydana çıxmasına təkan vermək iddiasındadır.

“Orta əsrlər Azərbaycan ədəbiyyatı”nın olduqca çevik, müəllifin çox hallarda tamamilə yeni olan ideyalarını bütün dolğunluğu ilə əks etdirən strukturu vardır ki, onu ədəbiyyat tarixi yönlü əsərlərdən xeyli dərəcədə fərqləndirir. Belə ki, 4 hissədən ibarət kitabın “Türk bədii təfəkkürünün yaradıcılıq imkanları” adlanan birinci hissəsində əvvəl ədəbiyyatımızın ümumtürk qaynaqları araşdırılır, sonra “Dədə Qorqud”un nümunəsində türk epos mədəniyyətinin əsas xüsusiyyətlərinin şərhinə keçilir.

“Anadilli şeirimizin ilk nümayəndəsi Zübeydə Xatun”dan bəhs edərkən müəllif hər nə qədər çalışırsa ki, ədəbiyyat tariximizi daha qədim və daha etibarlı, fundament, yaxud pyedestal üzərinə yerləşdirsin, bu cəhd məhz material kasadlığı ucbatından milli təəssübkeşlikdən, eləcə də nəzəri mülahizəçilikdən o yana keçmir. Halbuki məlum, hətta olduqca populyar materialın araşdırıldığı “Ərəb və farsdilli Azərbaycan ədəbiyyatı” bölməsində orta əsrləri məhz ədəbiyyat hadisəsi kimi dərk etmək baxımından kifayət qədər dəqiq əsaslı mülahizələr söylənilmişdir.

Doğrudur, Nizaməddin bəzən elmi təxəyyülünün hüdudlarını bədii təfəkkürdəki qədər genişləndirir, ancaq bu halda da onun qənaətləri elmi dəyərini nəinki azaldır, əksinə, daha təsirli, daha nüfuzedici edir. Məsələn: “Fars dili “Şahnamə”lər və “Xəmsə”lər yaratdı. Bu, dünya tarixində möhtəşəm ədəbiyyat dövrü idi. Lakin artıq anadilli ədəbiyyat tariximizin qapısını hikkə ilə döyürdü. Fəqət hələ tez idi. Qarşıda Xaqani və Nizami kimi əzəmətli zirvələr var idi. Və biz istəsək də, istəməsək də farsdilli poeziya X – XII əsrlərdə hakimi-mütləq idi. Bunu mərdi-mərdanə etiraf etmək lazımdır”.

Zahirən (eləcə də bizim ənənəvi ədəbiyyat tarixçiliyimizin mövqeyindən) belə görünə bilər ki, burada müəllif faktın gerçəkliyini təsbit etməklə kifayətlənməli, “kontekst”dən kənara çıxmamalı idi. Ancaq Nizaməddin bununla kifayətlənmiş olsaydı, biz əsərin və müəllifin ruhunun fəlsəfi vüsətindən, təbii ki, danışa bilməzdik.

“Orta əsrlər Azərbaycan ədəbiyyatı”nın ikinci hissəsində “orta əsrlər”in “tarixi-nəzəri konsepsiya və bədii sistem” olaraq şərhi dərinləşdirilməklə yanaşı, Qazi Bürhanəddinin, Nəsiminin (hürufizmin) və Xətainin məhsuldar yaradıcılığı timsalında onun (Azərbaycan orta əsrləri ideya-estetik konseptinin) panoramı türkcənin hesabına genişləndirilərək öz gerçək hüdudlarını müəyyənləşdirir.

Üçüncü hissədə “söz mülkünün sultanı” Füzulidən bəhs olunarkən Nizaməddin sözünə “yarım əsrdir ki, “söz gözəlinin nazını çəkirəm” (Füzuli) və bundan qürur duyuram, həzz alıram, usanmıram. Ömrümün əsas günlərini Sözlə söhbətdə keçirirəm, yuxusuz gecələrdə Sözlə baş-başa verib dərdləşirəm. Darıxanda, kədərlənəndə Füzuli Sözünün ətəyinə baş qoyuram” deməklə başlayır. Və dahi şairin 3 dildə yazdığı qəzəlləri, qəsidələri əsasında janrın bədii xüsusiyyətlərini müəyyən etdikdən sonra Füzulidə eşq və idrak, türkçülük, İslam və sufizm kimi problemlərin şərhinə rəvac verir.

Daha sonra isə “dünya ədəbiyyatında məhəbbət haqqında ən dərin mənalı bədii-fəlsəfi əsər olan” “Leyli və Məcnun”u təhlil edir. Bu araşdırma elə “Füzuli Sözünün ətəyinə baş qoymaq”dan başqa bir şey deyil. Şair-mütəfəkkirin rəmz və alleqoriya sistemi barədə orijinal olduğu qədər də maraqlı interpretasiyalardan sonra müəllif Azərbaycan poeziyasında Füzuli mövzusuna keçir. Həmin mövzu isə, əslində, ədəbiyyat tarixçiliyindən daha çox fəlsəfi-nəzəri baxışın, müəyyən qədər də esseistikanın predmetidir.

Fikrimcə, aşağıdakı mülahizələr orta əsrlər Azərbaycan ədəbiyyatının son dövrü barədəki təsəvvürlərimizi həm faktik, həm də metodoloji baxımdan zənginləşdirir: “Füzulidən Vaqifə qədər – XVII – XVIII əsrlər Azərbaycan ədəbiyyatının bədii-fəlsəfi təkamülündə həm klassik üslubda yazan şairlər, həm epik dastanlar, həm də aşıq şeiri – 3 istiqamət əsas rol oynamışdır. Xüsusən üçüncü təmayül Qazi Bürhanəddin, Nəsimi, Xətai, Füzuli yaradıcılığı ilə başlanıb gələn anadilli şeirin – heca vəzninin zənginləşərək M.P.Vaqif yaradıcılığında büllurlaşmasında, şeirin bədii-fəlsəfi səviyyəsinin yüksəlməsində müstəsna rol oynamışdır. Bu təmayüllər həm də orta əsrlər ədəbiyyatının bədii-fəlsəfi yekununu hazırlayan mərhələlər kimi nəzərdən keçirilə bilər”.

Kitabın dördüncü hissəsi realizmin banisi M.P.Vaqifə həsr olunmuşdur. Burada belə bir düşündürücü nəticəyə gəlinib ki, “Azərbaycan ədəbiyyatında realizm İntibahın, sufizmin, hürufizmin, Füzuli romantikasının təkamülü ilə yetişib və Vaqif yaradıcılığında bərqərar olub”.

Əlbəttə, yalnız ədəbiyyat tarixçiliyimizin, hətta ədəbiyyat haqqındakı elmimizin deyil, ümumən, ictimai-fəlsəfi fikrimizin dəyərli əsəri saydığımız “Orta əsrlər Azərbaycan ədəbiyyatı” bir daha göstərir ki, professor Nizaməddin Şəmsizadə Sözümüzün ideya-estetik məğzinə vara-vara ruhumuzun tərcümeyi-halını yazanların ön sıralarında inamla addımlayır – həm ədəbiyyat tənqidçisi, həm ədəbiyyat nəzəriyyəçisi, həm də ədəbiyyat tarixçisi, ümumən, ədəbiyyat haqqındakı elmin mütəfəkkiri kimi.

***Nizami CƏFƏROV,***
***Atatürk Mərkəzinin müdiri, akademik***

# MEDİA-da antikorrupsiya mövzusunda təlim

**Medianın İnkişafı Agentliyində antikorrupsiya davranış modelinin yaradılması və antikorrupsiya mədəniyyətinin formalaşdırılması üzrə işçilərin nəzəri biliklərinin artırılması, maraqların toqquşmasının qarşısının alınması və nəticələrinin aradan qaldırılması, korrupsiya ilə əlaqədar hüquqpozmalara görə məsuliyyət tədbirləri barədə məlumatlılığın artırılması məqsədilə təlim təşkil olunub.**

Toplantıda bildirilib ki, “Korrupsiyaya qarşı mübarizənin gücləndirilməsinə dair 2022-2026-cı illər üçün Milli Fəaliyyət Planı”nına uyğun olaraq, antikorrupsiya davranış modelinin formalaşdırılması ilə bağlı işlərin gücləndirilməsi, cəmiyyətdə məlumatlılığın artırılmasına yönəlmiş maarifləndirmə, tədris və digər tədbirlərin səmərəliliyinin yüksəldilməsi məqsədilə tədbirlər nəzərdə tutulub.

Təlimdə Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin prokuroru Nicat Nağıyev və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin böyük prokuroru İradə Xəlilovanın məruzələri dinlənilib. Onlar antikorrupsiya davranış modellərinin spesifik cəhətləri, korrupsiya risklərinin müəyyən edilməsinin əhəmiyyəti, korrupsiyaya qarşı mübarizə sahəsində preventiv tədbirlərin, o cümlədən maraqlar toqquşmasının idarə edilməsi formaları və etik davranış qaydaları barədə geniş məlumat veriblər. Təlimin sonunda iştirakçıları maraqlandıran suallar cavablandırılıb, fikir mübadiləsi aparılıb.



***XQ***

# Borçalılara ağır itki üz verib

**Gürcüstanda fəaliyyət göstərən “Maarif” təşkilatının rəhbəri, tanınmış ziyalı Ələddin Qarabağlı dünyasını dəyişib. Ələddin Qarabağlı təşkilatın ofisində baş verən yanğın nəticəsində ağır yanıq xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmişdi. Ofisdə yanğının qaz partlaması nəticəsndə baş verdiyi ehtimal olunur.**



Ələddin Qarabağlı Gürcüstanın Qardabani rayonunun Ağtəhlə kəndində anadan olub. Ali təhsilini Gəncə Dövlət Pedaqoji Universitetinin fizika fakültəsində alıb. O, Ağtəhlə, Qaratəhlə kəndlərində müəllim, dərs-hissə müdiri, uzun müddət məktəb direktoru işləyib. 2001-ci ildə “Maarif” qəzetini, azyaşlı soydaşlarımız üçün isə “Tumurcuq” uşaq qəzetini təsis edib.

Fəaliyyəti boyu Gürcüstanda Azərbaycan məktəblərinin vəziyyəti ilə yaxından maraqlanan, qeyri-hökumət təşkilatları ilə onlarla layihənin reallaşmasında fəallıq göstərən tanınmış ziyalı “Gürcüstanda Azərbaycandilli məktəblərin tarixi antologiyası” adlı əsərin də müəllifidir.

Ələddin Qarabağlı “Diaspor fəaliyyətində xidmətə görə” medalı ilə təltif olunub.

**Diasporla İş üzrə Dövlət Komitəsinin rəhbərliyi və “Xalq qəzeti”nin kollektivi çoxşaxəli fəaliyyətilə yaddaşlarda iz qoyan Ələddin Qarabağlının vəfatından kədərləndiyini bildirir, mərhumun ailəsinə və yaxınlarına dərin hüznlə başsağlığı verirlər.**

***XQ***

## Sosial xəbərlər

### Qayıdış ünvanlarında məşğulluq imkanları

**Böyük Qayıdış proqramı çərçivəsində işğaldan azad olunan ərazilərimizə köçürülənlər üçün məşğulluq imkanlarının yaradılması məqsədilə əlavə tədbirlər hazırlanır. Sosial tərəfdaşlarla işin gücləndirilməsi, işsiz şəxslərin peşə bacarıqlarının artırılması və yeni iş yerlərinin yaradılmasının təşviqi həmin tədbirlər sırasındadır.**

Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyində Dövlət Məşğulluq Agentliyinin fəaliyyəti ilə bağlı keçirilən infosessiyada bildirilib. Nazir Sahil Babayev Qarabağ və Şərqi Zəngəzurda sakinlərin sosial dəstək, həmçinin aktiv məşğulluq tədbirləri ilə əhatə olunmasının başlıca vəzifələrdən biri olduğunu vurğulayıb. Qeyd edib ki, işğaldan azad olunan ərazilərdə əlavə tədbirlərin icrası məşğulluq imkanlarının artırılmasına, dayanıqlı məskunlaşmaya xidmət edəcək.



İnfosessiyada özünüməşğulluq proqramının səmərəliliyinin artırılması məqsədilə klasterlərin təşkili və proqram üzrə istehsalat və xidmət zərfləri üzrə rəqəmsal monitorinqlərin keçirilməsi təklifləri müzakirə edilib.

İnfosessiyada agentliyin gördüyü işlər və qarşıda duran hədəflər müzakirə olunub.

### Kiçik təsərrüfatlar – böyük məqsədlər

**Dövlət Məşğulluq Agentliyi şəhid ailələri və müharibə veteranları üçün özünüməşğulluq proqramı çərçivəsində yaradılan kiçik təsərrüfatlara növbəti mediatur təşkil edib. Jurnalistlər bu dəfə Quba və Qusar rayonlarında şəhid ailələri və müharibə veteranları üçün qurulan kiçik təsərrüfatlarla tanış olublar.**

Onlara Vətən müharibəsində şəhid olmuş qəhrəmanlarımızın ailə üzvlərinin, müharibə veteranlarının sosial dəstəklə təminatı tədbirləri barədə məlumat verilib. Qeyd olunub ki, bu tədbirlər çərçivəsində postmüharibə dövründə şəhid ailələrinin üzvləri və müharibə iştirakçılarından ibarət 23 min 700 şəxsin məşğulluğu təmin edilib. Onlardan 11 min 800 nəfər üçün özünüməşğulluq proqramı çərçivəsində kiçik bizneslər yaradılıb. Həmin kateqoriyalara aid minədək şəxs isə peşə hazırlığı kurslarına cəlb edilib.

Vətən müharibəsi veteranı Mirsəlim Məmmədov özünüməşğulluq proqramı çərçivəsində avadanlıqlarla təmin olunaraq kiçik dərzi sexi yaradıb. Şəhid Murad İskəndərovun atası Əliağa İskəndərov və müharibə veteranı Rəcbər İsrafilov isə proqram üzrə aktivlərlə təmin edilərək aqroturizm və dönərxana biznesi qurublar.

Proqram iştirakçıları dövlətin dəstəyini hər zaman hiss etdiklərini, onların sosial müdafiəsinin gücləndirilməsi sahəsində aparılan işlərə, həmçinin təsərrüfatlarını yaratmaları üçün göstərilən dəstəyə görə dövlət başçısına minnətdarlıq ediblər.

### 36,4 min şəxsə əlillik təyin olunub

**Bu ilin yanvar–sentyabr ayları ərzində Dövlət Tibbi-Sosial Ekspertiza və Reabilitasiya Agentliyi 36 min 400 şəxsə əlillik təyin edib. Onlardan 18 min 300-ünə ilkin, 18 min 100 nəfərinə isə təkrar əlillik təyinatı aparılıb.**

Əlillik təyinatından sonra e-sistem üzərindən həmin şəxslərə əlilliyə görə proaktiv qaydada sosial ödənişlər (pensiya, müavinət, təqaüd) təyin olunub.

### 489 hərbçiyə 598 protez

**Müharibə ilə əlaqədar əlil olan şəxslərlə bağlı həyata keçirilən sosial dəstək tədbirlərinin bir istiqaməti də həmin şəxslərin yüksək texnologiyalı son nəsil protezlərlə təmin edilməsidir.**

Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi I və II Qarabağ müharibəsi ilə əlaqədar əlilliyi olan 489 hərbçiyə 598 son nəsil protezlə təmin edib. Ötən ildən Vətən müharibəsi iştirakçılarının müasir idman protezləri ilə təminatı da həyata keçirilir. Yüksək texnologiyalı protezlər aktivlik və funksionallığı ilə seçilir və istifadəçiyə sərbəst, sabit, inamlı hərəkət, sosial həyata daha tez və rahat inteqrasiya, hətta idmanla məşğul olaraq yarışlarda iştirak imkanı verir.




***Z.BAYRAM***
***XQ***

**Sumqayıt – 75**

# Gənclik şəhərində təhsil innovasiyaları

**Gələn ay Sumqayıta şəhər adı verilməsinin 75 illiyi tamam olur. Gənclik şəhəri adı ilə tanınan və getdikcə cavanlaşan Sumqayıt artıq yubiley abhavası ilə yaşayır. Küçə, prospekt, park və meydanlar indidən bayramsayağı bəzədilib. Şəhərin əlvan işıq effektləri axşamlar göz oxşayır.**

Ayrı-ayrı sahələrdə qazanılan nailiyyətlər məhz bu yubileyə həsr edilir. Şəhər təhsil sisteminin uğurları daha nəzərəçarpandır. Sumqayıt hər zaman bu sahədə öncüllüyü ilə seçilib. Şəhərdə təhsilin maddi-texniki bazası durmadan genişlənir. Yeni məktəblər tikilir, köhnələri təmir olunur. Bütün təhsil ocaqları hər cür müasir texniki tədris avadanlığı ilə təchiz edilib. Bu isə təhsilin keyfiyyətini yüksəldən vacib amildir.

## Xatirə cığırları

Qəzetimizdə Sumqayıtın 75 illiyinə şəhər təhsil ocaqlarının töhfələri barədə yazmaq təklifi ürəyimdən oldu. Çünki mən özüm də Sumqayıt təhsilinin yetirmələrindənəm. Düz 60 il əvvəl ilk dəfə bu şəhərdəki 9 nömrəli məktəbin 1-ci sinif şagirdi olmuşam. O vaxtlar yaşadığımız İnşaatçılar qəsəbəsindəki evimizdən bir əlimdə çanta, digərində mürəkkəbqabı və perolu qələm tutaraq dərsə getmiş, adını hörmətlə xatırladığım Zəkiyyə müəllimdən əlifba, hesab öyrənmişəm.

Həmin gün çoxsaylı elmi-publisistik, metodiki məqalənin, 41 kitabın, 10 dram





əsərinin müəllifi olan tanınmış pedaqoq, Qabaqcıl təhsil işçisi Əvəz Mahmud Lələdağla görüşdüm.

– Sumqayıta ötən əsrin 50-ci illərindən, yəni tələbəlik dövrümdən gəlib-gedirdim, – deyə bildirdi. – Dayılarım burada baraklarda qalırdılar. Artıq 54 ildir ki, sərasər ürəkdən vurulduğum, cazibəsinə heyran olduğum, qocaldıqca cavanlaşan Sumqayıtda yaşayıram.

Uzun illər Sumqayıtın təhsil sistemində çalışmış, məktəb direktoru olmuş, lap bu günlərə qədər isə SDU-da dərs demişəm. Yetirmələrimin böyük bir qismi indi Sumqayıtın adını ucaldanların sırasındadır.

Hazırda, şəhərimizdə 43 tam orta ümumtəhsil məktəbi, 4 yeni tipli məktəb – 3 lisey, 1 gimnaziya, 3 internat, 4 məktəbdənkənar-tərbiyə müəssisəsi, 56 məktəbəqədər tərbiyə müəssisəsi, 4 peşə liseyi, 1 universitet - SDU, 4 kollec fəaliyyət göstərir. Milli təhsilimizin flaqmanı indi də uğurları davam etdirir.

Filoloq-şair Ofelya Babayeva da Sumqayıtın təhsil kapitanlarından olub. Bu gün də o, ictimai fəallığı ilə seçilir. Özü demişkən, ömrünün 45 ili ömürlərə calanıb, məktəb, maarif odunda qalanıb. "Şöhrət" ordenli Əməkdar müəllim, Prezidentin fərdi təqaüdçüsüdür. Sumqayıtın ilk xanım şairi kimi şəhərdə hörmət-izzət sahibidir. Elə söhbətinə də qafiyəli bir cümlə ilə başladı:

– Sumqayıt həmrəylik, birlik, həm də bilik şəhəridir. Sumqayıtın 25 illiyində mənə Ulu öndər Heydər Əliyevin qarşısında həm Sumqayıt gəncləri, həm də müəllimlər adından, 70 illiyində isə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin qarşısında şəhərimizin veteranı kimi danışmaq nəsib olub.

Mən orta təhsilimi Sumqayıtdakı 13 nömrəli məktəbdə almışam. 1971-ci ildə Universiteti bitirdikdən sonra öz doğma məktəbimə müəllim kimi qayıtdım. Anam qədər sevdiyim müəllimim Xeyransa Verdiyevanın qayğısı ilə irəlilədim. O zaman Sumqayıt təhsilində İrina Stark, Baxşalı Yeqanov, Nazim Əhmədov, Mehdi Əliyev, Solmaz İbrahimova və Asif Cahangirov kimi fədakarlar çalışırdılar. Mənə məktəb direktorluğu etibar olundu, sonra şəhər təhsil şöbəsinə rəhbərlik etdim.

Onu da deyim ki, bu yaxınlarda Prezident İlham Əliyevin Xalq şairi, görkəmli ictimai xadim Nəbi Xəzrinin 100 illik yubileyinin qeyd edilməsi ilə bağlı imzaladığı sərəncam sumqayıtlıların da sevincinə səbəb oldu. Çünki Nəbi Xəzri Sumqayıtın fəxri vətəndaşıdır. Bu şəhər haqqında ilk monumental əsər olan "Sumqayıt səhifələri" poeması isə Azərbaycan ədəbiyyatına layiqli töhfədir.

## Bugünün uğurları

Sirr deyil ki, təhsilin səviyyəsini göstərən əsas barometr göstəricilərindən biri ali məktəblərə tələbə qəbuludur. Gənclik şəhəri bu il də həmin sahə üzrə üzrə ölkə 1-cisi olub. Sumqayıt məktəblərini 3879 şagird bitirib ki, onların da 2543 nəfəri, yəni 65,6 faizi tələbə adını qazanıb. İmtahan verənlərin 243 nəfəri 600 baldan, 88 nəfəri 650 baldan, 17 nəfəri isə 680 baldan yuxarı nəticəyə nail olub. Həqiqətən də, çox yüksək göstəricilərdir.

Sumqayıt şəhərinin rəhbərliyi təhsilə diqqəti prioritet sayır. Ötən ay buraxılış və qəbul imtahanlarında yüksək bal toplayan gənclərlə görüş xüsusilə yaddaqalan olub. Tələbələrə qiymətli xatirə hədiyyələri verilib. İcra başçısı ayrıca olaraq ali məktəblərə qəbul olunan şəhid övladları ilə də görüşüb, onlara uğurlar arzulayıb və mükafatlar təqdim edib. Bu günlərdə isə Zakir Fərəcov sağlamlıq imkanları məhdud uşaqlar üçün fəaliyyət göstərən xüsusi məktəbə gedib, eləcə də milli elmimizi xaricdə tanıdan SDU-nun professoru Şəfa Əliyevi yubileyi münasibətilə fəxri fərmanla təltif edib.

Gənclik şəhərinin tarixini yaşadan ən "qocaman" təhsil ocaqlarından biri olan indiki Təbiət Elmləri Təmayüllü Gimnaziya 1946–1947-ci tədris ilindən fəaliyyətə başlayıb. Onillərdir ki, uğurları davam edir. Bu il gimnaziyanın məzunlarının universitetlərə 100 faizlik qəbul nəticəsi Sumqayıtın 75 illik yubileyinə əsl töhfədir.

Digər təmayüllü məktəblər də nailiyyətləri ilə öyünə bilirlər. Nizami Gəncəvi adına Texniki və Təbiət Elmləri Liseyinin məzunu olan 39 nəfər də eyni uğura nail olub. Onlardan 35-i Azərbaycanda, 4-ü isə xarici ölkələrin nüfuzlu universitetlərində ali təhsil almağa başlayıb. Humanitar və Təbiət-Riyaziyyat Təmayüllü İstedad Liseyinin məzunları da hamılıqla tələbə adına layiq görülüblər, onların da 4-2 xaricdə təhsil almağa başlayıb. Kənan Gərayzadə DİM-in həm buraxılış, həm də ali məktəbə qəbulun nəticələrinə görə (690.2 bal) Prezident təqaüdçüləri siyahısına düşüb. Liseyin riyaziyyat müəllimi Pərviz Musayev Elm və Təhsil naziri tərəfindən səmərəli pedaqoji fəaliyyətinə görə təltif edilib. Yayda Dubayda keçirilən FİSO Beynəlxalq Olimpiadasının qlobal mərhələsində bu liseyin 10 şagirdi medallar qazanıb.

Bütöv siniflərin maksimum nəticə ilə sevindiyi ümumtəhsil məktəbləri də az de-





yil. Yusif Məmmədəliyev adına 31 nömrəli tam orta məktəb də qəbul sayına görə 100 faiz nəticəyə nail olub: bu təhsil ocağını bitirən 111 məzunun hamısı tələbə adını qazanıb. Eyni nəticəni 28 nömrəli məktəbin məzunları təkrarlayıblar. Buranı 117 şagird bitirib, 86 nəfər tələbə adını qazanıb ki, onlardan da 60 nəfəri 3 eyni sinfin bütün məzunudur.

## Vətənpərvərlik tərbiyəsi əsasdır

Gənclik şəhəri öz igidları ilə fəxr edir. Xatırladaq ki, 3 il öncə Bakıda Anım Gününə həsr olunan yürüşdə dövlətimizin başçısı məhz Sumqayıtdakı 14 nömrəli məktəbin məzunu olmuş XTQ baş leytenantı, Vətən Müharibəsi Qəhrəmanı Adil İbrahimlinin fotosu əks olunmuş plakatı qaldırıb. Tovuz döyüşlərində həlak olan Milli Qəhrəman, general Polad Həşimov indi onun adını daşıyan öncül məktəbin şagirdi olub. Elə bu məktəbin ərazisinə çathaçatda "Azərbaycan əsgəri" mahnısının sədalarını eşitdim. Meydanda hərbi geyimli şagirdlər hazırlıq məşğələsi keçirdilər. Bir qədər onlara baxandan sonra məktəbin həyətinə keçdim. Oraya toplaşmış bir qrup idmançı şagird İlham Zəkiyevi alqışlarla yola salırdı. Sən demə, ikiqat Paralimpiya Oyunları çempionu , "Paris-2024" Yay Paralimpiya Oyunlarının bürünc medalçısı, ikiqat dünya çempionu və səkkizqat Avropa çempionu, Əməkdar idman ustası, Əməkdar məşqçi, 7-ci dan sahibi, Qarabağ müharibəsi əlili, "Şöhrət" və hər üç dərəcədən "Vətənə xidmətə görə" ordenli İlhamla görüş təşkil edilibmiş. Əlbəttə, Polad Həşimovun adını daşıyan məktəbdə belə bir vətənpərvərlik ortamının hökm sürməsi təbii idi.

Direktor Araslan Rzayev söhbətimiz zamanı bu amilə ciddi fikir verildiyini vurğuladı və sonra da yubileyə məktəbin töhfələrindən danışaraq dedi:

– Bu il 14 məzunumuz fərqlənmə attestatı alıb. Nurəddin Fərzəliyev (665), Gülbəs Kərimova (657), Məryəm Ağaxanova (646), Aytac Hətəmova (636), Nigar Həsənova (627), Nüsrət Ağazadə (632) və Hüseyn Əliyevdir (612) yüksək balla tələbə olublar. Bu, pedaqoji kollektivimizi ürəkdən sevindirir. Fəxr edirik ki, Sumqayıtın 75 illiyini belə nailiyyətlə qarşılayırıq.

Həmsöhbətimə uğurlar diləyib, ayrıldım. Sonra 2 nömrəli tam orta məktəbə üz tutdum. İşə baxın ki, bu məktəbə də yaxınlaşanda hərbi marş sədalarının ətrafa yayıldığının şahidi oldum. Orada keçirilən hərbi hazırlıq dərsinə valideynlər, ətrafda yaşayan sakinlər də maraqla baxırdılar. Açıq havadakı məşğələdən fotolar çəkmək fürsətini qaçırmadım. Bu yaraşıqlı təhsil ocağı Saleh Nuriyev adına küçənin tinində yerləşir. Cəmi 18 il yaşamış şəhidin xatirəsinə yaradılmış lövhədə yazılanları dəftərçəmə qeyd etdim: "Saleh Nuriyev 18 oktyabr 2020-ci ildə Cəbrayıl rayonunun Hovuslu kəndi uğrunda döyüşlərdə şəhid olub". – Yəni, bu gün onun anım günü imiş.

Bütün bunlar təsadüfdürmü, bilmirəm. Direktor Xalid Adıgözəlova söylədim ki, böyük Zəfərlə başa çatmış 44 günlük Vətən müharibəsinin 4-cü ildönümü günlərində məktəblərdə ard-arda vətənpərvərlik ovqatı müşahidə edirəm. O deyəndə ki, rəhbərlik etdiyi məktəbin məzunu Natiq Quliyev də şəhidlik zirvəsinə ucalanlardandır, bir daha qürur hissi keçirdim.

Bu məktəbin hazırkı şagirdləri də öz uğurlarını yubileyə həsr edirlər. Məsələn, məktəbimizin 8-ci sinif şagirdi Həsən Osmanov Bolqarıstanda karate üzrə dünya çempionatında həmyaşıdları arasında I yeri tutub, 6-cı sinif şagirdi Mahirə Mirzəyeva Respublika Uşaq Rəsm Yaradıcılıq Turnirində sertifikat əldə edib, 5-ci sinif şagirdi Leyla Həşimzadə Qazaxıstan və Azərbaycanın birgə təşkilatçılığı ilə Bakıda təşkil olunan fortepiano üzrə İnternational Grand Festival müsabiqəsində 2-ci yerə layiq görülüb, 4-cü sinif şagirdi Zəhra Piriyeva isə dogma şəhərin 75 illiyi münasibətilə keçirilən "Miniatür Sumqayıt" müsabiqəsində fəal iştirakına görə Dövlət Rəsm Qalereyasının fəxri fərmanı ilə təltif edilib.

Gənclik şəhərindəki 12 nömrəli məktəbin yetirmələrinin də uğur hekayələri sevindiricidir. Təhsil ocağının direktoru Reyhan Baxşiyevanın dediyinə görə, ötən dərs ilində 108 məzundan 85-i tələbə adı qazanıb, 7 nəfər 600 baldan, onların 6-sı 650 baldan yuxarı nəticə göstərib. Özü də 2 sinif hamılıqla 100 faizlik nəticəyə nail olub. Aydan Əhmədzadə, Sultan Şirinov, Şəms Zəkizadə, Şamil Kərim, Pünar Cəfərova, Mirzə Mirzəyev müəllimlərinin etimadını layiqincə doğrulda biliblər. Şagirdlərin yüksək bilik əldə etmələri üçün var qüvvələri ilə çalışan pedaqoqlar Sevda Nəsirova, Zülfiyyə Novruzova, Natəvan Paşayeva, Leyli Zeynalova və başqaları gənclərə açıq zehin, dərin bilik aşıladıqlarına və zəhmətləri hədər getmədiyinə görə sonsuz fərəh hissi keçirirlər.

Bu məktəbdə çeşidli inkişaf layihələri həyata keçirilir. Artıq 5 ildir ki, icma əsaslı məktəbəqədər layihə özünü doğruldur. Peşə təmayüllü siniflərdə həftədə 2 dəfə kompüter təmirçisi, aşpaz və dərzi köməkçisi peşələrinin sirləri öyrədilir. Ölkəmizdə ilk dəfə 20 məktəbdə proqramlaşdırma təlimləri tətbiq edilib ki, bu təhsil ocağı da həmin sıradadır. Şagirdlərin informatika təmayüllü rəqəmsal bacarıqları onların gələcəkdə bilikli mütəxəssis olacaqlarından xəbər verir. Eyni zamanda, 12 nömrəli məktəb ötən dərs ilində ümumi təhsil müəssisələri üçün "Mikrosoft"un beynəlxalq STEM dərsləri üzrə layihə və problem əsaslı dəstək" adlı öyrədici videoçarxların hazırlanması üzrə qrant layihəsində qalib gəlib.

## Ali və orta ixtisas təhsili ocaqlarının nümunəsi

Onu da qeyd edək ki, gənclik şəhərindəki yeganə ali təhsil ocağında – Sumqayıt Dövlət Universitetində (SDU) də builki qəbulun nəticələri fərəhlidir. Rektor Rüfət Əzizovun bildirdiyinə görə, cari tədris ili üçün tələbə qəbulu nəticələri əvvəlki illə müqayisədə əhəmiyyətli dərəcədə yaxşılaşıb. Ümumilikdə, 1499 tələbə SDU-nun müxtəlif ixtisaslarına qəbul olub ki, bu da keçənilki 1374 tələbə ilə müqayisədə 9 faiz artım deməkdir. Bu il ən yüksək nəticə 633,2 bal olub, keçən il isə bu göstərici 551,9 bal idi.

Sumqayıt həm də xarici tələbələrin həvəslə gəlib, ali təhsil aldığı şəhərdir. Sumqayıt Dövlət Universitetində yeni təqaüd proqramı üzrə daha 100 əcnəbi bakalavr və magistr təhsil üçün şərait yaradılacaq. Gənclik şəhərinin yetirmələri də xaricdə təhsil almaq sahəsində fərqlənirlər. Hər il Avropanın ali məktəblərinə neçə-neçə sumqayıtlı gənc daxil olur. Elə bu yaxınlarda Milli Qəhrəman, general-mayor Polad Həşimovun oğlu Davud 4 xarici ölkədə yerləşən 7 universitetdən qəbul təklifi alıb.

1969-cu ildə Ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə yaradılmış Əziz Əliyev adına Sumqayıt Tibb Kolleci özünün 55 illik yubileyini yeni nailiyyətlərlə qeyd edir. Elə Ümummilli liderin adını daşıyan küçədə yerləşən və Səhiyyə Nazirliyinin tabeliyində olan bu orta ixtisas təhsili müəssisəsində tələbələrin müalicə işi, mamalıq, əczaçılıq və tibb bacısı ixtisaslarına yiyələnmələri üçün hər cür şərait yaradılıb. Kollecə tibb elmləri doktoru, Əməkdar həkim olan Rəfayıl Eyvazov bacarıqla rəhbərlik edir, bura şəhər səhiyyə sistemində kadr potensialının gücləndirilməsinə mühüm töhfələr verən layiqli bir ünvandır. Hazırda Sumqayıtın tibb müəssisələrində kollecin 2 minə qədər məzunu fəaliyyət göstərir.

Orta ixtisaslı ağxalatlılar yetişdirən kollecin kollektivi Sumqayıtın ictimai həyatında fəal iştirakı ilə daim seçilir. Gələcək tibb işçiləri hazırda doğma şəhərin 75 illik yubiley tədbirlərinə ciddi hazırlaşırlar. Tələbələrin vətənpərvərlik ruhunda tərbiyəsinə də burada böyük önəm verilir. Bir müddət öncə Vətən müharibəsi qəhrəmanları Mehrab Niftəliyev və Sübhan Cəbrayılovun xatirə lövhəsinin açılışında mən də iştirak etmiş, şəhid ruhlarına necə böyük ehtiramla yanaşıldığının şahidi olmuşam. Bu cür tədbirlər həm də gənclər üçün motivasiya mənbəyidir. Yubilyar təhsil ocağı yubilyar şəhərin adını hər zaman beləcə ucaldır.

## Beynəlxalq müsabiqənin sumqayıtlı finalçısı

Gənclik şəhərində təhsil uğurları ilə bağlı material toplayarkən öyrəndiyim ən son məlumat bu oldu ki, İsmət Qayıbov adına 1 nömrəli tam orta məktəbdə fizika və STEAM fənnini tədris edən müəllim Aliyə Əhmədova Avropa şəbəkəsinə qoşularaq, "European Schoolnet Academy"nin "Scientix" mükafatı"na layiq görülüb. O, ən müasir tədris vasitələrini, süni intellekt alətlərini müsabiqədə bacarıqla tətbiq edib və 4 qalibdən biri kimi, son mərhələsi Azərbaycanda təşkil ediləcək yarışmanın finalında ölkəmizi təmsil edəcək.

O bildirib ki, uğurunun bir sirri haradansa, kimdənsə fikirləri yox, təşkilat komitəsinin yaydığı meyarları mənimsəyib, sonra bu istiqamətdə işə başlamasıdır. Bu düzgün yanaşma sayəsində Respublika Elektron Təhsil Müsabiqəsinin "Müəllim bloqu" nominasiyasında, "e-Twinning" layihəsi çərçivəsində "İnnovativ layihə" müsabiqəsinin tək qalibi olub. İndi də xoş bir həyəcanla nəticəni gözləyir.

Ötən ayın sonunda Polşanın Belostok şəhərinin meri Tadeuş Truskolyaski növbəti dəfə gənclik şəhərinin qonağı idi. Bir il əvvəl isə Polşanın Təhsil Sisteminin İnkişafı Fondunun nümayəndə heyəti Sumqayıta səfər edib. Müzakirələr zamanı gənclərin, region könüllülərinin Avropa layihələrində iştirak imkanları və region gənclərinin beynəlxalq səviyyədə təmsilçiliyinə dair fikir mübadiləsi aparılıb. Daha öncə Sumqayıtda fəaliyyət göstərən "Headway Education" xaricdə təhsil mərkəzi Polşa universitetlərində təhsil almaq istəyənlər üçün seminar keçirib. Qeyd edək ki, 2 il müddətində Sumqayıtdan seçilmiş gənclərə Avropa üzrə İttifaqının gənclər proqramlarında iştirak imkanları yaradılacaq və daha çox gəncin cəlb edilməsi üçün layihələr üzərində çalışmalar aparılacaq.

Bəli, Sumqayıt sabaha inamla boylanır. İnanırıq ki, 75 yaşlı gənclik şəhəri həmişə olduğu kimi, dinamik inkişaf edəcək və ölkəmizin parlaq gələcəyinə töhfələrini daha da artıracaq.

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***






# Qərbi Azərbaycanın ünlü təhsil ocağı



**Azərbaycan Dövlət Pedaqoji Universitetində İrəvan Azərbaycan Pedaqoji Texnikumunun 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib. Məclisdə elmi ictimaiyyətin nümayəndələri, Milli Məclisin deputatları, ali məktəblərin professor və müəllim heyəti, tanınmış ziyalılar iştirak ediblər.**



Konfransı ADPU-nin beynəlxalq əlaqələr üzrə prorektoru, filologiya elmləri doktoru, professor Mahirə Hüseynova açaraq 1924–1948-ci illərdə İrəvanda bu təhsil ocağının Azərbaycan dilində fəaliyyət göstərən təhsil müəssisələrimiz üçün müstəsna xidmətlərindən danışıb.

O, təsisçisi və baş redaktoru olduğu “Yurdun səsi” qəzetinin ilk nömrəsinin çapdan çıxmasını da sevinc hissilə qeyd edərək vurğulayıb ki, bu nəşrin amalı Qərbi Azərbaycana qayıdışın ruporuna çevrilməkdir.

ADPU-nun rektoru, professor Cəfər Cəfərov rəhbərlik etdiyi ali məktəbdə “Qərbi Azərbaycan Araşdırmalar Mərkəzi”nin səmərəli fəaliyyətini yüksək qiymətləndirərək bildirib ki, burada qiymətli elmi araşdırmalar aparılır.

Sonra məruzələr dinlənilib. Milli Məclisin deputatları Məlahət İbrahimqızı, Hikmət Babaoğlu, Ramin Həsənov, Səyyad Aran, akademik Abel Məhərrəmov, tarix üzrə fəlsəfə doktoru Leyla Cəlalova, iqtisad elmləri doktorları Vahid Novruzov, Əvəz Ələkbərov və başqaları çıxış edərək İrəvanda vaxtilə təhsil alan yaxın və doğmaları barədə xatirələrini danışıblar.

Konfransda sərgilənən İrəvan Azərbaycan Pedaqoji Texnikumunun 100 illik yubileyinə həsr olunmuş foto-stend və Qərbi Azərbaycanın mədəni irsini tədqiq edən kitablar iştirakçılarda böyük maraq doğurub. Onlara “Tarixi təhsil ocağı: İrəvan Azərbaycanlı Pedaqoji Məktəbi” kitabı hədiyyə edilib.

***Kəmalə ABDİNOVA,***
***Elşən AĞALAROV (foto),***
***XQ***

Füzuli – 530

# Şirvanda dahi şairə ehtiram

**Şirvan şəhərində dahi Azərbaycan şairi Məhəmməd Füzulinin anadan olmasının 530 illik yubileyinə həsr olunmuş “Füzuli dünyasından dünyaya baxış” adlı ədəbi-bədii məclis keçirilib.**



Şəhər İcra Hakimiyyətinin başçısı İlqar Abbasov, ictimaiyyət nümayəndələri, qonaqlar, məktəblilər M.Füzuli adına Mədəniyyət və İstirahət Parkında dahi şairin büstünü ziyarət edərək, abidənin önünə tər gül dəstələri düzüblər.

Sonra Şirvan Dövlət Rəsm Qalereyasının təşkil etdiyi Məhəmməd Füzuli yaradıcılığına həsr olunmuş rəsm sərgisinə baxış keçirilib. Şirvan Mədəniyyət Mərkəzində davam edən mərasimdə şəhərin mədəniyyət müəssisələri nümayəndələrinin və məktəblilərin ifasında ölməz Füzuli yaradıcılığından nümunələr səsləndirilib, “Meyvələrin söhbəti” kompozisiyası təqdim olunub, şairin qəzəlləri əsasında muğam parçaları ifa edilib.

Yubiley məclisinin davamında Məhəmməd Füzulinin həyat və yaradıcılığından bəhs olunub, onun əsərlərinin təkcə ölkəmizin deyil, bütövlükdə Şərq və Dünya ədəbiyyatı üçün əhəmiyyəti vurğulanıb.

***Fidan SALMANOVA***
***XQ***

Xatirələrdə yaşayanlar

# O, bir qazi nümunəsi idi...

## *“Biz qan görəndə qorxmuyoruz, “nabarot”, qızışıyoruz”*

**Elə bu oktyabr günlərindən biri idi, hava da nisbətən soyuq. ”Xan bağı”nda çinarlardan ara-sıra tökülən quru yarpaqlar ətrafa səpələnir, sanki bir qədər də büzüşür, ayaqlar altında qalıb xışıldayırdı...**




–Bax, insan da belədir. Həyatdan nə vaxt ayrılacağını özü bilmir. Bir də gördün səssiz-səmirsiz bu yarpaqlar kimi üzülüb düşdü və ...

Bayaqdan mənimlə yanaşı, sakit, asta yerişlə az qala parkı dörd dolandığım Tariyel Şahverdiyev bu sözləri deyib susdu və sonra da sanki mövzunu yayındırmaq üçün başını yuxarı qaldırıb uca çinara baxdı, “görəsən, bunun neçə yaşı var?” dedi.

Bu dəfə sualını mən cavabsız buraxdım, “yenə nə olub?”, – deyə əvvəlki sözünə işarə etdim. Baxışlarını yerdən çəkməyib “bilirsiniz, müəllim, axır vaxtlar ürəyimdəki bu zəhrimar məni yamanca incidir” dedi. Sonra da əlavə etdi ki, cərrahi əməliyyat zamanı ayağındakı, bədənindəki qəlpələrin hamısını çıxardılar, ona toxunmağa risk etmədilər, ürəyə çox yaxındır dedilər...



–Gedək bir çay içək...

Tezcə də razılaşdı. Parkın giriş tərəfindəki şüşəli çayxanada, küncdəki stollardan birində əyləşdik. İçəridə adam az idi. Cavan oğlan armudu stəkanlara çayımızı tələsik süzüb getdikdən sonra “heç indiyədək soruşmamışam, necə oldu ki, məni görən kimi tanıdın?” deyərək əhval-ruhiyyəsini bir qədər yaxşılaşdırmaq istədim.

Sualı verərkən onunla uzun illərdən sonra, yəni 2020-ci ildə, aradan az qala 30 il keçdikdən sonra yenidən görüşməyimi nəzərdə tuturdum. Oktyabrın 5-də, gündüz saatlarında Ermənistan tərəfi ikinci dəfə Gəncəni raket atəşinə tutmuş, bu dəfə əhalinin daha çox toplaşdığı sosial obyektləri hədəfə almışdı. Berd rayonu ərazisindən atılan raketlər Gəncə Beynəlxalq Xəstəxanasının, 34 saylı orta məktəbin, Şah İsmayıl Xətai küçəsində yerləşən mebel fabrikinin yaxınlığına, “Yevlax avtovağzalı” kimi tanınan əraziyə və Mərkəzi bazara düşmüşdü. Nəticədə 3 nəfər mülki şəxs müxtəlif dərəcəli bədən xəsarətləri alaraq xəstəxanaya yerləşdirilmiş, şəhərin infrastrukturuna külli miqdarda ziyan dəymişdi.

Həmin vaxt dostları ilə şəhərdə gəzişən Tariyel Şahverdiyev dəhşətli gurultunu eşidən kimi bazara tərəf qaçmışdılar, yaralanan, mağazalarına, mallarına ziyan dəyən adamlara kömək göstərməyə başlamışdılar. Elə Tariyeli də bütün ölkəyə tanıdan ondan müsahibə alan “TRT- Haber” kanalının müxbirinə dedikləri olmuşdu: “Gəncə əhalisi, ümumiyyətlə, Azərbaycan əhalisi, qan görəndə qorxmuyor, “nabarot”, qan görəndə qızışıyor”. Yəni bu qədər sadə və bütün Azərbaycan əhalisinin o ağır günlərdə yumoruna, eyni zamanda ruh yüksəkliyinə səbəb olan üç dildə bir cümlə.

...Həmin gün raket düşdüyü yerlərə gedə bilməmişdim. Ertəsi gün, oktyabrın 6-da “Təzə bazar”a getdim. Baxdım ki, axşam televiziya kanalına müsahibə verən kişi də buradadır. Ətrafına da xeyli adam toplaşıb. Artıq onu hamı tanıyırdı. Mən də yaxınlaşdım. Başı qarışmışdı. Birdən diqqətlə üzümə baxıb “Biz sizinlə 1991-ci ildə “Çaykənd əməliyyatı” zamanı Hackənddəki “Beş ulduz” təpəliyində bir neçə dəfə görüşmüşük. Axşamlar oradakı qərargaha gəlirdiniz. Siz də qəzetə hər gün ermənilərə qarşı keçirdiyimiz döyüş əməliyyatlarından “Kommunist” (indiki “Xalq qəzeti” o zaman belə adlanırdı-H.Q) qəzetinə xəbərlər verirdiniz, biz də ertəsi gün onları həvəslə oxuyurduq”.

Donub qalmışdım. Bu ki, o zaman şəhər komsomol komitəsində işləyən, Bakı Dövlət Universitetinin hüquq fakültəsində təhsilini yarımçıq qoyub könüllü şəkildə cəbhəyə yollanan Tariyel idi! 1991-ci il aprel ayının 30-da Göygöl rayonunun (keçmiş Xanlar) Çaykənd kəndinin erməni işğalçılarından azad edilməsi ilə əlaqədar antiterror əməliyyatlarında OMON-un tərkibində “Gəncə” taboruna rəhbərlik edirdi. Əməliyyatın adı da yadıma düşdü, “Halqa”. Mayın 4-də uğurla tamamlanan “Çaykənd əməliyyatı” antiterror məqsədli, yəni sözügedən ərazidə yerləşən erməni separatçılarının təmizlənməsi niyyəti ilə keçirilirdi. Pasport rejiminin yoxlanılması xarakterli əməliyyatda qeyri-qanuni yollarla Azərbaycana gələrək Çaykənddə məskunlaşmış terrorçular, axtarışda olan cinayətkarlar tərksilah edilmiş, zərərsizləşdirilmişdi...

Sonralar Tariyeli görmürdüm. Amma bir neçə il sonra eşitdim ki, yenə Ağdam, Kəlbəcər istqamətində döyüşlərdə iştirak edib və ermənilərin atdıqları snayper gülləsinə tuş gəlib və qəlpələr ayağına, bədəninin müxtəlif yerlərinə dolub. Əməliyyat zamanı cərrahlar qəlpələrin hamısını təmizləsələr də, ürəyə yaxın yerdə olan qəlpəni götürməyə cəsarət etməyiblər və elə o vaxtdan da onu bədənində gəzdirir.

...Sualım deyəsən gözlənilməz olmuşdu. Bir qədər ara verib “necə oldu ki, sizi görən kimi tanıdım?”, – deyə sualımı təkrar elədi. Sonra da astaca “ora kim gəlirdi, hamısının sifəti, xüsusilə gözləri yadımda qalırdı. Sevinirdim ki, heç kim bizə qarşı laqeyd deyil, elə siz də”.

Çay içə-içə xeyli söhbət etdik. Dedi ki, mən xalqımın qorxmazlığını, mübarizliyini göstərmək üçün Türkiyə jurnalistinə o sözləri dedim. Ertəsi gün telefonum susmurdu. Hansısa televiziya kanalından bir qız zəng edib, “Tariyel müəllim, siz nə etmisiniz, bütün Azərbaycanı ayağa qaldırmısınız” deyəndə, düzü, çaşdım, “qızım mən nə etmişəm ki?”, – deyə günahkar adamlar kimi cavab vermişdim.

Mən həmin cümləni Gəncə sakinlərinin, Azərbaycan xalqının adından söyləmişdim. Bu xalq heç vaxt qorxan xalq olmayıb. Mərd, qəhrəman xalq olub. Özünüz fikirləşin, son 30 il ərzində nə üərkdən sevinən, nə bir gülən olub. Gəncə Cavad xanın vətənidir. Gəncəlilər də onun kimi mərd, dəyanətlidir. Gəncənin tarixi hər kəsə bəllidir, amma mən ayrı-seçkilik etsəm, günah işlətmiş olaram. Azərbaycan xalqı, bütövlükdə, çox dəyanətlidir, dözümlü, hər şeyə yerində qiymət verən, qəhrəman xalqdır. O 44 gün bunu bir daha təsdiq etdi.

– O ki, qaldı bayaq yerə düşən quru yarpaqlarla bağlı dediyimə, fikir verməyin, sadəcə, son günlər görürəm ki, yatarkən mənə deyir “qalx, vaxtdır gedək”.

Gördüm ki, Tariyel sağlamlığı ilə bağlı ciddi bir məsələni də yumorla qarşılayır, dözə bilmədim, “yox, belə də olmaz axı, o qədər yaxşı həkimlərimiz var ki... məsləhətləşmək lazımdır” dedim.

...Qarşmda 2022-ci ildə, “facebook” səhifəmdə ürəkağrısı ilə paylaşdığım bir status var, siz də tanış olun: “Birinci Qarabağ müharibəsi qazisi, ürəyinin başında qəlpə gəzdirən, lakin bir dəfə də olsun “uf” deməyən, həmişə ədəb-ərkan gözləyən, düşmənlə üzbəüz dayanıb onların neçəsinin axırına çıxmağından heç vaxt danışıb öyünməyən, lovğalıq etməyən “Gəncə” taborunun komanduri Tariyel Şahverdiyev səssiz-səmirsiz bu dünya ilə vidalaşdı. Qalan xoş xatirələri, bir də şirin söhbətləri oldu. O ağır günlərdə dediyi “Azərbaycan əhalisi qan görəndə qorxmuyor, nabarot, qızışıyor” sözləri ilə nəinki Gəncəni, bütöv Azərbaycanı bir növ sakitləşdirdi, üzümüzə təbəssüm qondurdu, qorxmaz, döyüşkən olduğumuzu bütün dünyaya bəyan etdi.

Dünən kaş eşidəydiniz döyüş yoldaşları onun dəfnində nələr danışdılar. Birinin dediyi cümlə isə xüsusilə yadımda qalıb: “O bir qazi nümunəsi idi...”

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 229 (30633) 18 oktyabr 2024-cü il, cümə

XQ-nin qonaqları

# Qoca dünyanın qocalmayan sərvəti

## *Kitab satışı adi ticarət deyil, mənəvi missiyadır*

**Bu gün ölkəmizdə kitab nəşri və satışı sahəsində xeyli irəliləyiş əldə olunub. Bu, həm də cəmiyyətimizdə kitaba marağın artması ilə izah olunur. Amma internet resurslarının inkişafını əsas gətirərək bunun əksini düşünənlər də var. Bəs bu sahədə reallıq necədir? Cəmiyyətimizdə kitaba maraq artıbmı, yoxsa azalıbmı? Şəhərimizin böyük kitab mərkəzlərinin burada rolu nədən ibarətdir?**



**Xalq TV-nin "Özümüz, sözümüz" buraxılışında budəfəki suallarımızı Bakı Kitab Mərkəzinin direktoru, yazıçı-publisist Günel Anarqızı cavablandırdı.**

**– Günel xanım, artıq bir neçə ildir ki, şəhərimizdə Bakı Kitab Mərkəzi kimi orijinal görünüşə, nəfis tərtibatlarla bir neçə dildə çap olunan kitabların olduğu bir məkana rəhbərlik edirsiniz. Kənardan asan görünə bilər, amma bunu siz daha yaxşı bilərsiniz. Böyük bir kitab mərkəzini idarə etmək asandır, yoxsa çətin?**

– Məsuliyyətlidir, bu mərkəz təzə yarananda çox çətin idi. Mərkəzin ideyası da, həyata keçirilməsi də çox böyük zəhmət və məsuliyyət tələb edirdi. Çünki yeni bir yer idi. Bir çoxları tam olaraq anlamırdılar ki, bura satış mərkəzidir, yoxsa kitabxana. Hətta bəzi adamlar elə bilirdilər ki, bura biletlə daxil olmaq lazımdır. Belə gözəl bir yerə ödənişsiz daxil olmağı təsəvvür etmirdilər. Yəni bir sıra mərhələlərdən keçəsi olduq. İndinin özündə hərdən çətin məqamlar da olur. İstənilən satış mərkəzi daim fəaliyyətdədir. Biz də həftənin 7 günü işləyirik. Çünki buranın əsas məqsədi kitab satışıdır. Amma bununla belə bu mərkəzin bir sıra başqa maraqlı tərəfləri də var. Biz bu fəaliyyət istiqamətlərini inkişaf etdiririk. Bizim kitab mərkəzimizdə saysız-hesabsız tədbirlər həyata keçirilir, layihələr baş tutur. Yəni vahid orqanizm kimi daim yaşayır və daim yaşayan orqanizmə diqqət və qayğı lazımdır ki, biz də bunu təmin etməyə çalışırıq.

**– Deyirlər, kitab oxumaq vərdişi tənəzzülə doğru gedir. İnternet resursları elə inkişaf edib ki, insanlar planşetlərdən, mobil telefonlardan informasiyanı alır, hətta kitabları da oradan oxuyurlar. Bu barədə sizin fikriniz?**

– Mən belə deməzdim. Bizim mərkəzin timsalında deyə bilərəm ki, əksinə, kitaba, mütaliəyə həvəs artmışdır. İllərdir görürəm ki, bura maraq heç də azalmır, əksinə, çoxalır. Artıq 6 il əvvəl bura gələn balaca uşaqlar indi böyüyüblər, yenə gəlirlər. Çox insan məhz bu mərkəz vasitəsilə oxumaq vərdişi qazanıb. Artıq bir aludəçilik də yaranıb. İstənilən insan istənilən vaxt bu mərkəzə gələ və kitablardan istifadə edə bilər. Biz də hər zaman o şəraiti yaradanda görürük ki, insanlara daha maraqlı olur və hər dəfə yeni dostları ilə gəlirlər. Mənim üçün də bu, çox vacib bir cəhətdir. Mərkəz təkcə foto çəkdirmək üçün bir məkan deyil. Halbuki çox gözəldir, qeyri-adi interyeri, dizaynı var. İnsanlar buranın gözəlliyinə də valeh olurlar. Bir sözlə fərqli bir məkandır. Əlbəttə, insanlar məhz buna görə gəlirlər. Bu səmimi mühiti yarada bilmişik.

Bilirsiniz ki, bu mərkəzin yaradılması təşəbbüsü Birinci vitse-prezident Mehriban xanım Əliyevadan gəlib. Bu onun nəcib ideyası əsasında yaradılan yerdir. Çünki niyyət, məram gözəldir. Nəticə olaraq mərkəzə həm gənclər, həm də turistlər xüsusi maraq göstərirlər. Gəncləri, ümumiyyətlə, nəyəsə məcbur etmək olmaz və bu həm də çətindir. Bizim istədiyimiz də budur ki, gənclər özlərini burada fərqli aurada və rahat hiss etsinlər. Əsas məqsəd bundan ibarətdir. Ən azı deyəndə ki, mən Bakı Kitab Mərkəzinə gedirəm. Onda biz də rahat oluruq ki, deməli istədiyimiz məqsədə nail olmuşuq.

**– Bu il Bakıda X Bakı Beynəlxalq Kitab Sərgisi keçirildi. Səhv eləmirəmsə, sizin mərkəz də sərgidə təmsil olundu. Ümumiyyətlə, belə sərgilərin sayı son illər xeyli artıb. Bunu biznes kimi dəyərləndirənlər də var, mütaliə səviyyəsinin artması kimi düşünənlər də. Siz necə düşünürsünüz?**

–Əlbəttə, hər bir ölkə və cəmiyyət üçün belə sərgilərin, toplantıların olması zəruridir. Bu, onuncu sərgidir. Az deyil. Amma bu vaxtacan çox sərgilərdə olmuşdum. İstanbulda çox böyük kitab sərgiləri olur. Frankfurt şəhərində ucu-bucağı olmayan kitab sərgisi olur. Mən də istəyərdim, Azərbaycanda bu səviyyədə kitab sərgiləri olsun. Əlbəttə, biz hələ yeni addımlar atırıq bu sahədə. Amma hər il inkişaf gedir və qarşıda daha ciddi irəliləyişlər gözlənilir. Əvvəllər əgər belə sərgilər kiçik zallarda olurdusa, indi Ekspo Mərkəzdə həyata keçirilir. Bu, çox böyük məkandır və sərgilərin orada keçirilməsi mühüm məsələdir.

**– Həm də orada kitablar endirimlərlə təqdim olunur. Doğrudur, bu, biznes amili sayılsa da, nəticədə mütaliə səviyyəsinin artmasına xidmət edir.**

– Əlbəttə, burada biznesdən savayı həm də mübadilə var. Hər bir iştirakçı öz təcrübəsini də bölüşür. Orada xaricdən gələn qonaqlar da olur. Həmin o nəşriyyat evləri, ədəbiyyatla bağlı olan qurumların bir-birini tanıması çox vacibdir. Və sərgilərin əsas məqsədlərindən biri də budur.

**– Bu il Türk – Azərbaycan ədəbiyyatının dahi nümayəndəsi Məhəmməd Füzulinin 530-cu ildönümüdür. Bu barədə cənab Prezidentin sərəncamı var. Mərkəzin yubileylə bağlı hər hansı bir planı varmı?**

– Əlbəttə,biz də hazırlaşırıq, bu məsələ ilə bağlı tədbirlər keçiririk və keçirəcəyik. Bizdə, əslində, planlı şəkildə hansısa yaradıcılıq gecələri və kitab təqdimatları olur. Lakin mərkəzin özünə aid tədbirləri isə əlbəttə, özümüz planlaşdırırıq. Yaxın gələcəkdə belə tədbirlər silsiləsinin olması planlaşdırılır.

**– Ötən ay Türk Dövlətləri Təşkilatı tərəfindən 34 hərfli ortaq türk əlfbası qəbul edildi. Bu ümumtürk inteqrasiya prosesinə böyük töhfə oldu. Bir tükoloq kimi, buna münasibətinizi öyrənmək bizə maraqlı olardı...**

– Əslində, bu söhbətlər uzun illər idi davam edirdi. Lakin müəyyən səbəblərdən bu alınmamışdı. Türk dünyası birliyi ideyası irəli sürülləndən bəri ortaq əlifba ideyası həmişə gündəmdə olub. Çox yaxşı qərardır. Bizim ortaq maraqlarımız, geosiyasi vəziyyət bizə diktə edir ki, bu təşəbbüs baş tutsun. Bu, çox doğru və vaxtında olan bir təşəbbüsdür.

**– Bəlkə, elə bir ilk sizdən gəlsin. Ümid edirik ki, bu əlifbayla çap olunan ilk kitabı da məhz Bakı Kitab Mərkəzi təqdim edər.**

– İnşallah, niyə də olmasın...

**– Günel xanım, yetərincə tanınmış bir ziyalı ailədə dünyaya göz açmısınız. Həm elmi, həm də ədəbi mühit sizi daim əhatə edib. Mühit də insanı yetişdirir, deyirlər. Bəs bu faktorlar sizin ədəbi fəaliyyətinizdə bir arxayınçılıq yaratmır ki?**

– Arxayınlıq bu mühitin sənə doğma, rahat mühit olmasından yarana bilər. Mən bu mühitin içində olmağıma görə indinin özündə də çox xoşbəxtəm. Xoşbəxtəm ki, uşaqlıqdan gördüyüm həyat tərzi indi də davam edir. Burada böyük Nazim Hikmətin bir fikrini yadıma düşmüşkən deyim: Xoşbəxt o adamdır ki, işdən evə tələsir, evdən də işə. Baxın mən həm evdə, həm də işdə özümü xoşbəxt, rahat hiss edirəm. Çünki bu mənim həyatımın mənası olduğuna görə özümü rahat və xoşbəxt hiss edirəm.

***Qələmə aldı:***
***Anar TURAN***
***XQ***

İdman xəbərləri

# Füzulidə qayıq yarışı

**Füzulinin işğaldan azad olunması günü ilə əlaqədar oktyabrın 17-də şəhərin Aşağı Köndələnçay su anbarında "Mingəçevir Reqatası-2024"ün rəsmi açılış mərasimi keçirilib.**

Ağdam, Füzuli və Xocavənd rayonlarında Azərbaycan Respublikası Prezidentinin xüsusi nümayəndəsi Emin Hüseynov işğaldan azad olunmuş ərazilərdə bu cür idman tədbirlərinin təşkilinin tarixi hadisə olduğunu bildirib. O, İkinci Qarabağ mü-



haribəsindən sonra Füzulidə Prezident İlham Əliyevin göstərişi ilə abadlıq işləri görüldüyünü vurğulayıb. E.Hüseynov yarışın keçirildiyi Aşağı Köndələnçay su anbarının Ümummilli Lider Heydər Əliyevin göstərişi və təşəbbüsü ilə 1980-ci illərin əvvəllərində inşa edildiyini xatırladıb.

Gənclər və idman naziri Fərid Qayıbov isə reqatanın əhəmiyyətindən danışıb və idmançılara uğurlar arzulayıb.

Yarışda Azərbaycan, Estoniya, Gürcüstan, İtaliya, Macarıstan, Qazaxıstan, Litva, Moldova, Polşa, Türkiyə, Ukrayna və Özbəkistandan 100-dək idmançı mübarizə aparır.

Oktyabrın 16-da Mingəçevirdə start götürən reqata dünən Aşağı Köndələnçay su anbarında davam edib. Yarış oktyabrın 18-də başa çatacaq.

# Boksçularımız Avropa yarımfinalında

**Azərbaycanın 4 boksçusu Bolqarıstanın paytaxtı Sofiyada keçirilən Avropa çempionatında yarımfinala yüksəlib.**




Komandamızın üzvləri Murad Allahverdiyev (80 kq), Marjona Savriyeva (50 kq), Tural Sarıyev (48 kq) və Nicat Hüseynov (51 kq) 1/2 finala adlamaqla ən azı bürünc medalı təmin ediblər.

***Leyla QURBANOVA***
***XQ***

# Qan təzyiqi pəhrizi

**Həkimlər hipertoniyadan əziyyət çəkən insanlar üçün xüsusi müalicəvi pəhriz tövsiyə edir. Hipertoniya xəstələri öz qidalanmasından yağlı, duzlu, qızardılmış, hisə verilmiş, duza qoyulmuş qidaları çıxarmalıdırlar. Məhz bu qidaların qəbulu təzyiqin artmasına səbəb olur.**

Hipertoniyadan əziyyət çəkən insanlar üçün ən faydalı məhsullar:

1. Balıq. Elmi araşdırmalar nəticəsində məlum oldu ki, balığın tez-tez qəbulu təzyiqin tənzimlənməsinə kömək edir. Balıq, təbii ki, suda və ya buğda bişirilməlidir, qızardılmış balıq yemək olmaz.
2. **Quru meyvələr:** kişmiş, ərik və qara gavalı qurusu.
3. **Süd məhsulları:** süd, qatıq, kəsmik, kefir, pendir (çox duzlu olmamalıdır).
4. **Meyvə və giləmeyvələr:** alma, banan, avokado, qara qarağat, itburnu, qarpız, kivi, limon, portağal, narıngi, qreypfrut.
5. **Tərəvəzlər:** sarımsaq, kələmin bütün növləri, bibər, xiyar, çuğundur, balqabaq, kök.
6. **Göyərti:** cəfəri, ispanaq, kərəviz.
7. **Qoz-fındıq:** araxis, badam.
8. **Sıyıqlar:** qarabaşaq, yulaf yarması.
9. **Paxlalı bitkilər:** noxud, lobya, mərci.

***Z.HÜSEYNLİ***
***XQ***

# Nəyi və necə oxuyaq?

**Azərbaycan Yazıçılar Birliyi Ədəbiyyat Fondunun və Mədəniyyət Nazirliyinin birgə təşkilatçılığı ilə Sumqayıt Poeziya Evində "Yeniyetmə və gənclərdə mütaliə mədəniyyətinin formalaşdırılması" layihəsi təqdim olunub.**

Mərasimdə Sumqayıt Dövlət Universitetinin Texniki Kollecinin, Sumqayıt Tibb və Musiqi kolleclərinin, Peşə Təhsil



Mərkəzinin tələbələri, 27, 33 və 34 nömrəli məktəblərin yuxarı sinif şagirdləri iştirak ediblər. Ədəbiyyat Fondunun baş direktoru Varis Yolçiyev bildirib ki, layihənin ilk mərhələsində yeniyetmə və gənclər üçün mütaliənin faydaları barədə yaddaş kitabı və "Sizin üçün seçdik" adlı müasir ədəbiyyat antologiyası nəşr edilib. İkinci mərhələdə ölkə şəhərlərində görüşlər keçirilir, mövzu ilə bağlı müzakirələr aparılır, sözügedən kitabların nüsxələri oxuculara hədiyyə edilir.

Sonra Prezident təqaüdçüsü, "Şöhrət" ordenli Əməkdar müəllim Ofelya Babayeva, AYB Poeziya sektorunun rəhbəri İbrahim İlyaslı, birliyin Sumqayıt bölməsinin sədri Gülnarə Cəmaləddin, Dünya Gənc Türk Yazarlar Birliyinin başqanı İntiqam Yaşar, filologiya üzrə fəlsəfə doktoru Aytən Qurbanlı yeniyetmə və gənclərdə mütaliə mədəniyyətinin formalaşmasında bədii ədəbiyyatın rolundan danışıblar. "Xan xəzinəsi" bukinist kitab mağazaları şəbəkəsinin qurucusu Xan Rəsuloğlu faydalı kitabları necə seçmək barədə tövsiyələr verib. Qazaxıstan yazıçısı, Türk dünyası tarixinin və ədəbiyyatının araşdırmaçısı Madi Raimov qardaş ölkədə bu sahədə tətbiq edilən innovativ metodlardan bəhs edib.

Toplantıda layihə ilə bağlı geniş müzakirə aparılıb.

***XQ***

Hava

# Abşeronda külək, bölgələrdə yağış, duman və külək

**Ekologiya və Təbii Sərvətlər Nazirliyi Milli Hidrometeorologiya Xidmətinin verdiyi məlumata əsasən, oktyabrın 18-də Bakıda və Abşeron yarımadasında buludlu hava şəraitinin üstünlük təşkil edəcəyi gözlənilir.**



Əsasən səhər və axşam bəzi yerlərdə qısamüddətli yağış yağacağı ehtimalı var. Gün ərzində arabir güclənən şimal-qərb küləyi əsəcək. Gecə 14-16°, gündüz 17-19° isti olacaq. Atmosfer təzyiqi 756 mm civə sütunundan 761 mm civə sütununa yüksələcək, nisbi rütubət gecə və gündüz 65-75 faiz olacaq. Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli intensiv və güclü olacağı, dolu düşəcəyi, dağlıq rayonlarda qar yağacağı ehtimalı var. Arabir duman olacaq. Qərb küləyi əsəcək, bəzi yerlərdə arabir güclənəcək. Havanın temperaturu gecə 11-15° isti, gündüz 16-19° isti, dağlarda gecə 3-7° isti, gündüz 7-11° isti olacaq.

***Q.QASIMOV***
***XQ***

***✓ 2017-ci ildə Azərbaycan Respublikasının Ekologiya və Təbii Sərvətlər Nazirliyi tərəfindən Əsgərov Hüsnəli Musa oğlunun adına verilmiş 3085 nömrəli ovçuluq bileti itdiyi üçün etibarsız sayılır.***

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 4002
SİFARİŞ 2373
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Paşa ƏMİRCANOV
Çapa imzalanmışdır 00:00